# CƏMİYYƏT VƏ TARİX

**Ustad Şəhid Mütəhhəri**

# ÖN SÖZ

Hər hansı bir ideoloji məktəbin cəmiyyət, bəşəriyyət və tarix haqqındakı anlayış və dünyagörüşü, həmin məktəbin ideologiyasının əsasını təşkil edir. Buna görə də islam ideologiyasını tanımaq üçün islamın, cəmiyyət və tarix haqqındakı baxış və əqidəsi aydınlaşmalıdır.

Aydındır ki, islam nə ictimaiyyət məktəbidir, nə də tarix fəlsəfəsi haqqında elmdir. İslamın müqəddəs kitabı Quranda, heç bir ictimai, ya tarixi mövzu sadə ictimaiyyət, ya tarix fəlsəfəsi dilində bəyan edilməmişdir. Başqa mövzular da, o cümlədən əxaq, fiqh və s. də adət etdiyimiz elmi dildə, yaxud sadə elmi anlayışlar çərçivəsində gətirilməmişdir. Eyni halda, həmin elmlər barəsində Qurandan bir çox şeyləri əldə etmək olar.

İslamın cəmiyyət və tarix barəsindəki düşüncəsi bir-biri ilə əlaqəli olduğuna və onların haqqında qısa olaraq bəhs istədiyimizə görə, onlardan bir fəsildə söhbət açmaq istəyirəm. Bu iki mövzu xüsusi əhəmiyyətə malik olduğuna görə, üzərində xüsusi araşdırma və təhqiqat aparılmağa layiqdir. Əlbəttə biz cəmiyyət və tarixə aid olan məsələləri islam ideologiyası ilə tanışlıq üçün zəruri olan miqdarda araşdıracağıq.

Əvvəlcə cəmiyyət, sonra isə tarix haqqında söhbət açacağıq.

**Cəmiyyətə aid olan məsələlər bunlardır:**

1. Cəmiyyət nədir?

2. İnsan təbiət etibarilə ictimai varlıqdırmı?

3. Görəsən, fərd əsasdır cəmiyyət ikinci dərəcəli, ya cəmiyyət mühümdür fərd ikinci dərəcəli, ya üçüncü bir fikir mövcuddur?

4. Cəmiyyət və adət-ənənə;

5. Görəsən ayrı-ayrı fərdlər, cəmiyyət və ictimai hadisələr qarşısında azaddır ya məcbur?

6. Cəmiyyət ilk növbədə hansı qütblərə, sinif və dəstələrə bölünür?

7. Görəsən, insan icmaları tam mənada müəyyən mahiyyət və növə malikdirlərmi? Onların ixtilafları – ayrı-ayrı fərdlərin ixtilafı kimi – eyni növə malikdir, ya ərazi, zaman və məkan şəraitindən, mədəniyyət səviyyəsindən asılı olaraq müxtəlif növ və müxtəlif mahiyyətələrə bölünür və buna uyğun olaraq da, bir-birinə zidd olan ideologiyalara malik olurlar? Başqa sözlə, insanlar məntəqə, irq, milliyyət və tarix baxımından bir-birindən fərqlənmələrinə baxmayaraq, quruluş cəhətindən eynidirlər və vahid fizioloji və tibbi qanunların nəzarətindədirlər. Görəsən ictimai baxımdan da eyni növə malikdirlər və ya eyni ictimai və əxlaqi sistem onları idarə edə bilərmi? Vahid ideologiya bəşəriyyətə hakim ola bilər, yoxsa hər cəmiyyət öz tarixi, mədəniyyəti və məkan şəraitindən asılı olaraq xüsusi mövqe tələb edir və özünəməxsus ideologiyası vardır?

8. Görəsən tarix yaranandan indiyə qədər pərakəndə və bir-birindən müstəqil, eyni zamanda bir-biri ilə ixtilafda olan insan icmaları, vəhdət və birliyə doğru irəliləyirlər və bəşər gələcəkdə vahid cəmiyyət, vahid mədəniyyət və vahid formaya və rəngə malik olacaq və nəticədə ixtilaflar,

fərqlər və təzadlar aradan gedəcək, ya xeyir, bəşəriyyət müxtəlif formada, müxtəlif rəngdə olmağa, müxtəlif mədəniyyət və müxtəlif ideologiyaların təsiri altında olmağa məhkumdur?

Bizim nəzərimizə əsasən, bunlar bir sıra mühüm məsələlərdir və gərək islamın onlar haqqındakı baxışı aydınlaşsın. Burada onlar haqqında ardıcıl və qısa şəkildə bəhs edəcəyik.

# BİRİNCİ FƏSİL
# CƏMİYYƏT

## CƏMİYYƏT NƏDİR?

Cəmiyyət, bir sıra adət-ənənə və xüsusi qanunlar çərçivəsində bir-biri ilə əlaqədə olan insanlardan təşkil olunur və bu insanlar cəm şəklində yaşayırlar. Cəm halında yaşamaq o demək deyildir ki, bir qurup insan bir-birinin kənarında və eyni məntəqədə yaşayır və eyni su, hava və qida maddələrindən istifadə edirlər. Bağda olan ağaclar da eyni su, hava və qida maddələrindən istifadə edirlər. Həmçinin, bir sürüdə olan ceyranlar da birlikdə otlayır, birlikdə su içirlər və birlikdə köç edirlər. Amma nə ağaclar, nə də ceyranlar ictimai həyata malik deyillər və birlikdə cəmiyyət təşkil etmirlər.

İnsanın yaşıyışı ictimai mahiyyətə malik olduğuna görə, cəmiyyət quruluşuna malikdir. Bir tərəfdən ehtiyaclar, işlər və fəaliyyətlər mahiyyətcə ictimaidir və yalnız əmək bölgüsü, malikiyyət bölgüsü bir sıra qayda-qanun çərçivəsində mümkündür, digər tərəfdən də həmin insanlar üzərində onları birləşdirən bir sıra fikir, ideya və xüsusiyyətlər hakimdir. Başqa sözlə, cəmiyyət eyni ehtiyaclar, eyni əqidə və fikirlər, eyni qanunlar çərçivəsində yaşayan və bir-biri ilə sıx əlaqədə olan insanlar toplusundan ibarətdir.

Ümumi ictimai ehtiyaclar və insan həyatına xas olan əlaqələr insanları, eyni avtomobildə, təyyarədə və gəmidə olan sərnişinlər qədər birləşdirir. Həmin insanlar eyni məqsədə doğru hərəkət edir, birlikdə hədəfə çatır və ya birlikdə qəzaya uğrayaraq yarı yolda qalırlar. Bir sözlə eyni tale ilə üzləşirlər.

Peyğəmbər (s) əmr be məruf və nəhy əz münkəri (yaxşıya dəvət, pisdən çəkindirməni) izah edərkən gözəl misal çəkmişdir:

**«Bir qurup insan gəmiyə minib yola düşdülər. Hər bir sərnişin öz yerində əyləşmişdi. Sərnişinlərdən biri, əyləşdiyi yerin yalnız ona məxsus olduğunu iddia edərək oranı deşməyə başladı. Əgər digər sərnişinlər ona mane olsaydılar, nə özləri qərq olardılar, nə də o biçarə.»** (Bu, «mən özümə cavabdehəm» deyən və cəmiyyət arasında günah və pozğunluğu yaymaq istəyən şəxslərə gözəl misaldır. Onlar öz çirkin əməlləri ilə təkcə özlərinə deyil, yaşadığı cəmiyyətin bütün üzvlərinə zərbə vururlar).

## İNSAN TƏBİƏT ETİBARİLƏ İCTİMAİ VARLIQDIRMI?

İctimai həyatın hansı amillərin təsiri altında meydana gəlməsi, qədim zamanlardan sual olaraq qalır. Görəsən, insan ictimai yaradılıbmı? Yəni, insan tam bir varlığın kiçik bir hissəsidir və həmin varlığa birləşmək meyli daxilindən gələn bir ehtiyacdırmı? Yaxud, insan ictimai

yaradılmayıb, sadəcə olaraq bir sıra xarici amillər onun ictimai yaşamasına səbəb olub. Yəni insan öz meylinə uyğun olaraq azad yaşamaq istəyir və ictimai həyatdan irəli gələn bir sıra məhdudiyyətləri qəbul etmir. Təcrübə nəticəsində sübut olunub ki, o, təkbaşına yaşaya bilməz və labüd olaraq, ictimai həyatın məhdudiyyətlərinə boyun əyməlidir. Yaxud, insan ictimai yaradılmayıb və heç bir xarici amil ictimai yaşamağı onun üçün icbari etməyib. Sadəcə, insan öz ağlının hökmü və hesablama nəticəsində bu fikrə gəlib ki, əgər birlikdə yaşayarsa, çətinliklərin öhdəsindən gəlmək, ehtiyacları ödəmək, müxtəlif nemətlərdən bəhrələnmək daha asan olar. Bütün bunlar, yalnız həmkarlıq, ictimai həyat və qarşılıqlı yardım sayəsində mümkündür. Ona görə də o, fərdi yaşayışı deyil, ictimai həyatı seçib. Deməli, məsələni üç şəkildə bəyan etmək olar: İnsanın ictimai həyatı təbiidir, məcburidir yoxsa könüllü?

Birinci nəzəriyyəyə uyğun olaraq, insanların ictimai həyatına bariz nümunə, qadın və kişinin ailə həyatıdır. Onlardan hər biri, yaradılmışların tərkibində tam varlığın kiçik hissələridir və hər birinin daxilində tam varlığa birləşmək meyli vardır.

İkinci nəzəriyyəyə misal olaraq iki dövlət arasındakı həmkarlıq və müttəfiqliyi göstərmək olar. Bu iki dövlət, ümumi düşmən qarşısında durduqlarına görə, bir-biri ilə əlaqə qurmağa, başqa sözlə desək, ictimai olmağa məcburdurlar.

Üçüncü nəzəriyyəyə misal olaraq, ictimai həyatı iki pullu şəxsin şərikliyinə bənzətmək olar. Həmin şəxslər,

daha çox gəlir əldə etmək üçün müştərək ticarət və ya sənaye müəssisəsi yaradırlar.

Birinci nəzəriyyəyə görə əsas amil, insanın daxili təbiətidir. İkinci nəzəriyyədə əsas amil insanın vücudundan xaricdə yerləşir. Üçüncü nəzəriyyədə isə, əsas fikir ağıl qüvvəsinə və fikir qabiliyyətinə yönəldilir. Birinci nəzəriyyəyə uyğun olaraq, ictimailik ümumi məqsəddir və insan öz fitrətinə uyğun olaraq həmin məqsədə doğru hərəkət edir. İkinci nəzəriyyə isə ictimailiyə bir təsadüf kimi baxır və onu ikinci dərəcəli hədəf hesab edir. Üçüncü nrəzəriyyədə artıq, ictimailik təbii məqsəd sayılmır.

Qurani-kərimin ayələrindən istifadə etsək, ictimailiyin insanın fitrətində və yaradılışında qoyulduğunu görərik. Hücurat surəsinin 13-cü ayəsində deyilir:

**«Ey camaat! Sizi bir kişi və bir qadından yaratdıq. Sizi, millətlərə və qəbilələrə böldük ki, bu yolla bir-birinizi tanıyasıznız. (Milli mənsubiyyətə görə fəxr etməyin). Sizlərdən təqvalı olanlarınız Allah yanında hörmətə malikdir.»**

Bu ayədə əxlaqi bir əmr verməklə yanaşı, insanın ictimai yaradılışına da işarə olunur. İnsan elə yaradılıb ki, müxtəlif milli quruplar və qəbilələr halında yaşayır. Müxtəlif millət və qəbilələrə bölünməklə, ictimai həyatın zəruriyyətlərindən olan bir-birini tanımaq və qarşılıqlı əlaqələr yaratmaq baş verir. Yəni bir tərəfdən insanların oxşar cəhətlərini və digər tərəfdən də onların fərqli cəhətlərini təyin edən bəzi bölünmə olmasaydı, bir-birini tanımaq olmazdı. Nəticədə insanların bir-biri ilə

əlaqəsindən meydana gələn ictimai həyat da mümkün olmazdı. Bu oxşar və fərqli cəhətlər, məsələn, surət, rəng və ölçü fərqləri hər bir insana, məhz ona xas olan xüsusiyyətlər verir. Əgər bütün insanlar bir formada, bir rəngdə və bir xüsusiyyətdə olsaydı və onların arasındakı rabitə və əlaqə müxtəlif olmasaydı onlar, bir fabrikdən çıxan və bir-birindən fərqlənməyən məhsula bənzəyərdilər. Onları bir-birindən ayırmaq, tanımaq, nəticədə əlaqə, fikir mübadiləsi, iş və əmtəə mübadiləsi üzərində qurulan ictimai həyat mümkün olmazdı. Deməli, qrup və qəbilələrin təbii hikmət və məqsədi vardır və bu məqsəd insanların bir-birindən fərqlənməsi, bir-birini tanımasıdır. Bu iki məqsəd ictimai həyatın zəruri şərtlərindəndir. Heç kim milli mənsubiyyətinə görə başqalarından yaxşı və ya pis deyildir, yalnız təqvalı olmaq üstün və şərəfli olmağa səbəb olur.

Fürqan surəsinin 54-cü ayəsində deyilir:

**«Bəşəri sudan yaradan Odur. Həmin insanları, nəsil və qohumluq əlaqələri üzrə bölən də Odur.»**

Bu ayədə, insanları bir-biri ilə birləşdirən və onların bir-birindən fərqlənməsinin əsası olan nəsil və qohumluq əlaqələrini ön plana çəkərək, onu ümumi hədəfə çatmaq üçün bəşərin fitrətində yerləşdirilmiş bir labüdlük kimi tanıtdırır.

Züxruf surəsinin 32-ci ayəsində buyurulur:

**«Rəbbinin rəhmətini bölüşdürdülərmi? Biz onların arasında artıq, dünya həyatının güzəran nemətlərini bölüşdürmüşük. Biri digərinə muzdla iş gördürsün deyə, onlara verdiyimiz məqamlarla**

**birini o birindən üstün tutmuşuq. Rəbbinin rəhməti isə, onların yığdığı dünya malından daha yaxşıdır.»**

Biz tohid bəhslərində (tohidi-dünyagörüşü bölməsində) bu ayənin mənaları haqqında bəhs etmişik və onu bir daha burada təkrar etmirik. Xülasə olaraq deyirik ki, ayədə insanların imkan və istedad baxımından eyni yaradılmadığı aşkar şəkildə göstərilmişdir. Əgər bu cür yaradılsaydılar, hamı eyni şeyə malik olar və birində olmayan başqalarında da olmazdı. Buna uyğun olaraq, heç bir həmkarlığa, qarşılıqlı yardıma və əlaqəyə ehtiyac qalmazdı. Tanrı insanları istedad, əqli, ruhi və fiziki imkanlar cəhətindən müxtəlif və fərqli yaradıb. Bəzilərinə, nemətlərdən bəhrələnməkdə başqasına nisbət üstünlük verib. Onlara isə, öz növbəsində sair nemətlərdən bəhrələnməkdə üstünlük verib. Bu yolla da, təbii olaraq hamını, bir-birindən asılı vəziyyətə salıb ki, bir-birinə ehtiyacları olsun. Beləliklə də, ictimai həyatın yaranması üçün şərait yaradıb. Bu ayə insanın ictimai həyatının təbii bir şey olduğunu təsdiq edir. Yəni ictimai həyat nə qarşılıqlı razılaşmadır, nə icbaridir və nə də vacib.

## CƏMİYYƏT ZAHİRİ VÜCUDA MALİKDİRMİ?

Cəmiyyət fərdlərdən ibarətdir. Əgər fərdlər olmasa, cəmiyyət də ola bilməz. Baxmaq lazımdır ki, bu cəm necə cəmdir və fərdlə cəmiyyət arasındakı rabitə hansı növdəndir? Burada bir neçə nəzəriyyə söyləmək olar:

**Birinci:** Cəmiyyətin fərdlərdən ibarət olan tərkibi həqiqi deyil. Yəni həqiqətdə fərdlər bir-birinə qarışmayıb. Həqiqi tərkib, o zaman yaranır ki, bir sıra işlər bir-birinə təsir etsin və bunların nəticəsində də, yeni bir şey meydana gəlmiş olsun. Bu hadisəni, biz kimyada görə bilərik. Məsələn, oksigen və hidrogen adlı qazların bir-birinə təsiri nəticəsində, yeni və fərqli xüsusiyyətlərə malik olan «su» meydana gəlir. Həqiqi tərkibin əsas xüsusiyyətlərindən biri də budur ki, təşkiledici amillər bir-birinə qarışdıqdan sonra, öz xüsusiyyətlərini itirib «tamın» içində həll olur.

İnsanlar, ictimai həyatda heç vaxt bu şəkildə bir-birinə qarışmır və cəmiyyətin daxilində tam formada həll olmurlar. Deməli, cəmiyyətin həqiqi və zahiri vücudu yoxdur. Əksinə, cəmiyyət şərti vücuda malikdir. Həqiqi vücuda malik olan yalnız fərddir. Beləliklə, insanın cəmiyyətdəki həyatı ictimai şəkildə olmağına baxmayaraq, həmin insanlar cəmiyyət formasını almırlar.

**İkinci:** Cəmiyyət, təbii tərkibdə birləşən həqiqi mürəkkəb deyil, süni mürəkkəbdir. Süni mürəkkəb isə təbii olmasa da, bir növ həqiqi mürəkkəbdir. Süni mürəkkəb, bir neçə sadə detallardan yığılmış mürəkkəb dəzgaha bənzəyir. Təbii mürəkkəbdə üzvlər külli varlıqda həll olaraq öz şəxsiyyət və azadlığını itirir. Amma süni mürəkkəbdə üzvlər öz azadlığını itirsələr də, şəxsiyyətlərini qoruyub saxlayır, xüsusi formada bir-biri ilə əlaqə yaradırlar. Nəticədə onların bir-birinə göstərdikləri təsir, tam yeni formalı təsir olur ki, əvvəlki təsirlərin heç birinə bənzəmir. Məsələn, bir avtomobil əşyaları və ya bir neçə şəxsi müəyyən sürətlə bir yerdən başqa bir yerə daşıyır. Bu hərəkət ayrı-ayrılıqda

avtomobilin heç bir hissəsinə aid deyildir və burada yalnız müxtəlif detalların bir-biri ilə əlaqəsi və bağlılığı mövcuddur. Bu heç də müxtəlif detalların varlığını və kimliyini yox etmir. Əksinə, mürəkkəb varlıq olan avtomobilin vücudu, ayrı-ayrı detallar və onlar arasındakı rabitə olmadan mümkün deyildir.

Cəmiyyət də bu cürdür. Cəmiyyət, əsas və ikinci dərəcəli qurumlardan ibarətdir. Burada onların asılı olduğu fərdlər, bir-birinə sıx bağlıdır. Bir qurumda baş verən dəyişiklik digər qurumlarda da dəyişikliyə səbəb olur. Deməli, ayrı-ayrı fərdlər öz varlıqlarını və kimliklərini, xüsusiyyətlərini və mənliklərini itirmədən, mürəkkəb varlıq olan ictimai həyatı meydana gətirirlər.

**Üçüncü:** Cəmiyyət, təbii mürəkkəbin bir növü olan həqiqi mürəkkəbdir. Ancaq burada bədənlər və üzvlər deyil, ruhlar, fikirlər, ideyalar, istəklər və mədəniyyətlər bir-biri ilə birləşirlər. Maddi ünsürlər bir-birinə təsir edərək, yeni xüsüsiyyətlərə malik vücud yaratdıqları kimi, ictimai həyata qədəm qoyan insan fərdləri də, ruhi cəhətdən bir-biri ilə qarışaraq «ictimai ruh» adlanan yeni ruhi şəxsiyyət yaradırlar. Bu tərkib, xüsusi bir təbii tərkibdir və buna bənzər heç bir şey tapmaq mümkün deyildir. Burada, üzvlər bir-birinə zahiri və həqiqi təsir göstərdikləri, nəticədə, zahiri və həqiqi dəyişikliklərə uğradıqları üçün, təbii və həqiqi tərkib adlanır. Bu birləşmədə mürəkkəb varlıq həqiqi surətdə mövcud olmadığına görə, digər təbii varlıqlardan fərqlənir. Yəni digər təbii mürəkkəb varlıqlarda tərkib və qarışma, həqiqi tərkibdir. Çünki üzvlər bir-birinə həqiqi təsir göstərir və onların şəxsiyyəti dəyişərək tam başqa bir varlığa çevrilir,

nəticədə vahid bir varlıq əmələ gətirir. Yəni çoxlu sayda ünsürlər birləşərək vahid bir şəxsiyyətə çevrilirlər.

Amma, cəmiyyət və insanın qarışmasındakı tərkib, təsadüfü və mümkün olan bir tərkibdir. Çünki, təsirlər və əlaqələr həqiqi olduğuna baxmayaraq, cəmiyyət üzvləri yeni şəxsiyyət əldə etsələr də, say çoxluğu vahid bir varlığa çevrilir və vahid insan yaranmır. Vahid insan çoxlu fərdlərin cəmindən ibarət olur, şərti varlığa malikdir və təsadüfü olaraq yaranmır.

**Dördüncü:** Cəmiyyət, təbii mürəkkəb varlıqlardan yüksəkdə duran həqiqi mürəkkəbdir. Təbii mürəkkəbdə üzvlər, birləşməzdən qabaq müstəqil şəxsiyyətə malik olur və bir sıra əlaqə və təsirlər nəticəsində yeni bir varlıq meydana gəlir. Ancaq insanlar yeni ictimai vücuda malik olmazdan əvvəl, heç bir insani şəxsiyyətə malik deyillər. Onlar bu prosesdən qabaq «ictimai ruhu» qəbul etməyə qadir olan boş bir qaba bənzəyirlər. Əgər ictimai vücudu nəzərə almasaq, insanlar yalnız insanlıq istedadlarına malik olan heyvandırlar. İnsanın insanlığı, yəni öz «mən»liyini hiss etməsi, insan düşüncəsi və fikrini, insan hisslərini və nəhayət, hisslərdən, meyllərdən, təfəkkürlərdən irəli gələn şəxsiyyəti duyması «ictimai ruhun» təsiri altında mümkün ola bilər. Yalnız «ictimai ruh» bu boş qabı doldura bilər və bu fərdi şəxsiyyət halına sala bilər. İctimai ruh əxlaq, din, elm, fəlsəfə və mədəniyyət formasında həmişə insanla birlikdə olub və olacaq da. Fərdlərin mədəni və ruhi əlaqələri, qarşılıqlı təsir etmələri «ictimai ruh» vasitəsilə baş verir. Əslində insan sosiologiyası onun psixologiyasından daha mühümdür. İnsan psixologiyasının onun sosiologiyasından

və ictimai vücudundan daha üstün olduğunu iddia edən əvvəlki nəzəriyyənin əksinə olaraq, bu nəzəriyyəyə görə, əgər insan icitimai vücuda və sosiologiyaya malik olmasaydı, onun fərdi psixologiyası da olmazdı.

* * *

Birinci nəzəriyyə tamamilə «fərd»ləri əsas götürür, cəmiyyətə və fərdlər cəminə heç bir əhəmiyyət vermir. Çünki, həqiqi vücuda malik olan cəmiyyət deyil, yalnız şəxslərdir. Hər bir şəxsin taleyi digərlərinin taleyindən asılı olmayaraq müstəqil şəkildə təyin olunur.

İkinci nəzəriyyə də üstünlüyü fərdə verir. Bu nəzəriyyəyə əsasən, cəmiyyət şəxslərdən müstəqil olan varlığa malik olmasa da, cəmiyyət üzvlərinin hər hansı bir qurum və ya digər üzvləri kimi, bir-birinin bağlılığını nəzərə alaraq, insanların müştərək taleyə malik olduqlarını söyləmək olar. Cəmiyyət, öz üzvləri arasında olan mexaniki əlaqələr cəhətindən, hər bir üzvün malik olduğu şəxsiyyətdən fərqlənən müstəqil bir varlığa malik olur.

Üçüncü nəzəriyyə isə həm şəxsi, həm də cəmiyyəti əsas sayır. Fərdlərin cəmiyyət vücudunda həll olması fikrinə etiqadlı olmadığına görə, bu nəzəriyyə fərdə üstünlük verir. Digər cəhətdən isə, fərdlərin cəmiyyətdə yeni şəxsiyyət tapmalarına inandığına, bu yeni şəxsiyyətin də bir tərəfdən həmin cəmiyyətin şəxsiyyəti olduğuna görə bu nəzəriyyəni cəmiyyəti üstün sayan nəzəriyyə adlandırmaq olar. Bu nəzəriyyəyə əsasən, üzv və ünsürlərin bir-birinə qarşılıqlı təsiri nəticəsində yeni həqiqət, yeni ruh, şüur, vicdan, iradə və istək meydana gəlir. Bu həqiqət, fərdi təfəkkür, iradə və vicdandan daha üstündür.

Dördüncü nəzəriyyə isə, tam surətdə cəmiyyətə üstünlük verən bir nəzəriyyədir. Bu nəzəriyyəyə əsasən, yalnız ictimai ruh, ictimai vicdan, ictimai şüur, ictimai iradə və ictimai «mən» mövcuddur. Fərdlərin şüur və vicdanı ictimai şüur və vicdanın kiçik bir hissəsidir.

Qurani-kərimin ayələri 3-cü nəzəriyyəni təsdiq edir. Əvvəlcədən dediyimiz kimi, Quran, məsələləri fəlsəfi ya elmi kitab kimi deyil, tam başqa cür bəyan edir. Quran cəmiyyət və şəxsə aid olan məsələləri elə bəyan edir ki, oradan üçüncü nəzəriyyənin təsdiq olunması başa düşülür. Quran «ümmətlər» üçün müştərək toplu, müştərək şüur, əməl və üsyan təyin edir.[1] Aydındır ki, əgər ümmətin zahiri vücudu olmazsa, tale, idrak, şüur və s. məhfumların da heç bir mənası olmayacaqdır. Bunlar, Quranın yalnız ictimai və toplu halında olan həyata etiqadlı olduğunu sübut edir.

**«Hər bir ümmətin əcəl vaxtı vardır. Onların əcəli gəlib çatdıqda bircə saat belə nə yubanar, nə də tələsərlər!» (Əraf-34).**

Bu ayədə söhbət, dəyişilməz və son nöqtəsi olan həyatdan gedir. Son nöqtəni nə geriyə çəkmək olar, nə də irəli və bu həyat ümmətə məxsusdur və burada fərdin heç bir rolu yoxdur. Məlumdur ki, ümmətin ayrı-ayrı fərdləri öz həyatlarını birlikdə və eyni anda deyil, ayrı-ayrı və bir-birindən fərqli olaraq itirirlər.

Casiyə surəsinin 28-ci ayəsində deyilir:

---

[1] Bax.-Əl-mizan.4-cü cild, səh-102.

**«Hər ümmət öz əməl dəftərinə tərəf çağırılacaqdır.»**

Buradan məlum olur ki, təkcə fərdlərin deyil, hətta cəmiyyətlərin də əməl dəftərləri vardır. Çünki, onlar da qanunları pozurlar, onlar da yaşayırlar və boyunlarında vəzifə vardır. Onların da öz iradəsi vardır və lazım olan gündə cavab vermək üçün öz əməl dəftərlərinə doğru çağırılacaqlar.

Ənam surəsinin 108-ci ayəsində deyilir:

**«Hər bir ümmətin öz əməllərini onlara gözəl göstərdik.»**

Bu ayə onu sübut edir ki, hər ümmət vahid şüura, müəyyən dəyərlərə və xüsusi düşüncə tərzinə malikdir və bütün bunlar yalnız onların özünə aiddir. Hər bir ümmət, məsələləri özünə xas formada həll edir, hər ümmətin öz səliqəsi var və ona görə də bəzi işlər bir ümmətin nəzərində yaxşı, o biri ümmətin nəzərində isə pis ola bilər. Ümmətin ictimai vəziyyəti ayrı-ayrı cəmiyyət üzvlərinin dərketmə qabiliyyətini, zövq və səliqəsini təyin edir.

Ğafir surəsinin 5-ci ayəsində deyilir:

**«Hər ümmət öz peyğəmbərlərini tutub öldürməyə cəhd göstərmiş və haqqı yalana çıxartmaq məqsədilə boş sözlərlə mübahisə aparmışdılar. Buna görə də mən onları əzabla yoxladım. Mənim cəzam necə oldu!»**

Bu ayədə söhbət, səhv ictimai iradə və səhv verilmiş qərardan gedir. Söhbət haqqa qarşı yersiz mübarizə haqqında verilmiş ictimai qərardan gedir. Söhbət ondan

gedir ki, belə ictimai qərarın cəzası, ümumi və ictimai əzabdır.

Qurani-kərimdə, bəzi hallara da rast gəlinir ki, orada bir cəmiyyətin üzvlərindən olan bir şəxsin işi bütün cəmiyyətə və ya bir nəslin işi sonrakı nəsillərə də aid olunur.[1] Bu, o hallarda baş verir ki, həqiqi cəmiyyət, vahid ictimai təfəkkürə, vahid ictimai iradəyə və vahid ictimai ruha malik olsun. Məsələn, Səmud qövmünün hadisəsində «Salehin dəvəsinin kəsilməsi» bütün ümmətə aid olunur. Halbuki bu işi təkcə bir nəfər etmişdi, lakin məlum olduğu kimi o hadisədə bütün qövm cinayət etmiş sayılır və onların hamısı cəzaya layiq bilinir.[2]

Əli (ə) Nəhcül-bəlağənin xütbələrindən birində buyurur:

**«Ey camaat! Hamını toplu halında birləşdirən, onlar arasında vəhdət yaradan və ümumi tale bəxş edən şey, xoşhallıq və qəzəbdir. (Əgər xalq, baş vermiş işə – hətta bir nəfər tərəfindən baş versə belə – razı və ya narazı olsa, hamı eyni taleyə və qismətə düçar olar). Tanrı öz əzabını ümumi şəkildə bütün Səmud xalqına göndərdi. Çünki bütün xalq bir nəfərin gördüyü işə razı idi. Baş vermiş əməl, əslində hamı tərəfindən qəbul olunmuş qərar idi. Tanrı öz sözlərində (Quranda) dəvəni öldürmək işini bir nəfərin əməli olduğu halda, bütün xalqa aid etdi və buyurdu: «O xalq**

---

[1] Bəqərə surəsi, 79-cu ayə. Ali-İmran surəsi, 112-ci ayə.

[2] Şəms surəsi, 14-cü ayə.

**öldürüldü», daha demədi ki, o xalqdan bir nəfər öldürüldü.»**[1]

Burada bir nöqtəni xatırlatmaq yaxşı olar ki, bir günaha razılıq vermək, əgər sırf razılıq olarsa və o günahda iştirak etmək kimi hesab olunmazsa, günah sayılmır. Məsələn, bir nəfər günah edir, başqa birisi günah baş verməzdən əvvəl və ya baş verdikdən sonra bu işdən xəbər tutur və edilmiş və ya ediləcək günahdan razı qalır. Hətta, əgər razılıq qərar formasında olarsa və əmələ çevrilməzsə, günah sayılmır. Bu ona bənzəyir ki, bir şəxs günah etməyi qərara alır, ancaq onu yerinə yetirmir. Razılıq o zaman günah sayılır ki, bir nəfər günah etmək qərarına gəlsin və o işdə iştirak etsin və ya o şəxsin qərara almasında və həyata keçirməsində təsiri olsun. İctimai günahlar da bu növ günahlardandır. İctimai mühit və ictimai ruh günahın baş verməsinə razı olur və icma üzvlərindən biri həmin günahı edir. Burada fərdin etdiyi günah cəmiyyətin günahı sayılır. Nəhcül-bəlağədə söylənilən söz də bu həqiqəti təsdiq edir. Əlbəttə bu, günahı edən şəxsin işinə və tutduğu qərara heç bir təsir etməyən razılıq və qəzəbə aid deyildir.

Qurani-kərimdə, bir nəslin gördüyü işlər sonrakı nəsillərə də aid edilir. Məsələn, Bəni-israil (yəhudi) qövmünün keçmiş işlərini Peyğəmbər (s) dövrünün yəhudilərinə də aid edir və keçmişdə peyğəmbərləri nahaq yerə öldürdüklərinə görə onların zillət və bədbəxtliyə layiq olduqlarını xatırladır. Quranın nəzərində onlar ruhi və əxlaqi cəhətdən qədim yəhudilərin ardıcılı, bəlkə də onlarla eyni olduqları üçün belə qiymətləndirilir. Elə buna

[1] Nəhcül-bəlağə. 199-cu xütbə, Şüəra surəsi, 157-ci ayə.

görə də deyirlər: **«Bəşəriyyət dirilərə nisbət daha çox ölülərdən təşkil olunub.»** Yəni bəşər həyatında ölülər dirilərə nisbətən daha çox rol oynayırlar. Yaxud belə deyirlər: **«Ölülər, lazım olandan daha artıq dirilər üzərində hakimlik edirlər.»**[1]

Əl-mizan təfsirində müəllif, «əgər cəmiyyət vahid ruhda və vahid ictimai fikirdə olarsa, şəxs formasına düşür və cəmiyyət üzvləri, insan bədəninin üzvlərinə, üzvlərin ləzzət və dərdləri isə insanın dərd və sevincinə çevrilir» fikrini bəyan etdikdən sonra, öz bəhsini belə davam etdirir:

**«Quran, milli ya dini təəssübkeşliyə görə vahid ümumi fikrə malik olan cəmiyyətlər və ümmətlər haqqında fikir söylədikdə, gələcək nəsillərdən keçmiş nəsillərin əməllərinə görə haqq-hesab tələb edir, onları günahlandırır. Ümumi fikrə və ictimai ruha malik olan xalqlarla, bundan başqa cür davranmaq olmaz.»**[2]

## CƏMİYYƏT VƏ ADƏT-ƏNƏNƏ

Əgər cəmiyyət həqiqi vücuda malik olarsa, özünəməxsus qanun və adət-ənənələrə yiyələnmiş olur. Yuxarıda, cəmiyyətin mahiyyəti barəsində bəhs etdiyimiz birinci nəzəriyyəni qəbul etsək, istər-istəməz cəmiyyəti qanunsuz və adətsiz formada qəbul etməliyik. Əgər ikinci nəzəriyyəni qəbul etsək və cəmiyyəti maşın və ya dəzgah

---

[1] İctimaiyyətdə fikrin əsas mərhələləri kitabı, səh-117.

[2] Əl-mizan. 4-cü cild, səh-112.

formasında təsəvvür etsək, cəmiyyətin bir sıra qanun və adət-ənənələrə malik olmasını etiraf etməliyik. Ancaq, bütün qanun və ənənələr cəmiyyətdə xüsusi həyat növləri olmadan, yalnız və yalnız, üzvlər arasında mexaniki əlaqə və səbəb-nəticə əlaqəsi formasında olacaq. Əgər üçüncü nəzəriyyəni qəbul etsək, əvvəla, cəmiyyətin ayrı-ayrı fərdlərdən müstəqil olan öz həyatına malik olduğuna görə – hərçənd ki, bu cəm halında olan yaşayışın müstəqil vücudu yoxdur və ayrı-ayrı fərdlərin yaşayışından ibarətdir – öz üzvlərinin adətlərindən fərqlənən qanun və adət-ənənəyə sahib olması məlum olacaqdır. İkincisi, burada cəmiyyəti təşkil edən insanların – maşın nəzəriyyəsinin əksinə olaraq – şəxsi azadlıqlarını müəyyən həddə əldən verərək vahid bir orqanizm halına düşməsi aydın olur. Ancaq, bununla belə, üzvlərin nisbi azadlığı qorunub saxlanılır. Çünki, şəxsi həyat, fərdi fitrət və fərdi fikir, ictimai həyatın tərkibində tamamilə həll olmur. Bu nəzəriyyəyə əsasən, insan iki həyat, iki ruh və iki «mən»lə yaşayır. Onlardan biri təbiətin fitri hərəkəti nəticəsində doğulan həyat, ruh və «mən», digəri isə ictimai həyatdan doğan həyat, ruh və «mən»dən ibarətdir. İkinci də, fərdi «mən»in daxilində həll olur və insan üzərində, həm psixoloji, həm də ictimai qanunlar hakimlik edir. Nəhayət dördüncü nəzəriyyəyə görə, insan üzərində yalnız bir qanun və adət-ənənə – ictimai qanun və adətlər hakimlik edir.

İslam alimləri arasında ilk dəfə olaraq fərdlərin qanun və adətlərindən fərqli olan və yalnız cəmiyyət üzərində hakim olan özünəməxsus qanun və adətlərdən söz açan və bununla da cəmiyyətə «şəxsiyyət», «təbiət» bəxş edən ilk

alim Tunisli Əbdürrəhman ibni Xəldun olmuşdur. O, bu barədə özünün «Müqəddimə» adlı əsərində geniş bəhs etmişdir. Müasir alimlərdən isə, cəmiyyət həyatı üzərində hakim olan qanunları araşdıran «Monteskyü» (18-ci əsrin məşhur fransız alimi) olmuşdur. Reyman Aron, Monteskyü barəsində yazır:

«Onun hədəfi tarixi dərk oluna biləcək hala salmaqdır. O, tarixi məlumatın mənasını dərk etməyə çalışır. Bəli, tarixi məlumat ona müxtəlif şəkildə, çox sayda adət-ənənə, fikir, qanun və ictimai qurum formasında çatdırılır. Çox güman ki, bu müxtəliflik araşdırmanın başlanmasına səbəb olub. Araşdırmanın sonunda gərək, bu müxtəlifliyi nizama sala biləcək bir qayda kəşf olunsun. Monteskyü də Maks Veber kimi, bir-biri ilə əlaqəsi olmayan məlumatlar vasitəsilə, ağılın dərk edə biləcəyi bir sistemə çatmaq istəyir. Bəli, bu ictimaiyyətçinin keçə biləcəyi yoldur.»[1]

Qısa olaraq demək lazımdır ki, ictimaiyyətçi, müxtəlif ictimai hadisələr arasında bir uyğunluq kəşf edir. Hadisələrin müxtəlifliyi, son nəticədə hadisələrin vəhdətini təcəssüm etdirir.

Oxşar ictimai hadisələrin oxşar səbəblərdən doğması haqqında romalıların böyüklüyü və süqutunun səbəblərinin araşdırılması kitabında belə yazılıb:

«Dünyada təsadüf hökm sürmür. Bu məsələni, romalılardan soruşmaq olar. Çünki, nə qədər ki, onların hakimiyyət proqramları və hədəfləri var idi, müvəffəqiyyətlərlə üzləşirdilər. Elə ki, hədəflərini dəyişdilər, taleh onlardan üz döndərdi. Bütün dövlət

---

[1] İctimaiyyətdə fikrin əsas mərhələləri kitabı, səh-26.

sistemlərində, istər əxlaqi və istərsə də cismani səbəblər vardır ki, dövlətin yaranmasına, inkişafına, möhkəmlənməsinə və zəifləyib dağılmasına səbəb olur. Bütün baş verənlər bu səbəblərdən asılıdır və əgər təsadüfən bir müharibə – cüzi səbəb – dövlətin axırına çıxarsa, deməli hər hansısa bir külli səbəb mövcuddur və məhz bu səbəb dövlətin bir müharibə nəticəsində dağılmasına səbəb olur. Sözün qısası, işlərin ümumi gedişi baş verə biləcək kiçik hadisələrin yaranmasında böyük rol oynayır.»[1]

Qurani-kərim, ümmət və cəmiyyətləri vahid toplu olduqları üçün adət-ənənə və qanuna sahib olduqlarını və onların bu şərait daxilində yaranıb dağılmalarını aydın şəkildə söyləyir. Müştərək taleyə malik olmaq, cəmiyyətin müəyyən adət və ənənələrə sahib olduğunu göstərir. Quran, Bəni-israil barəsində deyir:

**«Biz İsrail oğullarına Tövratda: «Siz yer üzündə (Zəkəriyyanı, sonra da Yəhyanı öldürməklə) iki dəfə fitnə-fəsad törədəcək və çox dikbaşlıq (və yaxud zülm) edəcəksiniz!» – deyə, bildirdik.»**

**«Onlardan (o fitnə-fəsadın) birincisinin (cəza) vaxtı gələndə üstünüzə çox güclü bəndələrimizi (Buxtunnəsəri, yaxud Calutu orduları ilə birlikdə) göndərdik. Onlar (sizi öldürmək, əsir almaq və qarət etmək üçün) evlərinizin arasında gəzib-dolaşır, sizi təqib edirdilər. Bu vəd artıq yerinə**

[1] İctimaiyyətdə fikrin əsas mərhələləri kitabı, səh-27.

**yetirildi. (Siz Zəkəriyyanı öldürdünüz, onlar da sizi qətl edib, əsir alıb, yurdunuzu xaraba qoydular.»**

**«(Bundan) sonra sizə onların üzərində təkrar zəfər çaldırdıq, (yenidən) var-dövlət, oğul-uşaq verməklə kömək göstərdik və sayca sizi (əvvəl olduğunuzdan və ya düşmənlərinizdən) daha çox etdik.»**

**«Yaxşılıq da etsəniz, özünüzə etmiş olursunuz, pislik də! İkinci fitnə-fəsadınızın (cəza) vaxtı gəldikdə, üzünüzü qara etmək (sizi xəcil etmək), məscidinizə birincə dəfə girdikləri kimi girmək və ələ keçirdikləri hər şeyi məhv etmək üçün Fars və Rum padşahlarını) üstünüzə göndərdik. (Siz Yəhyanı öldürdünüz, onlar əvəzində sizi qətl edib, məbədinizi dağıdıb, yurdunuzu viran qoydular.)»**

**«(Tövbə edəcəyiniz təqdirdə), ola bilsin ki Rəbbiniz sizə rəhm etsin! Əgər siz (yaramaz əməllərinizə) qayıtsanız, Biz də sizə yenidən cəza verərik. Biz, cəhənnəmi kafirlərdən ötrü bir zindan etdik.» (İsra-4-8).**

**Nəticə:** Əgər siz yaramaz əməllərinizə qayıtsanız, Biz də sizə yenidən cəza verərik – cümləsi xitab olunanlar vahid bir ümmət olduğu üçün, cəmiyyətlər üzərində hakim olan qanunların ənənə halında olmasını aydınlaşdırır.

## İCBAR YA İXTİYAR?

Alimlər arasında, xüsusilə də son əsrdə ən çox bəyan olunan əsas məsələlərdən biri də insanın fərdi və ictimai məsələlər qarşısında azad və muxtar və ya məcbur və asılı olması məsələsidir. Başqa sözlə, fərdi ruhun ictimai ruh qarşısında hansı mövqedə dayanması məsələsidir.

Əgər birinci nəzəriyyəyə uyğun olaraq, insan vücudu və fərdlərin əsas, cəmiyyətin isə şərti mürəkkəb olmasını qəbul etsək, heç bir ictimai icbarın olmaması aydın olur. Çünki, fərdi güc və qüdrətdən savayı, ictimai güc və qüdrət adlı bir qüvvə yoxdur ki, onlar üzərində hakim olsun və beləliklə də, ictimai icbar meydana gəlsin. Əgər asılılıq olsa belə, cəmiyyətdən deyil, fərdin ayrı-ayrı fərd və ya fərdlərdən asılılığından danışmaq olar. Əgər dördüncü nəzəriyyəni qəbul etsək və fərdi, insani şəxsiyyət baxımından boş bir qaba və ya xam maddəyə bənzədərək, fərdin şəxsiyyətini, ağlını və iradəsini, ictimai ağıl və iradənin bir hissəsi kimi qəbul etsək, ictimai ruhun ictimai məqsədlərə çatmaq üçün fərdi ruhda zahir olmasına inansaq və nəhayət cəmin sırf üstünlüyünü qəbul etsək, fərdin ictimai işlərdə azad və ixtiyar sahibi olması fikrinə heç bir əsas qalmır.

Məşhur fransız sosioloqu Emil Durkeym, cəmiyyətin əsas olması tərəfdarı kimi deyirdi:

«İctimai işlər (yatmaq və yemək kimi işlərin əksinə olaraq) fərdin iradə və fikrinin deyil, cəmiyyətin məhsuludur və onlar üç xüsusiyyətə malikdir: Xarici, icbari və ümumi olmaq. Onun xarici sayılması fərdin vücudundan xaricdən – yəni cəmiyyət tərəfindən –

onun boynuna qoyulmasına görədir. Bu işlər fərd olmamışdan qabaq da cəmiyyətdə var idi və fərd, cəmiyyətin təsiri altında onları qəbul etmək məcburiyyətində qalır. Adət və ictimai qaydaların, din və mədəniyyətin qəbul olunmasını buna misal çəkmək olar. Onun icbari olması isə, özlərini zorla şəxsə qəbul etdirərək onun vicdanını, fikrini, hisslərini öz nüfuzları altına alması səbəbi ilədir. İcbari olmaq, öz növbəsində ümumi olmağı və hamı tərəfindən qəbul edilmək zəruriyyətini yaradır.

Üçüncü nəzəriyyəyə əsasən, cəmiyyətin qüvvəsi şəxsi qüvvədən çoxdur və onda şəxslər ictimai işlərdə heç bir icbara tabe olmurlar.»

Durkeynin «icbarı», təbiət daxilində insan təkamülündən doğan insan fitrətinin əsaslığının unudulmasından irəli gəlir. Bu fitrət insana, ictimaiyyətin zorla qəbul etdirdiklərinə qarşı çıxmaq üçün azadlıq, imkan və iradə verir. Elə buna görə də fərdlə cəmiyyət arasındakı əlaqəyə bir növ ortaq məxrəc hakimlik edir (yəni həm insan əsasdır, həm də cəmiyyət).

Qurani-kərim, cəmiyyətin təbiət, şəxsiyyət, qüvvə, həyat, ölüm, vicdan və s. şeylərə malik olduğunu qeyd etdiyinə baxmayaraq, insanın, ictimai hadisələrə qarşı çıxmağa qadir olduğunu da aydın şəkildə bildirir. Quran, «Fitrətullah» (yəni, ilahi fitrət) sözü üzərində təkid edir. Nisa surəsinin 97-ci ayəsində, Məkkə cəmiyyətində özünü zəif və məzlum adlandıran və öz fitri məsuliyyətlərini yerinə yetirməmək üçün zəifliklərini bəhanə gətirən, cəmiyyət qarşısında icbara tabe olduqlarını iddia edən bir

qrup haqqında, onların bəhanələrinin qəbul olunmayacağını bildirir. Çünki onların, ən azı həmin cəmiyyətdən hicrət edərək başqa ictimai şəraitə köçmək imkanları var idi.

Başqa yerdə buyurur:

**«Ey iman gətirənlər! Nəfslərinizi qorumaq sizin öz borcunuzdur. Siz doğru yolda olsanız, [haqq yoldan] azanlar sizə heç bir zərər yetirə bilməzlər. Hamınızın axır dönüşü Allahadır. Allah etdiyiniz əməllər barəsində sizə xəbər verəcəkdir!» (Maidə-105).**

Məşhur «Zərr» ayəsində Allah-taala tohidi, insanların fitrətində yerləşdirdiyinə işarə etdikdən sonra buyurur:

**«Sonradan, atalarımız müşrik olublar və bizim də çarəmiz yoxdur, gərək atalarımızın dinində qalaq, çünki məcburuq, deməmələri üçün bu işi gördük. Allahın verdiyi belə fitrətlə heç bir icbar sizi məcbur edə bilməz.»**

Quran, məsuliyyət üzərində də təkid edir: Fərdi və ictimai məsuliyyətdən, yaxşı işlərə dəvət, pis işlərdən isə çəkindirmədən, fərdlərin ictimai qanunsuzluğa qarşı çıxmasından bəhs edir. Nuhun, İbrahimin, Musanın, İsanın, Rəsulullahın, Əshabi-kəhfin və digər möminlərin əhvalatında da bu məsələ haqda danışır.

Fərdin cəmiyyət və ictimai mühit qarşısında məcbur olmaq fərziyyəsinin kökü, həqiqi tərkibin yaranması üçün üzvlərin bir-birinə qarışıb həll olması və ümumi çoxluğun vahid vücuda çevrilməsi və yeni həqiqətin meydana

gəlməsi fikridir. Ya burada fərdlərin azad, muxtar və həqiqi şəxsiyyətlərini qəbul edərək tərkibin şərti və cəmiyyətin zahiri olduğunu etiraf etməliyik, yaxud da fərdi ixtiyar və müstəqilliyə qarşı çıxmalıyıq. Bunların ikisi arasında ortaq bir fikir qəbul etmək qeyri-mümkündür. İctimaiyyət elmində mövcud olan bütün dəlil və sübutlar cəmiyyətin zahiri olduğunu təsdiq etdiyi üçün, ikinci fikrin batil olduğunu qəbul etməliyik.

Həqiqət budur ki, fəlsəfi nöqteyi-nəzərdən, bütün həqiqi tərkibləri eyni və oxşar saymaq olmaz. Təbiətin aşağı səviyyələrində – yəni cansız əşyalarda – üzvlər və təşkiledici ünsürlər tamamilə bir-birinə qarışaraq həll olur və onların vücudu vahid «külli» vücudda birləşir. Bunun oxşarını biz yuxarıda qeyd etdiyimiz oksigenlə hidrogen adlı iki ünsürdən yaranan suda görürük. Amma tərkib nə qədər yuxarı səviyyədə yerləşərsə, təşkiledici ünsürlər bir o qədər müstəqillik əldə edir və külli vücuda nisbətən azad olurlar. Bununla da vəhdət daxilində ayrılıq və ayrılıq daxilində vəhdət yaranır. İnsan vücudu bütün bunlara bariz nümunədir. Onun vücudu vahid olduğu halda, ayrı-ayrı ünsürlərin cəmidir və bu ünsürlər nəinki, öz qüvvə və müstəqilliklərini qoruyur, hətta, bəzi vaxtlarda bu qüvvə və müstəqilliklər arasında ixtilaf da yaranır. Cəmiyyət, təbiətin ən ali varlığıdır və onun üzvlərinin nisbi azadlıqları daha çoxdur.

Deməli, cəmiyyətin təşkiledici ünsürləri olan insanlar, öz təbii və fərdi vücudlarında fitri ağıl və iradəyə malikdirlər. Digər cəhətdən də, təbiətin yuxarı təbəqələrində üzvlərin nisbi azadlıqları daha çox olduğuna

görə, şəxslər – daha doğrusu, fərdi ruh cəmiyyət, ya ictimai ruh qarşısında azad və ixtiyar sahibidir.

## İCTİMAİ QÜTBLƏŞMƏLƏR VƏ BÖLÜMLƏR

Cəmiyyət müəyyən növlü vəhdətə malik olduğuna baxmayaraq, müxtəlif və bəzi hallarda bir-birinə zidd olan qruplara, təbəqələrə və siniflərə bölünür. Bu həmişə belə olmasa da, bir çox hallarda bəzi cəmiyyətlər üçün xarakterik xüsusiyyət hesab olunur. Hətta mümkündür ki, cəmiyyət vəhdətə malik olduğuna baxmayaraq, öz daxilində bir-birinə müxalif və hətta zidd qütblərə də bölünsün. Deməli, cəmiyyət vahid ola-ola ayrılığa və ayrı-ayrı ola-ola vəhdətə malikdir. İslam alimlərinin dili ilə desək, cəmiyyətdə təklik daxilində çoxluq və çoxluq daxilində təklik hakimdir. Əvvəlki fəsillərdə cəmiyyətdəki vəhdətin hansı növdən olması haqda söhbət açılırdı. İndi isə, cəmiyyətdəki çoxluq və müxtəlifliyin hansı növdən olması haqqında danışacağıq. Bu barədə iki məşhur nəzəriyyə vardır:

**Birincisi**, tarixi materializm və dialektik təzad halında olan nəzəriyyədir. Bu nəzəriyyəyə əsasən – onun barəsində sonra danışacağıq – hər şey malikiyyət ünsüründən asılıdır. İbtidai icma quruluşu və fərzi kommuna kimi xüsusi mülkiyyət forması olmayan cəmiyyətlərdə, adətən bir təbəqə və bir qütb olur. Amma, xüsusi mülkiyyət formasına malik olan cəmiyyətlər iki quruma malik olur. Deməli, cəmiyyət ya tək, ya iki qurumlu ola bilir və üçüncü formanın olması mümkün deyildir. İki qütblü cəmiyyətlərdə insanlar istismarçılara və istismar

olunanlara bölünürlər, burada hakim və məhkumdan başqa üçüncü şəxs, ya təbəqə yoxdur. Cəmiyyətin digər ünsürləri də, məsələn, fəlsəfə, əxlaq, din və mədəniyyət də iki qrupa bölünür. Biri hakim, o birisi isə zəif təbəqəyə məxsusdur. Bunların hər ikisinin cəmiyyətdə özünəməxsus nüfuzu var, hətta əgər bunlardan biri ictimaiyyət üzərində hakimlik edərsə, bu o deməkdir ki, o cəmiyyət iki təbəqədən birinə məxsusdur və o biri təbəqəyə zorla qəbul etdirilib. Bunun ayrı növü mövcud deyildir.

**İkinci** nəzəriyyə budur ki, cəmiyyətin təkqütblü, ikiqütblü və ya çoxqütblü olması malikiyyət formasından asılı deyil. İdeoloji, mədəni, ictimai amillər də cəmiyyətin çoxtəbəqəli olmasına səbəb ola bilər. Xüsusilə də, mədəni və idoloji amillər mühüm rol oynayaraq, cəmiyyəti nəinki iki, hətta bir neçə qütbə bölə bilər, hətta bu amillər malikiyyət ünsürü ləğv olunmadan da, cəmiyyəti birləşdirə və ya parçalaya bilər.

İndi baxaq görək Quranın cəmiyyət müxtəlifliyi haqqında fikri nədir? Müxtəlifliyi və ixtilafı qəbul edir, yoxsa yox? Əgər qəbul edirsə, cəmiyyətin təbəqəli olması haqqında nə fikirdədir. Cəmiyyət malikiyyət və istismara əsasən iki qrupa bölünür, ya başqa formaya məxsusdur? Güman etmək olar ki, Quranın nəzərini öyrənmək üçün ən yaxşı yol, Qurandakı ictimai sözləri araşdıraraq bu sözlərin mənasının necə izah edildiyini öyrənməkdir.

Qurandakı ictimai sözlər iki növdür: Onlardan bəziləri, ictimai ünsürlərə aiddir. Məsələn, millət, şəriət, düzgün yol, adət-ənənə və s. bu sözlər bizim bəhsimizə daxil deyildir. Amma, başqa anlayışlar da vardır ki, ya bütün insanlar, ya da bir qrup insanlar üçün ictimai məna daşıyır.

Bu sözlər, Quranın nəzərini təyin etməkdə köməklik göstərə bilər. Qövm, ümmət, qəbilə, şöbə, rəsul, nəbi, imam, vəli, mömin, kafir, münafiq, müşrik, mühacir, mücahid, siddiq, şəhid, müttəqi, saleh, yaxşıya dəvət edən, pisdən çəkindirən, alim, zalım, nəsihət verən, xəlifə, kahin, ali, zəif, kasıb, varlı, malik, azad, qul, rəbb və s. bunlara aiddir.

Əlbəttə, zahirdə bunlara bənzər sözlər çoxdur. Müsəlla, müxlis, sadiq, abid və buna bənzər sair sözlər də mövcuddur. Amma bu sözlər qrupları öyrənmək və aydınlaşdırmaq üçün deyil, yalnız bir sıra əməlləri bəyan etmək üçün qeyd olunub,. Elə buna görə də bu sözlərin qrup, təbəqə və qütbləri aydınlaşdıracağı ehtimalı çox azdır.

Birinci qrupa aid olan sözlərin işləndiyi ayələr, xüsusilə də ictimai proseslərə adi olanlar, gərək araşdırılsın və aydın olsun ki, bütün bunları iki təbəqədə yerləşdirmək olar, yoxsa yox? Və əgər iki qrupda yerləşərlərsə, onların əsas nişanələrindən sayılırlar, yoxsa yox? Məsələn, etimad baxımından onları mömin və kafir adlı iki qrupa, ya iqtisadi baxımdan varlı və kasıb adlı qruplara bölmək olarmı? Başqa sözlə, bütün bu bölüşmələrin sonda bir əsas bölüşməyə qayıdıb-qayıtmamasını aydınlaşdırmaq lazımdır.

Bəziləri iddia edirlər ki, Quran cəmiyyəti iki qütbə ayırır. Quranın nəzərindən cəmiyyət iki mərhələdə, hakim və istismarçı, zəif və istismar olunan qütbə bölünür. Quran birinci qütbü «müstəkbir» (hegemon), ikinci qütbü isə «müstəzəf»(məzlum kütlə) adlandırır. Sonrakı bölmələr, məsələn, mömin və kafir, təkallahlı və müşrik, əməli-saleh

və günahkar ikinci dərəcəli bölmələrdir. Yəni nifaqa, şirkə, küfrə səbəb olan istikbar və istismarçı təbəqə; islah, cihad, hicrət, iman və s. şeylərə səbəb olan istizaf. Başqa sözlə, Quranın etiqadi, əxlaqi və ya əməli azğınlıq adlandırdığı proseslərin səbəbi iqtisadi əlaqələrin bir növü olan istismarçılıq, təsdiq etdiyi əməllərin əsas səbəbi isə məzlumluq və istismar olunmaqdır. İnsanın vicdanı təbii olaraq onun maddi vəziyyətindən asılıdır. Maddi yaşayış səviyyəsində dəyişiklik olmadan ruhi, əxlaqi və nəfsani vəziyyətin dəyişəcəyini gözləmək düzgün deyildir. Elə buna görə də, Quran ictimai mübarizəni təbəqələr arası mübarizə formasında doğru və düzgün sayır. Yəni əxlaqi və ya etiqadi mübarizə ilə müqayisədə ictimai mübarizəyə daha çox üstünlük verir. Quran nəzərindən kafirlər, münafiqlər, müşriklər, günahkarlar, fasiqlər, zalımlar, «israfçı və müstəkbir» adlanan qrupların içindən çıxırlar. Bu qrup və ya şəxslər qarşı təbəqədən çıxdığı kimi, peyğəmbərlər, rəsullar, imamlar, siddiqlər, şəhidlər, mücahidlər, mühacirlər və möminlər də zəif təbəqədən çıxır və onların da qarşı təbəqədən çıxması heç cür mümkün deyildir. Deməli, istikbar və zəiflik, ictimai vicdanı yaradır və o da öz növbəsində ictimaiyyət arasında qütbləşmə aparır. Bütün başqa xüsusiyyətlər, istismarçılığın və istismar olmağın əlamət və nişanələridir. Quran təkcə adı çəkilən iki əsas qrupu zəif və zalımların nümunəsi saymır, eyni zamanda onların bir sıra yaxşı və pis xüsusiyyətlərini də sadalayır. Birinci qrup xüsusiyyətlər zəif və əzilən dəstələrə, ikinci qrup xüsusiyyətlər isə zalım dəstələrə aid edilir. Deməli, istismar etmək və istismar olunmaq iki qrupu bir-birindən

ayırmaqla yanaşı, onların bir-birinə zidd olan əxlaqi xüsusiyyətlərini də göstərir. İstismarçılıq və zəiflik bütün seçimlərin, təmayüllərin və hətta, mədəni proseslərin əsası və özülüdür. Əxlaq, fəlsəfə, incəsənət, ədəbiyyat, din və s. şeylər həmin təbəqənin ictimai təmayüllərini göstərir. Hər şey mövcud vəziyyətin qorunmasına xidmət edir və tənəzzülə, geriləməyə səbəb olur. Bunun əksinə olaraq, zəiflər təbəqəsinə məxsus olan əxlaq, fəlsəfə, ədəbiyyat, incəsənət və ya din inqilabçı və qurucu olur. İstismarçı təbəqə ictimai sərvətləri öz əlində topladığına görə, dar düşüncəli, eyş-işrət düşkünü və mövcud vəziyyəti qorumağa çalışan olur. Əksinə, əzilən təbəqə agah, inqilabçı, daim hərəkətdə olan və yeni-yeni formalar tələb etmək xüsusiyyətinə malik olur.

Bu şəxslərin əqidəsinə görə, Quran insanı yaradan, onun təbəqəsini müəyyən edən, onu istiqamətləndirən, ideoloji, dini, əxlaqi və fikri əqidəsini təyin edən amilin maddi vəziyyət olması nəzəriyyəsini təsdiq edir. Ümumiyyətlə Qurandakı ayələrdən aydın olur ki, o, öz təlimatlarını bu əsasda bəyan edir. Elə buna görə də, bir qütbə bağlı olmaqla bütün şeyləri təyin edir. Bu meyarla bütün iddiaları öyrənmək olar. Mömini, islahatçını, rəhbəri və hətta peyğəmbərlik, ya imamlıq iddiası edənləri bu əsasla təsdiq və ya təkzib etmək olar.

Həqiqətdə bu nəzəriyyə insana və cəmiyyətə maddi nəzərdən baxır. Şübhəsiz Quran, şəxslərin ictimai vəziyyəti üzərində xüsusi dayanır, lakin bu o demək deyildir ki, Quran bütün bölmələri və qütbəşmələri bu əsasla aparır və ya təyin edir. Bizim nəzərimizə görə, cəmiyyətə bu növ baxış, islamın insana, dünyaya və

cəmiyyətə baxışı ilə uyğun gəlmir. Bu nəzəriyyə, Quran məsələlərində səthi araşdırmalar nəticəsində meydana çıxıb. Bu barədə gələcək bəhslərdə geniş şəkildə söhbət açacağıq.

## MAHİYYƏT BAXIMINDAN CƏMİYYƏTLƏRİN NECƏLİYİ

Bu məsələnin qoyuluşu da hər bir məktəb üçün vacibdir. Çünki məhz bu məsələnin araşdırılması ilə bütün insan cəmiyyətlərinin bir ideologiyaya tabe ola bilməsi, ya onların, cəmiyyətlərin sayına uyğun olmasının zəruriliyi və ya hər bir cəmiyyət və millətin özünəməxsus ideologiyaya sahib olması aydınlaşır. İdeologiyalar adətən cəmiyyətləri xoşbəxtlik və kamilliyə aparan yolların yekun mərhələsidir. Digər tərəfdən də bilirik ki, hər bir növün özünəməxsus kamillik və səadət proqramı vardır. Heç vaxt atın səadət və kamalı, qoyunun, yaxud insanın səadət və kamalı ilə eyni ola bilməz.

Deməli, əgər cəmiyyətlərin hamısı eyni mahiyyətə, eyni xüsusiyyətlərə və eyni zata malik olarlarsa, vahid ideologiyaya yiyələnmək ehtimalı çoxalır. Onların ixtilafı fərdi səviyyədə olur, hər bir ideologiya isə fərd və növlər səviyyəsində dəyişmək və islahat qabiliyyətinə malikdirlər. Amma əgər, cəmiyyətlər müxtəlif zat və xüsusiyyətlərə malik olsalar, təbii olaraq onlar müxtəlif ideya və planlara sahib olacaq və bu da, vahid ideologiyanın onları ümumi şəkildə əhatə etməsinə ya birləşdirməsinə imkan verməyəcək.

Cəmiyyətlərin dəyişilməsi haqda – müəyyən zaman çərçivəsində – misallar çoxdur. Görəsən, cəmiyyətlər öz dəyişmə proseslərində mahiyyətlərini də dəyişdirirlərmi və bununla da növlərin dəyişilməsi qaydası – cəmiyyətlər səviyyəsində – baş verirmiş, ya ictimai dəyişikliklər də daxil olmaqla onlar eyni növə aiddirlər və onun mahiyyət və xüsusiyyəti bütün islahatlara baxmayaraq olduğu kimi qalır?

Birinci məsələ cəmiyyətə, ikinci məsələ isə tarixə aiddir. Hal hazırda biz yalnız birinci məsələdən danışmaq istəyirik və ikinci məsələni, tarix bəhsinə saxlayırıq.

Sosiologiya elmi, «cəmiyyətlər arasında bir sıra müştərək zati və fitri xüsusiyyətlər var ya yox?» məsələsinə aid nəzər söyləyə bilər. Cəmiyyətlərin bir-biri ilə ixtilafları yalnız səthi və ikinci dərəcəli işlərdəndirmi – bu ikinci dərəcəli işlər cəmiyyətin fitrətindən xaricdədir – və cəmiyyətin zatına aid olan məsələlər müştərəkdirmi? Ya cəmiyyətlər fitri olaraq müxtəlifdirlər və hətta xarici şəraitləri eyni olmasına baxmayaraq, müxtəlif cür hərəkət edirlər?

Bu sualı araşdırmaq üçün ən yaxşı vasitə insanın özüdür. İnsanın müstəqil bir növ olduğu aydın məsələdir. Bioloji xüsusiyyətlərə əsasən, insan yarandığı andan heç bir dəyişikliyə məruz qalmayıb. Bəzi alimlərin fikrincə, təbiət canlıların təkamülünü insan mərhələsinə çatdırdıqdan sonra yolunu dəyişib öz təkamülünü bioloji mərhələdən ictimai mərhələyə keçirdir və bununla da o, bədən formasını dəyişməklə mənəviyyat və ruhun təkamülü istiqamətində hərəkətə başlayır. İnsanın ictimai olması barəsindəki bəhslərdə bu nəticəyə gəldik ki, insan

öz fitrətinin hökmünə əsasən və öz xüsusiyyətlərinə uyğun olaraq ictimai bir varlıqdır. Yəni, insanın ictimai olması, cəmiyyət şəklində yaşaması və ictimai ruha malik olması onun zati xüsusiyyətlərindən irəli gəlir. İnsan növü özünün layiq olduğu kamilliyə çatmaq üçün – buna, onun həm istedadı, həm də bacarığı çatır – ictimaiyyətə və cəmiyyətə doğru meyl edir və bununla da ictimai ruhun yaranması üçün zəminə yaradır. İctimai ruh isə öz növbəsində insan növünü kamilliyə çatdırmaq üçün bir vasitədir. Deməli, insan fitrəti və növü ictimai ruhun istiqamətini təyin edir. Başqa sözlə desək, ictimai ruh da insan fitrətinin xidmətində durur. Fitri xüsusiyyətlər insan yaşadıqca öz fəaliyyətini davam etdirir və qeyd etdiyimiz kimi, ictimai ruhun əsaslandığı şey, fərdi ruh və insan fitrətidir. İnsan isə vahid növ olduğuna görə, öz cəmiyyətində yeganə mahiyyət, təbiət və zata malikdir.

Əlbəttə, bir fərdin bəzən öz fitri yolundan azması və formasını dəyişməsi mümkün olduğu kimi, cəmiyyətin də öz həqiqi istiqamətini dəyişməsi mümkündür. Cəmiyyətlərin çoxluğu və müxtəlifliyi eyni növə aid olan insanların əxlaq müxtəlifliyinə bənzəyir. Deməli cəmiyyətlər, mədəniyyət və ictimai ruhlar bir-birindən fərqlənmələrinə baxmayaraq, ümumilikdə insana bənzəyirlər və onlarda qeyri-insani bir mahiyyət yoxdur.

Bəli, əgər cəmiyyət haqqında söylənilən dördüncü nəzəriyyəni qəbul etsək və fərdləri boş qaba və qəbuledici maddələrə bənzətməsək və nəhayət, fitrəti danmasaq, cəmiyyətlərin növdən asılı olan müxtəliflik nəzəriyyəsini bəyan edə bilərik. Ancaq bu nəzəriyyə, Durkeymin söylədiyi formada heç cür qəbul oluna bilməz. Çünki, elə

birinci cavabsız sual bu olacaq ki, əgər ictimai ruhun ilk özülü insanların yaşayış və təbii xüsusiyyətlərindən yaranmırsa, bəs haradan meydana gəlir? İctimai ruhu aydınlaşdırmaq üçün «insan yaranan anda, cəmiyyət də yaranıb» deməyimiz kifayət edərmi? Bundan əlavə, Durkeym özü də bu əqidədədir ki, ictimai proseslər, yəni cəmiyyətə aid olan işləri ictimai ruh yaradır. Məsələn, din, əxlaq, incəsənət və s. bütün cəmiyyətlərdə olub və olacaq da. Onun öz sözü ilə desək, qeyd olunan şeylər «zaman davamiyyətinə» və «məkan artımına» malikdirlər və bunun özü də, Durkeymin ictimai ruhun vahid mahiyyətə malik olmasını qəbul etməsinə bir sübutdur.

Dinin növ vahidliyini mütləq şəkildə qəbul edən islam təlimləri, şəriətlərin müxtəlifliyini mahiyyət ixtilafı deyil, ikinci dərəcəli ixtilaf sayır. Digər cəhətdən də bilirik ki, din fərdi və ictimai təkamül proqramının bir hissəsi deyil. Bütün bunlar onu aydınlaşdırır ki, bu təlimlərin əsası cəmiyyətlərin növcə eyni olması üzərində qurulub. Əgər, cəmiyyətlər müxtəlif növlü olsaydılar, kamillik hədəfləri, bu hədəfə çatmaq yolları və təbii olaraq dinlərin də mahiyyəti müxtəlif və çoxsaylı olardı. Qurani-kərim dinin bütün məntəqələrdə, cəmiyyət və zamanlarda yeganə olduğunu israrla bəyan edir. Quranın nəzərinə əsasən, dünyada dinlər deyil, vahid din mövcud olub. Peyğəmbərlərin hamısı insanları bir dinə, bir yola və yeganə məqsədə dəvət edirdilər:

**«(Ya Peyğəmbər!) Allah: «Dini qoruyub saxlayın, ona düzgün riayət edin, dində ayrılığa düşməyin!» – deyə Nuha tövsiyə etdiyini, sənə vəhy buyurduğunu, İbrahimə, Musaya və İsaya tövsiyə**

**etdiyini dində sizin üçün də qanuni etdi.» (Şura-13).**

Quranda, dinin bütün zamanlarda, bütün yerlərdə və bütün peyğəmbərlərin dilində yeganə olmasını və şəri ixtilafların fərqlərdən, kamillik səviyyəsindən asılı olduğunu sübut edən ayələr çoxdur. Dinin mahiyyətcə yeganə olması məntiqi, insanın vahid növ olması üzərində formalaşan dünyagörüşündən irəli gəlir. İnsan vahid növdən olduğuna görə, onun cəmiyyətləri də vahid növə malikdir.

## CƏMİYYƏTLƏRİN GƏLƏCƏYİ

Fərz edək ki, müasir cəmiyyət və mədəniyyətlər müxtəlif növlü və müxtəlif mahiyyətli deyillər. Ancaq onların müxtəlif keyfiyyətdə, müxtəlif şəkil və formada olduqlarını inkar etmək olmaz. Bəşəri cəmiyyətlərin gələcəyi necə olacaq? Bu mədəniyyət, cəmiyyət və millətlər həmişə olduğu formada qalacaqlarmı, yoxsa insanlığın hərəkəti, vahid cəmiyyət və vahid mədəniyyətə doğru irəli gedir və gələcəkdə, bütün müxtəlifliklər vahid növ və xüsusiyyətdə birləşəcəklər? Bu vahid rəng insanlığın ümumi rəngi olacaqmı?

Bəhs olunan məsələ də, cəmiyyətin mahiyyəti, ictimai və fərdi ruhun bir-birilə bağlılığından asılıdır. Aydındır ki, fitrətin əsas saydığı nəzəriyyəyə əsasən, eyni zamanda fitri olaraq kamilliyə çatmaq üçün insanın ictimai vücudundan, ictimai həyatından və cəmiyyətin ictimai ruhundan bir vasitə kimi istifadə etdiyinə görə, qəbul etməliyik ki, cəmiyyət və mədəniyyətlər eyniləşmək, birləşmək və

vahid formaya düşmək istiqamətində hərəkətdədirlər. İnsan cəmiyyətlərinin gələcəyi və gələcək forması, insanın həqiqi kamala, səadətə və nəhayət həqiqi insanlığa çatacağı vahid dünyəvi cəmiyyət şəklində olacaqdır.

Quranın nəzərinə görə, son hökumət haqqa məxsusdur və nahaq işlər məhv olacaq və əməli-saleh insanlar sonda xoşbəx olacaqlar.

«Əl-mizan» təfsirində deyilir:

**«Kainat haqqında aparılan dərin axtarışlar göstərir ki, insan da kainatın bir hissəsi olaraq, gələcəkdə kamala çatacaq. Quranda «islamın cahanda bərqərar olması labüddür» fikri də insanın kamala çatacağını söyləyir.**

Quran, **«Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə (bilsin ki,) Allah (onun yerinə) elə bir tayfa gətirər ki, Allah onları, onlar da Allahı sevərlər.»**[1] – deməklə, əslində insanın yaradılış zərurəti və onun aqibətinin nədən ibarət olduğunu söyləmək istəyir. Bundan başqa, **«Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə – yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə – onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini (İsrail övladını yer üzündə kafirlərin yerinə gətirdiyi kimi, onları da müşriklərin yerinə gətirəcəyini), möminlər üçün onların Allahın özü bəyəndiyi dinini (islamı) möhkəmləndirəcəyini (hər tərəfə yayacağını) və onların qorxusunu sonra**

---

[1] Maidə surəsi, 54-cü ayə.

**əmin-amanlıqla, arxayınçılıqla əvəz edəcəyini vəd buyurmuşdur.»**[1] ayəsində və eləcə də **«(Yer üzünə və ya müqəddəs torpağa) yalnız Mənim saleh bəndələrimin sahib olacağını yazmışdıq.»**[2] ayəsində də bu barədə danışılır.

Həmin kitabda, «İslam ölkəsinin coğrafi sərhəddi deyil, əqidə hüdudları vardır» adı altında deyilir:

«İslam etnik qruplaşma prinsipini» yaşayış massivi yaratmaqda mühüm rol oynamaq vəzifəsindən uzaqlaşdırdı. Bu qruplaşmanın əsas səbəbi iki şeydir: Birincisi nəsil əlaqələri üzərində qurulan ibtidai qəbilə yaşayışı və ikincisi, coğrafi məntəqə ixtilafı. Bunlar, insan növünün müxtəlif millət və qəbilələrə bölünməsinin, dil və irq müxtəlifliyinin əsas səbəbləridir. Növbəti mərhələdə bu iki amil, hər qəbilənin müəyyən torpaq sahəsini öz ixtiyarına keçirərək ona vətən adı qoymasına və onu müdafiə etmələrinə səbəb olmuşdur. Bu, təbiətin insanı ona tərəf hərəkət etdirdiyi cəhətdir. Ancaq bu cəhətdə elə bir şey də vardır ki, insan fitrətinin ziddinədir və bu da insan növünü bir «vahid» halında yaşamağa məcbur edir. Təbiətin qanunu, dağılmışların cəm halında yığılması və parçalanmışların birləşməsi üzərində qurulub və bu yolla təbiət öz məqsədlərinə çatır. Bunun bariz nümunəsi, təbiətdə maddənin müxtəlif

---

[1] Nur surəsi, 55-ci ayə.

[2] Ənbiya surəsi, 105-ci ayə.

hissələrdən birləşərək varlıq, daha sonra bitki, sonra heyvan və nəhayət, insan halına düşməsi hadisəsidir. Etnik qruplaşma və vətən bölümləri bir qəbiləni, ya bir torpağın əhalisini vəhdət halında toplaması ilə bərabər, onları başqa qəbilə və ya hər hansı bir insan qruplaşması ilə qarşı-qarşıya qoyur. Belə ki, bir qəbilənin üzvləri bir-birini qardaş, digər insanları isə özlərinə yad hiss edir və onlara, yalnız istismar etmək üçün yaranmış bir əşya kimi baxırlar. Bu, islamın etnik qruplaşma və milli bölüşmə prinsiplərini rədd etməsinin və insan cəmiyyətinin özülünü əqidə əsasında qurmasının əsas səbəbidir. Daha insan cəmiyyəti irq, millət ya vətən prinsipi üzərində deyil, əqidə üzərində qurulur. Hətta evlənmək və miras məsələlərində də əqidə şərikliyini əsas tutur.

Daha sonra, «Haqq din sonda qalib olacaq» adlı bəhsdə deyilir:

«İnsan növü, onun daxilində qoyulmuş fitrətin hökmünə əsasən, həqiqi səadət və kamal arzusundadır. Yəni maddi-mənəvi bir varlıq həyatın ən yüksək pillələrinə ictimai formada hakim olmaq istəyir və bir gün bu arzuya çatacaq. İslam dini, bu səadətə çatmaq proqramıdır. Bu uzun yolda insana rast gələn azğınlıqlar insan fitrətinin ünvanına yazılmamalıdır. İnsan üzərində əsas hakim, fitrətin hökmüdür. Səhv və azğınlıqlar isə, yalnız hökmlərin tətbiqində baş verən xətalardır. İnsan, gec-tez öz fitrətinin hökmü ilə can atdığı kamal və məqsədlərə çatacaq.

Rum surəsinin 30-cu ayəsində **«Üzünü Allahın fitri olaraq insana verdiyi dinə tərəf tut»** sözləri ilə

başlayan və sonrakı ayələrdə davam edən mövzu fitrət hökmünün dəyişilməz olduğunu və insanın, bir sıra azğınlıqlardan keçdikdən, bir sıra təcrübə topladıqdan sonra öz yolunu tapmasını və o yoldan dönməməsini bəyan edir. Bir qrup insanın «islam bəşər mədəniyyətinin bir mərhələsi kimi öz vəzifəsini başa vurub və tarixə qovuşub» fikrinə qulaq asmaq olmaz. İslam, bəhs etdiyimiz kimi, özünün son kamilliyinə çatmış insandan ibarətdir. İnsan öz xilqətinin hökmünə əsasən bir gün bu kamilliyə qovuşacaq.

Bəziləri iddia edirlər ki, islam heç bir vəchlə insan cəmiyyətlərinin və insan mədəniyyətlərinin birləşməsi və eyniləşməsi deyil, müxtəliflik tərəfdardır və onları, həmin çoxluq və müxtəliflik formasında rəsmi surətdə tanıyır. Onlar deyirlər: «Bir millətin kimliyi və şəxsiyyəti, həmin millətin ictimai ruhunun mədəniyyətindən ibarətdir və bu ictimai ruhu, həmin millətin özünəməxsus tarixi yaradır və o, bu tarixdə heç bir millətlə şərik deyildir. Təbiət insanın növünü, tarix isə onun mədəniyyətini və daha dəqiq desək, onun şəxsiyyətini və həqiqi «mən»liyini yaradır. Hər millət, özünə xas olan xüsusi mahiyyətə və həmin millətin şəxsiyyətini möhkəmləndirən mədəniyyətə malikdir. Həmin mədəniyyəti müdafiə etmək, millətin varlığını müdafiə etmək deməkdir. Hər fərdin şəxsiyyəti yalnız onun özünə məxsus olduğu və həmin şəxsiyyətdən əl çəkərək başqa kimliyi və şəxsiyyəti qəbul etmədiyi kimi, ayrı-ayrı xalqlar da tarix boyu formalaşdırdığı mədəniyyətdən savayı digər mədəniyyət və yaşayış tərzini özünə yaxın buraxmaq istəmir. Hər millətin özünəməxsus hiss, nəzər, zövq, səliqə, ədəbiyyat, musiqi, yanaşma tərzi

və adətə malik olmasının səbəbi, onun tarix boyu müxtəlif səbəblər üzündən paklıq, müvəffəqiyyət, məhrumiyyət, coğrafi şərait, mühacirət, əlaqə və şəxsiyyətlərə sahib olmaqla üzləşdiyinə görədir. Onlar bu amillər nəticəsində özünəməxsus mədəniyyət, onun ictimai və milli ruhunu xüsusi formada yaradırlar. Fəlsəfə, elm, ədəbiyyat, incəsənət, din, əxlaq və s. bir qrup insanın yaşayışı boyu yaranaraq onu digər qruplardan fərqləndirən ünsürlərdir. Bu ünsürlərin cəmindən elə bir ruh yaranır ki, həmin qrupun üzvlərini, bir orqanizmin üzvləri kimi əlaqələndirir və bu orqanizmə, nəinki müstəqil vücud, hətta başqa orqanizmlərlə qarşılaşmada və tarix boyu fərqlənəcək bir həyat bəxş edir. İstər bu ruh ictimai rəftarda, düşüncə tərzində, ictimai adətlərdə, insanın təbiətə qarşı reaksiyalarında, həyat və hadisələrə qarşı əksül-əməllərdə, hisslərdə, əqidədə və hətta elmi, texniki və incəsənət yeniliklərində, isətərsə də bütün maddi və mənəvi cəhətlərdə bir sözlə, insanın bütün həyatında özünü büruzə verir.

Bəzilərinin fikrincə, din ideologiyanın bir növü, əqidə və əqidənin yaratdığı xüsusi əməllər və hisslər toplusudur. Ancaq, millət isə, şəxsiyyətdir və eyni talehli insanların müştərək ruhunu yaradır. Buna görə də millət və din arasındakı rabitə, şəxsiyyətlə əqidə arasında olan rabitə kimidir.

Digərlərinin fikrincə, islamın irq ayrı-seçkiliyinə və milli üstünlük iddialarına qarşı olan etirazını, bəşər cəmiyyətində ayrı-ayrı millətlərin vücuduna qarşı olan etiraz mənasında qəbul etmək olmaz. İslamda bərabərlik

prinsipi millətlərin varlığını inkar etmək mənasında deyil, islamın millətlərin vücudunu təbii bir şey kimi qəbul etməsidir. **«Ey iman gətirənlər! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınız, pis əməllərdən ən çox çəkinəninizdir»**[1] ayəsini islam nəzərindən millətlərin inkarı mənasında dəlil gətirdikləri halda, bu ayə millətlərin varlığını təsdiq edən dəlildir. Çünki, ayənin əvvəli bəşəriyyətin cinslərə bölünməsini (kişi və qadın) elan edir və bunun ardınca, bəşərin milli qruplara və qəbilələrə bölünməsini bəyan edir. Bu da, milli müxtəlifliyin də cinsi müxtəliflik kimi təbii və ilahi bir şey olduğunu aydınlaşdırır. Buradan başa düşmək olar ki, islam qadın və kişi arasındakı əlaqənin müxalifi deyil, tərəfdarı olduğu kimi, millətlərin məhvi tərəfdarı da deyil, onların bərabərlik əsasında qurulmuş əlaqələrinin tərəfdarıdır. Quranın, millətlərin vəziyyətini də cinsiyyətlərin yaradılışı kimi Allaha aid etməsi, millətlərin müxtəlif yaradılmasının təbii hadisə olduğunu aydınlaşdırır. Quranın, millətlərin ixtilaf və fərqinin səbəb və məqsədini millətlərin bir-birini tanıması kimi bəyan etməsi, bir millətin yalnız başqa millətlə nisbətdə özünü tanıya biləcəyinə işarədir. Yalnız bu halda millət özünü kəşf edir. Millət, sair millətlərlə qarşı-qarşıya olduqda öz şəxsiyyətini büruzə verir və inkişaf etməyə başlayır.

---

[1] Hücurat surəsi, 13-cü ayə.

Bu səbəbdən də, yayılmış fikirlərin əksinə olaraq, islam, mədəni millətçiliyin müxalifi deyil, tərəfdarıdır. İslamın mübarizə apardığı millətçilik, irqi və ifratçı millətçilik, yəni rasizmdir.

Bu nəzəriyyəni bir neçə cəhətdən iradlı və naqis hesab etmək olar:

**Birincisi,** o, insan və insan mədəniyyətinin əsaslandığı köklər (yəni fəlsəfə, elm, incəsənət, əxlaq və s) barəsində olan naqis bir nəzəriyyəyə əsaslanmışdır.

İnsan barəsində belə fərz olunur ki, onun öz zatında fikri cəhətdən, dünyanı necə görməsindən, dərk etməsindən, hissi cəhətdən, nə istəməsindən və hansı yolu getməsindən asılı olmayaraq, heç bir mahiyyəti və xüsusi bir forması yoxdur. Bütün fikirlərə və hisslərə, yollara və məqsədlərə münasibəti eynidir. İnsan boş, formasız, rəngsiz bir qabdır və onun təfəkkürü içinə doldurulan maddələrdən asılıdır. Öz «mən»liyini, şəxsiyyətini, yolunu və məqsədini həmin maddələrdən alır. Maddələrin ona verdiyi hər şeyi qəbul edir. Ona doldurulan maddələrin, daha dəqiq desək, birinci maddələr – ona verdiyi forma, rəng, keyfiyyət, yol, məqsəd və şəxsiyyət onun üçün həqiqi parametrlər olur. Çünki, onun «mən»liyi bu maddələrlə tanınıb və onlar üzərində formalaşıb. Sonradan verilən hər bir şey onun şəxsiyyətini, rəngini, formasını və s. dəyişmək üçün yad olur. Çünki, bunlar tarixin təsadüfən ona verdiyi ilk şəxsiyyətlə uyğun gəlmir. Başqa sözlə, bu nəzəriyyə cəmiyyət və fərdin üstün və mühüm olması haqqındakı dördüncü nəzəriyyədən ilham alır. Həmin nəzəriyyəni isə, keçən bəhslərdə araşdırmışdıq.

İnsan barəsində – istər fəlsəfi cəhətdən, istərsə də islam nöqteyi-nəzərindən – belə hökm vermək olmaz. İnsan, öz xüsusi növündən asılı olaraq, öz fitrətində, müəyyən şəxsiyyət, yol və məqsədə malikdir və onun həqiqi «mən»liyini həmin fitrət təyin edir. İnsanın dəyişilib-dəyişilməməsini tarixi parametrlərlə deyil, onun fitri dəyərləri ilə ölçmək olar. İnsanın insani fitrəti ilə uyğun gələn hər bir mədəniyyət, təlim, onu tərbiyələndirən amil, hətta tarixi şəraitin ona verdiyi ilk mədəniyyət olmasa belə, ən düzgün mədəniyyət sayılır. Onun fitrəti ilə uyğun gəlməyən hər bir şey isə, – hətta onun milli mədəniyyəti olsa belə – ona yaddır, onun həqiqi şəxsiyyətini dəyişdirir və onun «məni»liyini özgələşdirir. Məsələn, atəşi müqəddəsləşdirmək bizim əski əqidəmiz olsa belə, insanlığımızı dəyişdirir. Ancaq, tohid və təkallahlıq, Allahdan başqasına ibadətin inkarı – hətta onun öz diyarından qıraqda yaransa belə – əsil insanlıq şəxsiyyətinə qayıtmaqdır.

İnsan mədəniyyətinin kökləri barəsində də səhv olaraq elə düşünülür ki, bunlar da rəngsiz, formasız maddələr kimidir. Onların da, xüsusiyyətlərini tarix müəyyən edir. Yəni hər halda fəlsəfə fəlsəfədir, elm elmdir, din dindir, əxlaq əxlaqdır və incəsənət də incəsənət. Hətta müxtəlif forma və çalarlarda olsalar da belə. Onların hansı forma və çalarda olmaları nisbi bir məsələdir və tarixlə bağlıdır. Hər millətin tarix və mədəniyyəti onun özünə xas olan fəlsəfə, elm, din və əxlaq yaradır. Başqa sözlə, insan öz zatında formasız və xüsusiyyətsiz olduğu kimi – onun mədəniyyəti də onun formalaşması sayılır. İnsan mədəniyyətinin əsas prinsipləri də öz zatlarında formasız, rəngsiz və s.-dirlər və

bütün bunları ona tarix verir və onlara öz xüsusi təsirini göstərir. Bu nəzəriyyənin bəzi tərəfdarları o qədər ifrata varıblar ki, hətta riyazi düşüncə tərzinin də hər mədəniyyətin özünəməxsus formasının təsiri altında olmasını iddia ediblər.

Bu nəzəriyyə insan mədəniyyətinin dəyişkən və nisbi olması nəzəriyyəsidir. Biz «Fəlsəfənin əsasları» adlı kitabda, təfəkkür prinsiplərinin nisbiliyi barəsində söz açmışıq və göstərmişik ki, nisbi və dəyişkən olan elm, idrak və dərrakədir. Müxtəlif mədəniyyətlərdə müxtəlif məkan və zaman şəraitində müxtəlif olan və dəyişən də idrakdır. Yaxşı və pis, düz və səhvi təyin edən də idrakdır. Ancaq, elmlər, idraklar və nəzəri fikirlər – bunlar insanın nəzəri elmlərini və fəlsəfəsini yaradır – əxlaqın əsas prinsipləri və dini dünyagörüşünün əsasları kimi, mütləq və sabit prinsiplərdir. Təəssüf ki, burada bundan artıq bəhs edə bilməyəcəyik.

**İkincisi,** «din əqidədir, millət isə şəxsiyyət; onların rabitəsi əqidə və şəxsiyyət rabitəsidir; islam, milli şəxsiyyətləri olduğu kimi təsdiq edir». Məlum olduğu kimi, bu ifadələr dinin böyük risalətini və öhdəsinə düşən vəzifəsini inkar etməkdir. Din – xüsusilə də, islam kimi böyük bir dinin ən ümdə vəzifəsi tohid əsasında formalaşmış dünyagörüşünü aşılamaq və həmin dünyagörüşü əsasında insanların əxlaqi və ruhi şəxsiyyətlərini yaratmaqdır.

Fərdlərin və cəmiyyətin yaradılışında ən əsas şərt milli deyil, bəşəri mədəniyyət adlı yeni bir mədəniyyətin yaradılmasıdır. İslamın dünyaya «islam mədəniyyəti» adlı zəngin bir mədəniyyət təqdim etməsi, hər dinin öz xalqının

mədəniyyəti ilə qarışması, onun təsirinə düşməsi və az-çox onu təsiri altına alması ilə deyil, mədəniyyət yaratmağın bu dinin əsas vəzifələrindən biri olmasıdır. İslamın vəzifəsi insanları malik olduqları üzdəniraq mədəniyyətlərdən xilas etmək, zəruri mədəniyyətlərə yiyələndirmək və əvvəldən malik olduqları müsbət şeyləri möhkəmləndirməkdir. Millətlərin müxtəlif mədəniyyətləri ilə işi olmayan, bütün mədəniyyətlərlə uyğunlaşa bilən din, həftədə bir dəfə kilsədə ibadətə layiq olan bir dindir.

**Üçüncüsü, «Biz sizi bir kişi və bir qadından yaratdıq»** ayəsinin müddəaları «biz sizi iki cinsdən yaratdıq» deyildir. Əgər belə olsaydı, «bu ayədə əvvəl bəşər, cinsi cəhətdən bölünüb, dərhal sonra milli qruplaşmaya başlayıb» deyilərdi və dərhal da belə bir nəticə çıxarılardı ki, cinsi fərq təbii olduğu kimi, ideologiyalar da gərək ona uyğun bəyan olunsun və millətlər arasındakı fərq də təbii qiymətləndirilsin! Ayənin mənası budur ki, **«Biz sizi qadın və kişidən yaratdıq»** – istər məqsəd bütün nəsil əlaqələrini bir qadın və bir kişiyə bağlamaq olsun (Adəm və Həvva nəzərdə tutulur), istərsə də bu cəhətdən bütün insanların bərabərliyi – yəni bir ata və bir anaları var və heç biri o birindən üstün deyildir – olsun.

**Dördüncüsü,** ayədə məqsəd kimi söylənilən **«tanıyasınız»** sözü, millətlər bir-birini tanımaq və bundan da, millətlərin müstəqil olmaq və bu müstəqil şəxsiyyət vasitəsilə bir-birini tanımaq üçün ayrı-ayrı qruplara bölünməsi deyildir. Əgər belə olsaydı, **«tanıyasınız»** sözünün yerinə **«tanısınlar»** sözü olardı.

Çünki, müraciət olunan xalqın üzvləridir. Belə olsaydı onlara deyilməli idi ki, baş vermiş qruplaşmalar sizin yaradılışınızda olan hikmətdən irəli gəlir və o hikmət budur ki, siz fərdlər bir-birinizi hansı millətə, ya qəbiləyə aid olmağınızla tanıyasınız. Bilirik ki, bu hikmət heç də millət və etnik qrupların bir-birindən müstəqil şəxsiyyət formasında qalmalarını çatdırmır.

**Beşincisi,** əvvəldə islamın mahiyyət baxımından eynilik və ya müxtəlifliyini, cəmiyyətlərin təbii hərəkətinin vahid mədəniyyətə və vahid cəmiyyətə doğru olması fikrini və islamın əsas vəzifəsini bəyan etdik. Bütün bunlar hazırkı nəzəriyyəni rədd etmək üçün kifayət edər. İslamda «Məhdilik» nəzəriyyəsi islam, insan və cəmiyyətin gələcəyi barəsində olan dünyagörüşü üzərində qurulub. Burada cəmiyyət bəhsini sona yetiririk və tarix bəhsinə başlayırıq.

# İKİNCİ FƏSİL
# TARİX

## TARİX NƏDİR?

Tarixə üç şəkildə tərif vermək olar. Həqiqətdə bir-biri ilə yaxın əlaqəli eyni zamanda, tarixə aid olan üç elm vardır. (Burada elm həm hərfi mənada, həm də agahlıq mənasındadır.)

1. İnsanın keçmişdəki vəziyyət və yaşayışı, hadisə və olayları haqqında olan elm və agahlıqdır. Bunu əksi indiki zamandır – yəni, haqqında danışılan zaman – zamana aid olan hər bir hadisə və olay, «günün hadisəsi» və «günün prosesi»; belə hadisələri qeydə almaq qəzetlərin işidir. Həmin hadisələr vaxtı ötən kimi tarixin bir hissəsi hesab olunur. Deməli, bu mənada tarix elmi ötmüş və baş vermiş hadisələr, keçənlərin yaşayışı, məişəti və başlarına gələnlər haqqında elmdir. Şərhi-hallar, tarixnamələr, fəthnamələr və s. tarix əsərləri – bütün millətlərdə belə əsərlər yazılıb və hal – hazırda da yazılır – bu qəbildəndir.

Bu mənada, tarix elmi bir sıra qanun və qaydaları – tarixi qayda-qanunları əhatə edən külli elm deyil, bir sıra fərdi və şəxsi iş və hadisələri əhatə edən cüzi elmdir. İkincisi, tarix elmi bu mənada «əqli» deyil, «nəqli» elmdir, üçüncüsü isə, indiyə deyil, keçmişə aid olan elmdir. Biz belə bir tarixi, nəqli tarix adlandırırıq.

2. Keçmişdə olmuş hadisələrin araşdırılmasından və təhlilindən əldə edilən, keçmişdəkilərin həyatına hakim olmuş tarix qanunları və qanunauyğunluqları haqqında elmdir. «Nəqli tarixin» əsasını təşkil edən keçmiş olay və hadisələr, bu elmin yalnız giriş hissəsidir. Daha dəqiq desək, bu mənada, olaylar tarix üçün təbiət elmləri mütəxəssisinin laboratoriyada analiz etdiyi maddələr rolunu oynayır. Bu halda, mütəxəssis onları araşdıraraq həmin maddələrin xasiyyətini və ümumi qanunauyğunluqlarını kəşf edir. Tarixçi, tarixi hadisələri araşdırmaqla elə qanunlar axtarır ki, keçmişdə baş vermiş və hal-hazırda baş verən oxşar hadisələrə tətbiq edilə bilsin. Biz belə bir tarixi, «elmi tarix» adlandırırıq. Elmi tarixin mövzusu keçmişə aid olan hadisələri araşdırmaq olsa da, tapdığı qanunlar keçmişə məxsus deyildir. Onu müasir və gələcək hadisələrə də aid etmək olar. Tarixi, çox mühüm bir elmə, onu insan agahlığının mənbələrindən birinə çevirən və onu insan gələcəyi üzərində hakim edən də məhz bu cəhətdir.

Təcrübi elm mütəxəssislərinin işi ilə tarixçinin işi arasında fərq ondan ibarətdir ki, mütəxəssisin araşdırdığı maddələr hal-hazırda da mövcuddur və bütün təcrübə və çıxarılan nəticələr də praktikidir və gözlə görülür. Ancaq tarixçinin işlətdiyi əsas maddələr, keçmişdə baş vermiş olaylardır. Hal-hazırda onlar mövcud deyil və bizim onlar haqqında yalnız azacıq məlumatımız vardır. Tarixçi də məhkəmə hakimi kimi, işi öz gördüyünə əsasən deyil, bir sıra şahidlərin verdiyi məlumat əsasında təhlil edir. Elə buna görə də, tarixçinin təhlili, məntiqi və əqli təhlildir. Tarixçi öz təhlilini, ağıl laboratoriyasında dəlil və

müqayisə vasitəsilə həyata keçirir. Bu cəhətdən də, tarixçinin işi, təcrübi elmlər mütəxəssisinin işindən daha çox filolosfun işinə bənzəyir.

Elmi tarix də, əqli tarix kimi keçmişə mənsubdur. Ancaq, nəqli tarixin əksinə olaraq, cüzi deyil, külli elmdir. Adından da göründüyü kimi nəqli deyil, əqli elmdir.

Əslində elmi tarix, ictimaiyyət elminin bir hissəsi, yəni keçmiş cəmiyyətlərin araşdırılmasıdır. İctimaiyyətin mövzusu, keçmiş və müasir cəmiyyətləri araşdırmaqdır. Əgər sosiologiyanı yalnız müasir cəmiyyətə aid etsək, elmi tarix və sosiologiya bir-birinə bağlı və bir-birinə yaxın olan iki elm hesab olunacaq.

3. Tarixi fəlsəfə, yəni cəmiyyətlərin bir mərhələdən o biri mərhələyə keçid və yerdəyişməsi, bu yerdəyişmə üzərində hakim olan qanunauyğunluqlar haqqında elm. Başqa sözlə, hal-hazırda cəmiyyətlərin nədən ibarət olması haqqında olan elm.

Oxucuların belə bir sual verməsi mümkündür: Ola bilər ki, cəmiyyətlər həm «indiyə» həm də «keçmişə» malik olsunlar və onların keçmişi «elmi tarixin» və müasir dövrü isə «tarixi fəlsəfə» adlı başqa bir elmin mövzusu olsun? Halbuki bunların ikisinin bir yerdə olması mümkün deyildir. Çünki, keçmiş bir növ sükunət və indi isə hərəkət deməkdir. Bunlardan birini seçmək lazımdır. Bizim keçmiş cəmiyyətlər haqqında təsəvvürümüz «olmaq»lardan, ya da «idi»lərdən ibarət olmalıdır.

Oxucunun öz iradını daha geniş formada bəyan etməsi də mümkündür. Ümumi götürdükdə, bizim dünya və dünyanın bir hissəsi olan cəmiyyət haqqında təsəvvürümüz, hərəkətsiz və sakitcə yerində durmuş işlər

haqqında, ya da dinamik və daim hərəkətdə olan işlər haqqında olan təsəvvürdür. Əgər, dünya, yaxud cəmiyyət hərəkətsizdirsə, deməli o, «olmağa» deyil, «idi»yə malikdir, yox əgər dinamik və hərəkətlidirsə, deməli onun «olmağı» var, «indi»si isə yoxdur. Elə buna görə də fəlsəfi məktəblərin bölünməsində əsas prinsip fəlsəfi sistemlərin iki yerə bölünməsidir. «İdi» və «olmaq» fəlsəfələri. «İdi» fəlsəfəsi, olmaq və olmamağın cəmini qeyri-mümkün sayır. Onlar belə zənn edirlər ki, əgər olmaq varsa, olmamaq yoxdur və əgər, olmamaq varsa, olmaq yoxdur. Deməli gərək bunların ikisindən birini seçəsən. Olmaq zəruri olduğuna görə, cəmiyyətə durğunluq hakimdir. Ancaq «olmaq» fəlsəfəsi, olmaq və olmamağın eyni anda varlığını mümkün sayır və bunun bariz misalı hərəkətdir. Hərəkət eyni halda bir şeyin olması və olmamasıdır. Deməli, «idi» və «olmaq» fəlsəfələri varlıq barəsində tamamilə iki zidd baxışdır və bunlardan biri seçilməlidir. Əgər biz birinci qrupa qoşulsaq, gərək cəmiyyətlərin «idi»yə malik olduğunu və «olmağa» malik olmadığını zənn edək və əksinə əgər ikinci qrupa qoşulsaq, cəmiyyətlərin «olmağa» malik olduqlarını və «idi»yə malik olmadıqlarını fərz etməliyik. Deməli, bizim ya söylənilən mənada «elmi tariximiz» var və «tarixi fəlsəfə»miz yoxdur. Ya da «tarixi fəlsəfəmiz» var, «elmi tariximiz» yoxdur. Cavab budur: Varlıq, puçluq, hərəkət, durğunluq və ziddiyyətin olmaması prinsipi haqqında bu növ düşüncə, qərb təfəkkürünə xasdır və varlığın fəlsəfi məsələlərindən və xüsusilə də, «vücudun önəmliyi» məsələlərindən agah olmamasından irəli gəlir.

Əvvəla qeyd etməliyik ki, «idi» sükuna bərabərdir. Başqa sözlə, sükun «idi»dir, hərəkət olmaqla olmamağın cəmidir. Bu bəzi qərb fəlsəfə məktəblərinin düçar olduğu səhvlərdəndir.

İkincisi, burada qeyd olunanların həmin fəlsəfi məsələyə heç bir dəxli yoxdur. Burada söylənilənlər, cəmiyyətin də bütün canlı varlıqlar kimi iki növ qanunun üzərində qurulduğunu çatdırır: Birinci növ qanunlar hər növün öz daxilində hakim olmasını, ikinci növ qanunlar isə, növlərin inkişafına, dəyişməsinə və bir-birinə çevrilmələrinə aiddir. Biz birinci növ qanunları «idi», ikinci növ qanunları isə «olmaq» adlandırırıq. Elə bəzi sosioloqlar da bu mətləbə fikir veriblər. Oqust Kont da onlardan biridir. Reymont Aron deyir:

«Dinamiklik və stabillik, Oqust Kont sosialogiyasının iki əsas mehvəridir. Stabillik, Oqust Kontun ictimai icma adlandırdığı mövzunun mütaliəsindən ibarətdir. Cəmiyyət nəhəng bir orqanizmə bənzəyir. Bir bədənin işini onu üzvi olduğu cəmiyyətin üzvləri arasında yerləşdirmədən araşdırmaq mümkün olmadığı kimi, dövlətin və siyasətin də araşdırılması, onları müəyyən tarixi dövr və cəmiyyətdə yerləşdirmədən mümkün deyildir. Dinamiklik ilk növbədə bəşərin keçdiyi ardıcıl mərhələlərin sadə vəsfindən ibarətdir.[1]

Canlı varlıqların hər hansı növünü nəzərdə tutsaq – məməlilər, sürünənlər, quşlar və s. – öz növlərinə aid olan müxtəlif qanunlara malikdirlər. Nə qədər ki, o növ çərçivəsindədirlər, həmin qanunlar ona hakimlik edir. Bir

---

[1] İctimaiyyətdə fikrin əsas mərhələləri, səh-110.

heyvanın rüşeymi, sağlam və xəstə olması, yemək tərzi, çoxalma və körpə tərbiyəsi, mühacirəti buna misaldır. Bu dövr və ya hərəkətlərin özünə xas qanunauyğunluqları vardır

Ancaq növlərin dəyişməsi və təkamülü nəzəriyyəsinə əsasən, hər növün öz qanunlarından savayı, növlərin dəyişilməsi və təkamülünə, sadə növün daha ali növə keçməsinə aid olan qanunlar da var. Çox güman ki, bu, qanunlar fəlsəfəsi şəklinə düşən və «təkamül fəlsəfəsi» adlanan «biologiya» elmi deyil, qanunlar məcmuəsidir.

Cəmiyyət də (canlı vücud hesab olunarsa) iki növ qanuna malikdir: Yaşayış qanunları; təkamül qanunları. Biz, mədəniyyətlərin yaradılması və dağılması səbəblərinə, ictimai həyatın şəraitinə, bütün dövrlərdə və dəyişikliklərdə cəmiyyətlərə hakim olan ümumi qanunlara aid olan şeyi, cəmiyyətlərin «idi» qanunu adlandırırıq. Ancaq, cəmiyyətlərin bir dövrdən başqa dövrə, bir sistemdən başqa sistemə keçməsi qanunlarına cəmiyyətlərin «olma» qanunu deyilir. Gələcək bəhslərdə onların fərqi daha aydın görünəcək.

Deməli, tarix elmi üçüncü mənada, cəmiyyətin bir mərhələdən başqa mərhələyə keçməsi və təkamülü haqqında olan elmdir. Biz bunları, «elmi tarix» adlandırdığımız məsələlərlə səhv salmamaq üçün «tarixi fəlsəfə» adlandırırıq. Adətən, cəmiyyətin qeyri-təkamül hərəkətlərinə aid olan «elmi tarix»in məsələləri ilə cəmiyyətin təkamül hərəkətlərinə aid olan «tarixi fəlsəfə»

məsələləri arasında fərq qoyulmur və elə bu məsələnin özü bir çox poroblemlər və səhvlər doğurur.

Tarixi fəlsəfə – elmi tarix kimi – cüzi deyil, ümumi və külli elmdir. Nəqli deyil, əqli elmdir. Ancaq elmi tarixin əksinə olaraq, cəmiyyətin «idi»si yox, «olmağı» haqqında olan elmdir. Həmçinin, elmi tarixin əksinə olaraq, tarixi fəlsəfə məsələlərinin tarixi olmasını gücləndirən keçmiş zamana aid olmaları deyil, keçmişdən başlayıb indiyə qədər davam edən və gələcəkdə də davam edəcək proseslərə aid olmalarıdır. Belə məsələlər üçün, zaman yeganə amil deyil, bir neçə amildən biridir.

Tarix elmi hər üç mənada faydalı və xeyirli elmdir. Hətta nəqli tarix – yəni, şəxslərin həyatından bəhs edən tarixnamələr də xeyirli ola bilər. Bu onların hansı şəxsin həyatına aid olmalarından, onların həyatının hansı asbektlərini işıqlandırmasından asılıdır. İnsan, «mühakat qanunu»nun da hökmü ilə müasir insanların xasiyyəti, rəftar və qərarlarının təsiri altına düşdüyü kimi, öz müasirlərinin həyatı onun üçün ibrət və təcrübə olduğundan, nəhayət, öz müasirlərindən ədəb, yaşayış qaydaları və s. öyrəndiyi kimi, həmin qanunun hökmünə əsasən keçmişdəkilərin başına gələnlərdən bəhrələnir. Tarix, keçmişi indiyə çevirən canlı film kimidir. Elə buna görə də, Qurani-kərim, «nümunə» olmağa səlahiyyəti çatan şəxsiyyətlərin həyatından ibrətamiz əhvalatlar bəyan edir və onları, ülgü qərar verməyi məsləhət görür. Quran, Peyğəmbər (s) haqqında buyurur:

**«Həqiqətən, Allahın rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamətdən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl nümunədir!»**[1]

İbrahim (ə) barəsində isə belə buyurur:

**«İbrahim və onunla birlikdə olanlar (möminlər) sizin üçün gözəl örnəkdir.»**[2]

Quran, bəzi şəxsləri nümunə göstərdiyi yerdə onların dünyəvi şəxsiyyətlərinə fikir verir, əxlaqi və insani şəxsiyyətlərini nəzərdə tutur. Quran, Loğman adlı qara quldan – o, nə padşah olub nə də filosof, nə varlı olub, nə də mənsəb sahibi. Sadəcə geniş düşüncəli bir quldur – danışarkən onu «həkim» deyə, yad edir və onu dünyada «hikmət»li sayır. Ali-fironun «mömini» və ali-yasinin «mömini» də onun kimidir.

Biz, tarix və cəmiyyəti islam dünyagörüşü nöqteyi-nəzərindən bəyan etdiyimiz bu kitabda təkcə, «elmi tarixə» və «tarixi fəlsəfə»yə nəzər salacağıq. Çünki bunlar ümumi dünyagörüşü çərçivəsində yerləşirlər. Elə buna görə də, bu iki elm haqqında söhbətimizi bir az genişləndiririk və əvvəl elmi tarixdən başlayırıq.

## ELMİ TARİX

Müqəddimə olaraq qeyd etməliyik ki, elmi tarix keçən bəhslərdə bəyan etdiyimiz mətləblər üzərində qurulub. Həmin mətləb, cəmiyyətin fərddən ayrı və müstəqil

---

[1] Əhzab surəsi, 21-ci ayə.

[2] Mümtəhinə surəsi, 4-cü ayə.

şəxsiyyətə malik olmasıdır. Əgər cəmiyyətin fərdlərdən müstəqil və ayrı əsası mövcud olmazsa, fərdlərdən və onlara hakim olan qanunlardan savayı heç bir şey olmayacaq və nəticədə elmi tarix mövzusuz qalacaqdır. Tarixin qanuna malik olması, tarixin təbiətə malik olmasının, onun təbiətə malik olması da, cəmiyyətin təbiətə malik olmasının bir hissəsidir. Elmi tarix barəsində aşağıdakı məsələlər araşdırılmalıdır:

1. Elmi tarix, əvvəldə işarə etdiyimiz kimi, nəqli tarixə əsaslanır. Nəqli tarix, elmi tarixin laboratoriyasına lazım olan xammaldır. Deməli, əvvəldə bilməliyik ki, nəqli tarixə etimad etmək olar, yoxsa yox? Əgər etimad oluna bilməzsə, keçmişdə cəmiyyətlər üzərində hakim olmuş qanunlar haqqında hər hansı bir elmi tədqiq puç və mənasızdır.

2. Fərz edək ki, nəqli tarix mötəbərdir və cəmiyyətdə fərdlərdən müstəqil olan şəxsiyyət və təbiətə malikdir. Bu zaman, tarixi hadisələrdən ümumi qanun və prinsiplərin çıxarışı, insani məsələlər və tarixi hadisələrdə «səbəb və nəticə» qanununun hakimliyindən asılıdır. Belə olmazsa, tarix üzərində səbəblər hakimdir və əgər belədirsə, bəs insanın azadlıq və ixtiyarı necə olacaq?

3. Tarix, maddi və materialist təbiətə malikdirmi? Tarix üzərində hakim qüvvə maddi qüvvədirmi və bütün mənəvi qüvvələr, maddi qüvvəyə tabe olan ikinci dərəcəli qüvvə sayılırmı? Və yaxud əksinə, tarixin təbiəti mənəvi təbiətdir və tarixə hakim qüvvə mənəvidir və maddi qüvvələr ikinci dərəcəlidirlər? Yəni, tarix öz zatında «idealist»dir. Yaxud da, üçüncü bir ehtimal da vardır: Tarixin təbiəti qarışıqdır və müxtəlif maddi və mənəvi qüvvələr, bir-biri ilə

həmahəng və bəzən də bir-birinə zidd olaraq tarix üzərində hakimlik edirlərmi?

## 1. NƏQLİ TARİX MÖTƏBƏRDİRMİ?

Bir qrup insanların nəqli tarixə baxışları müsbət deyildir və yazılanların hamısını tarixçilərin uydurması sayırlar. Guya onlar bu yalanları qərəz və şəxsi hədəf, milli təəssüb və məzhəbi əqidə, ictimai bağlılığa əsasən, olanları artırıb-azaltmaqla dəyişdirmiş və tarixi öz istədikləri şəkildə yazmışlar. Hətta doğruçu insanlar da belə, hadisələrin yazılışanda və qeydə alınmasında müəyyən düzəlişlərə yol vermişlər. Yəni, öz hədəf və əqidələri ilə uyğun gələn şeyləri yazmış, əqidələrinə uyğun gəlməyənlərdən isə yayınmışlar. Hərçənd ki, onlar tarixi hadisələri yazarkən, heç nə artırmamış və heç bir yalan yazmamışlar, ancaq öz istədiklərini qələmə almaqla tarixi istədikləri formaya salmışlar. Hər bir hadisə və ya bir şəxsiyyəti, yalnız ona lazım olan hər bir şey tədqiqatçının əli altında olduqda dəqiq təhlil etmək olar və əgər, bəzi şeylər gizlədilsə, onda şəxsin və ya hadisənin əsil mahiyyət və çöhrəsi gizli qalar və sonda həqiqətə uyğun gəlməyən nəticələr alınar.

Nəqli tarix barəsində bu bədbinlərin fikri bəzi ifratçı din alimlərinin – hədis və rəvayətləri nəql etməkdə – fikri ilə eynidir. Buna «elm qapısının bağlanması» təbiri verilmişdir. Bəziləri zarafatla tarix barəsində deyirlər: «Tarix, keçmişdə mövcud olmayan bir şəxsin qələmə aldığı baş vermiş hadisələr silsiləsindən ibarətdir.» Bəziləri, bu həddə bədbin deyillər, ancaq tarixi hadisələrə şübhə ilə yanaşmağa üstünlük verirlər.

Professor Corc Klarkın dilindən «Tarix nədir» kitabında yazılıb: «Keçmişin hadisələri, bir və ya bir neçə insan beyni vasitəsilə süzgəcdən keçirildikdən sonra, gəlib bizə çatıb. Buna görə də dəqiq və dəyişməz maddələri yoxdur. Bu elmdə (tarixdə), araşdırmalar saysız-hesabsız ola bilər. Bu cəhətdən də bir sıra təhqiqatçılar «şübhə fəlsəfəsinə» üz çevirmişlər. Onlar belə zənn edirdilər ki, bütün tarixi hadisələrin nəqlində və təhlilində fərdlərin və şəxsi əqidələrin iştirakı olduğu üçün, onların hər birinin etibarlılıq həddi, o birinki qədərdir və nəql olunan hadisə heç də söylənildiyi kimi baş verməyib.»

Ən mötəbər tarixçilərin yazdıqları da tamamilə düzgün olmasa da, əvvəla, tarixin özünün bir sıra həqiqətləri vardır ki, elə bunları araşdırmaq olar. İkincisi, tədqiqatçılar bir sıra araşdırma yolu ilə, bəzi yazılanların doğru və yalan olduğunu aşkar etməklə müəyyən nəticələr əldə edə bilər. Məlum məsələdir ki, bəzən uzun illər boyu məşhur olan bir çox hadisələr tədqiqatçılar tərəfindən araşdırıldıqdan sonra, əslində belə bir hadisənin baş verməməsinin sübuta yetirildiyinin şahidi olururq. İskəndəriyyə kitabxanasının on dördüncü əsrdə yandırılması xəbərini buna misal göstərmək olar. Bu xəbər, o qədər geniş yayılmışdı ki, hətta bəzi mötəbər tarix kitablarında da qeyd olunmuşdu. Ancaq iyirminci əsrin tədqiqatları sübut etdi ki, bu xəbər əsassızdır və təəssübkeş xristianlar tərəfindən uydurulub. Bəzən həqiqət gizlədilir, ancaq bir müddət keçdikdən sonra aşkar olur. Buna görə də, tarixi məlumatlara qarşı tamamilə bədbin olmaq düzgün deyildir..

## 2. TARİXDƏ SƏBƏB AMİLİ

Tarix üzərində səbəb və illiyyət amili hakimdirmi? Əgər hakimdirsə, deməli hər bir hadisənin baş verməsi qaçılmaz olmuşdur və bir növ tarix üzərində «icbar» məsələsi hakimlik edir. Əgər tarixə icbar hakimlik edirsə, insanın azadlığı necə olsun? Əgər həqiqətən də tarixi hadisələrin baş verməsi icbaridirsə, deməli heç bir fərd məsuliyyət daşımır və heç bir fərd nə tərifə, nə töhmətə və nə də tənqidə layiqdir. Ancaq, əgər səbəb və illiyyət amili hakim deyilsə, deməli ümumilik də yoxdur və əgər ümumilik yoxdursa, deməli tarixin heç bir qanunauyğunluq və adəti də yoxdur. Çünki, qanun ümumiliyin, ümumilik də səbəb və illiyyət amilinin daxili hissəsidir.

Bu, elmi tarix və tarixi fəlsəfə barəsində mövcud olan problemlərdən biridir. Bəziləri, səbəb amilinə və ümumiliyə üstünlük verərək, azadlıq və ixtiyarı inkar ediblər və azadlıq adı ilə qəbul etdikləri əslində azadlıq deyil, ayrı bir şey olmuşdur. Bəziləri əksinə, azadlığı qəbul edərək tarixi qanunauyğunluğu rədd edirlər. Əksər sosioloqlar səbəb və illiyyət amili ilə azadlığı bir yerdə təsəvvür etmirlər və birincini əsas götürərək azadlığı inkar edirlər.

Heygel və onun arxasınca gedən Marks, tarixi icbarın tərəfdarıdırlar. Onların nəzərində azadlıq, tarixi zəruriliyə agah olmaqdan savayı başqa bir şey deyildir. «Marks və marksizm» kitabında, eləcə də Engelsin «Antidurinq» kitabında yazılır: «Heygel, zərurət və azadlığın əlaqəsini dəqiq göstərən ilk şəxs idi. Onun nəzərinə görə, azadlıq

zərurətin dərki deməkdir. Zərurət təsəvvürolunmaz dərəcədə görünməzdir. Azadlıq, təbiət qanunlarından asılı olmamaq deyil, əksinə bu qanunları tanımaq və onları öz məqsədinə çatmaq üçün işə salmaqdadır. Bu mətləb, istər xarici şərait qanunlarına, istərsə də insanın cismi və ruhu vücuduna hakim olan qanunlara aiddir.»[1]

Həmin kitabda, «insan müəyyən tarixi şəraitdə və həmin şəraitin təyin etdiyi cəhətə əsasən əməl etməlidir və gərək etsin» barəsində bəhs etdikdən sonra, yazılır: «Əslində bu məlumat və biliklərin tanınması, insanın əməlini təsirli edir. Bu bilgilərin əksinə edilən hər əməl, tarixin yoluna qarşı etiraz və reaksiya mənasını verir... Bu bilgilərlə uyğun hərəkət etmək isə, tarixin təyin etdiyi hədəfə doğru getmək deməkdir. Ancaq belə bir sual meydana gəlir ki, azadlıq necə olsun? Marksizm məktəbi cavab verir ki, azadlıq fərdin tarixi zərurətə agah olmasından və sürükləndiyi ictimai yola bələd olmasından ibarətdir.»[2]

Aydındır ki, deyilənlər heç bir problemi həll etmir. Əsas məsələ, insanın tarixi şəraitlə olan əlaqəsidir ki, o, tarixi şərait üzərində hakim olub onu istiqamətləndirə və ya istiqamətini dəyişə bilərmi? Əgər insan tarixi istiqamətləndirmək iqtidarında deyilsə və ya tarixin istiqamətini dəyişə bilmirsə, deməli tarixin axarına tabe olmaqla öz varlığını qoruyar, inkişaf edə bilər. Əgər, tarixin axarına qarşı çıxarsa, məhv olar. İndi belə bir sual yaranır ki, insan tarixin axarına tabe olub-olmamaqda

---

[1] Marks və marksizm, səh-249.

[2] Həmin mənbə, səh-37 və 38.

azaddırmı? Cəmiyyətin əsas, fərdlərin isə qeyri-əsas olması prinsipini, vicdan, şüur və fərdi hisslərin tarixi və ictimai şəraiti, xüsusilə də iqtisadi şəraiti yaratdıqlarını nəzərə alsaq, azadlıq üçün yer qalırmı? O zaman «azadlıq, zərurət olan agahlıqdır» sözləri mənasız olmayacaqmı? İnsanın coşqun bir selə düşməsi və selin, bir saatdan sonra onu dənizin dibinə aparacağına agah olması, yaxud uca zirvədən yıxılan və ağırlıq qanununa əsasən, bir neçə andan sonra tikə-tikə olacağını bilən şəxsə nəzər salaq. Onlar dənizə düşməkdə və dərəyə yıxılmaqda azaddırlarmı? Tarixi cəbrin maddiliyi nəzəriyyəsinə əsasən, maddi-ictimai şərait, insanı məhdudlaşdıran, onu istiqamətləndirən, onun seçimini, iradəsini, şəxsiyyətini və vicdanını formalaşdıran amildir və o, ictimai şəraitin müqabilində boş qabdan başqa bir şey deyil, xam bir maddədir. Şərait insanın deyil, insan şəraitin yaratdığıdır. İnsan şəraitinin gələcək yolu deyil, mövcud şərait insanın gələcək yolunu təyin edir. Buna görə də, azadlığın heç bir mənası yoxdur.

Həqiqət budur ki, insan azadlığı «fitrət» nəzəriyyəsindən savayı başqa bir şeylə təsəvvür edilə bilməz (yəni, insan dünyanın ümumi cövhəri yolunda, dünyaya əlavə bir cəhətlə gəlir və onun ibtidai şəxsiyyətini də həmin cəhət formalaşdırır və sonra mühitin təsiri ilə təkmilləşir və inkişaf edir). Bu cəhət, insana insan şəxsiyyəti verən vücuddur. Bu cəhət, hətta o qədər güclənir ki, insan tarixə yiyələnir və tarixin axarını dəyişir və ya təyin edir. Biz, artıq cəmiyyət bölməsində «icbar ya ixtiyar» adı altında bu barədə danışdıq və bir daha bu

barədə «tarixin cəhətləri» adı altında, qəhrəmanların rolu barəsində söhbət açacığımız yerdə, geniş izah verəcəyik.

İnsan azadlığı qeyd etdiyimiz mənada nə «səbəb və illiyyət» qanunu, nə də tarixi qanununauyğunluq və tarixi məsələlərin ümumiliyi ilə ziddir. İnsanın azadlıq və ixtiyar əsasında, öz iradəsi ilə fikirləşərək, ictimai həyatda təyin olunmuş müəyyən yola malik olması, insan iradəsi və insan üzərində hakim olan zərurətdən başqa bir şey deyil.

Qanunauyğunluq və tarixi məsələlərin ümumiliyində başqa bir nöqsan var və o da tarixi bir sıra təsadüf və cüzi hadisələrin dəyişdirməsidir. Ələbttə, təsadüfü hadisələrdən məqsəd – bəzi naşı adamların fikrinə zidd olaraq – səbəbsiz hadisələr deyil, külli və ümumi səbəbdən doğmayan hadisələrdir və buna görə də onların ümumi qaydası yoxdur. Əgər ümumi qaydaları olmayan hadisələr, tarixi hərəkətlərdə mühüm rol oynasalar, tarixdə heç bir qayda-qanun, adət və cərəyan olmayacaqdır. Tarixin axınına təsir qoymuş təsadüfü hadisələrə çox misal çəkmək olar: Edvard Hakt Kar, «Tarix nədir?» adlı kitabında deyir: «(Tarixi icbara) həmlənin digər səbəbi, məşhur «Klyopatranın burnu» məsələsidir. Bu, tarixin az-çox təsadüfü hadisələrdən təşkil olunmasını güman edən bir nəzəriyyədir: Oktiun Klünaribəsinin nəticəsi, tarixlərin inkarolunmaz saydıqları səbəblərlə deyil, Antoninin Klyopatraya olan bağlılığı ilə əlaqəlidir. Bayazidin xəstəlik üzündən mərkəzi avropaya yürüşü yarımçıq qaldığı zaman, Gibon yazmışdı ki, «bəşər üzvlərindən birinin sağlam təbii vəziyyətinə yüngül bəlğəm xəstəliyinin hakim olması, millətlərin bədbəxtliyinin qarşısını ala və ya vaxtını gecikdirə bilər. Yunan padşahı

İskəndər, əlini meymun dişləməklə öldükdən sonrakı təsadüf nəticəsində (1920-ci ilin payızı) bir sıra hadisələr baş verdi və Uinstan Çörçill bu hadisələri «250 min nəfər meymun dişləməsindən öldü» kimi qiymətləndirməyə məcbur oldu. Yaxud, Trotski ördək ovu zamanı qızdırma xəstəliyinə tutulur və Zinovyev, Kamenev və Stalinlə mübarizəsinin qızğın vaxtında (1923-cü ilin payızında) yatağa düşür və yazır ki, «insanlar inqilabı ya müharibəni qabaqcadan görə bilər, ancaq vəhşi ördəklərin payız ovunun nəticələrini qabaqcadan görməsi qeyri-mümkündür.»[1]

İslam dünyasında, axırıncı Əməvi xəlifəsi Mərvan ibni Məhəmmədin məğlubiyyəti, tarixin axarına təsadüfün təsirinin yaxşı nümunəsidir. Mərvan Abbasilərlə axırıncı döyüş zamanı, (ayaqyoluna getmək üçün) xəlvətə çəkildi. Təsadüfən oradan keçən bir düşmən əsgəri, onu görərək öldürdü. Onun ölüm xəbəri, bir anda əsgərlərin arasında yayıldı. Qabaqcadan belə bir hadisə nəzərdə tutulmadığına görə, əsgərlər özlərini itirərək qaçmağa başladılar və nəticədə, Bəni Üməyyə dövləti süqut etdi. Sonralar bu barədə deyirdilər: «Dövlət bir ayaqyoluna getməklə aradan getdi.»

Edvard Halt Kar, hər təsadüfün bir sıra səbəb və nəticə prosesini kəsən digər səbəb və nəticə prosesinin davamı olduğunu izah etdikdən sonra deyir: «Ardıcıllığın hər an, bizim fikrimizcə, heç bir aidiyyəti olmayan digər ardıcıllıq

---

[1] Ey. Eç. Kar, «Tarix nədir?» səh-144-145.

vasitəsilə qət olması baş verə-verə, necə ola bilər ki, tarixdə səbəb-nəticə ardıcıllığını kəşf edəsən?»[1]

Bu iradın cavabı, cəmiyyət və tarixin cəhətli təbiətə malik olub-olmamasından asılıdır. Əgər tarix, cəhətli təbiətə malik olsa, cüzi hadisələrin rolu az olacaq. Yəni, cüzi hadisələrin bəzi şeyləri dəyişdirməsinə baxmayaraq, tarixin ümumi axarına heç bir təsir etməyəcək. Ən çoxu bu axarın sürətinə təsir göstərə bilər, ancaq, əgər tarix şəxsiyyət və təbiətə və onların təyin etdiyi yola malik olmasa, tarixin müəyyən və aydın bir yolu olmayacaq və bu yolu qabaqcadan təyin etmək də çətin olacaq.

Biz tarixin təbiət və şəxsiyyətə malik olduğuna inandığımıza görə bu əqidədəyik ki, bu şəxsiyyət və təbiət öz fitrətlərinə əsasən, təkamül axtarışında olan insanların şəxsiyyətlərinin cəmindən yaranır – təsadüfi hadisələrin yolu, tarixi zəruriyyət və ümumiyyətə heç bir ziyan gətirmir.

Monteskyunun təsadüfün yolu barəsində gözəl sözü vardır: «Əgər bir müharibə təsadüfən bir dövləti dağıdarsa, söylənilən dövlətin müharibə nəticəsində dağılmasına şərait yaranmış ümumi səbəb olmuşdur.»[2]

O, başqa bir yerdə deyir: «İsveç padşahı 12-ci Karlın süqutuna Poltava döyşü səbəb olmadı. O, əgər Poltavada məğlub olmasaydı, başqa bir yerdə məğlub olacaqdı. Təsadüfü hadisələrin nəticələrini aradan asanlıqla

---

[1] Həmin mənbə, səh-146.

[2] İctimaiyyətdə fikrin əsas mərhələləri, səh-27.

qaldırmaq olur. Ancaq, şeylərin təbiətindən doğan hadisələrdən sığortalanmaq olmaz.»[1]

## 3. TARİXİN TƏBİƏTİ MADDİDİRMİ?

Tarixi təbiətin hansı növdən – mədəni, siyasi, iqtisadi, dini, əxlaqi və nəhayət, maddi, mənəvi və ya hər iki təbiətə malik olması, tarixə aid olan mühüm məsələlərdəndir. Bu məsələ həll olunmasa, bizim tarix haqqında anlayışımız düzgün və dəqiq olmayacaq.

Aydındır ki, bütün sayılmış maddi və mənəvi amillər tarixin yaranmasına təsir göstərir. Əsas məsələ birincilikdə, üstünlükdə və daha çox təsir göstərə bilməkdədir. Söhbət odur ki, bu amillərdən hansı tarixin əsil ruhunu və həqiqi şəxsiyyətini təşkil edir? Amillərdən hansı biri o birilərini izah edə bilər? Hansı amil bazis və hansıları üstqurumdur?

Adətən nəzər sahibləri, tarixi bir-birindən müstəqil və müxtəlif mühərrikləri olan maşına bənzədirlər. Yəni, onlar tarixi bir neçə təbiətli hesab edirlər. Ancaq, əgər tarixi çox mühərrikli və çox təbiətli saysaq, təkamül və onun tarixi gedişatının aqibəti necə olacaq? Ola bilməz ki, bir neçə mühərrik – onların hər biri bir növ hərəkət yaradır və tarixi müəyyən cəhətə yönəldir – tarix üzərində hakim olsun və tarix, yalnız müəyyən bir təkamül yolunu gedə bilsin. Bu, yalnız tarixin ruhuna malik olması və həmin ruhun da, bu amilləri özünə tabe edərək tarixi müəyyən cəhətə yönəltməsi şərti ilə mümkündür. Elə həmin ruh, təbiətin

[1] Həmin mənbə, həmin səhifə.

həqiqi şəxsiyyətini təşkil edir. Ancaq, bu da özü-özlüyündə tarixin tək təbiətli olması deməkdir. Tarixin təbiəti, tarixin ruhu adlandırılan amildir.

Bizim əsrdə, özünə çoxlu tərəfdar toplamış və «tarixi materializm» və ya «dialektik materializm» adı ilə məşhur olan nəzəriyyə meydana çıxmışdır. Tarixi materializm, iqtisad və ya tarixin insani anlamı olmadan, tarixi və insani iqtisadın anlamıdır. Başqa sözlə, tarixi materializm tarixin maddi mahiyyəti və dialektik vücudu olması deməkdir.

Maddi mahiyyətin mənası, bütün hərəkətlərin, inqilab və tarixi hadisələrin səbəbini həmin cəmiyyətlərin iqtisadi quruluşunda olmasını qəbul etməkdir. Yəni, həmin cəmiyyətin maddi istehsal qüvvələri, həmin cəmiyyətin istehsal əlaqələri və istehsalın şəraiti bütün ictimai-mənəvi göstəricilərini – əxlaq, elm, fəlsəfə, din, qanun və mədəniyyət – formalaşdırır və özünü dəyişməklə onları da dəyişdirir. Ancaq tarixin vücudunun dialektik olması o deməkdir ki, tarixin təkamül hərəkətləri, dialektik hərəkətlərdir. Yəni bir sıra dialektik təzadların – özü də bu təzadlar bir-birinə bağlıdır – nəticəsidir. Qeyri-dialektik təzadla fərqi olan dialektik təzadda, hər reaksiya öz daxilində özünün antireaksiyasını yaradır və bu daxili təzadların nəticəsində baş verən bir sıra dəyişikliklərdən sonra, geniş surətli dəyişikliklər birlikdə daha ali formaya keçir.

Deməli, tarixi materializm iki məsələni təzmin edir: Birincisi, tarixin şəxsiyyətinin maddi olmasını, ikincisi isə, onun hərəkətlərinin dialektik olmasını. Biz hal-hazırda birinci məsələni müzakirə etmək istəyirik və ikinci

məsələnin izahını növbəti fəslə – yəni, tarixin təkamül və vəziyyətinin dəyişməsini araşdıracağımız fəslə saxlayırıq.

«Tarixi şəxsiyyətin maddiliyi» nəzəriyyəsi, bir sıra fəlsəfi, psixoloji, sosioloji və ideoloji prinsiplərdən qaynaqlanır. Biz bu əhəmiyyətli mətləbin aydınlaşması üçün – xüsusilə nəzərə alsaq ki, bəzi müsəlman ziyalılar iddia edirlər ki, «islam, fəlsəfi maddiliyi rədd etməsinə baxmayaraq, tarixi maddiliyi qəbul edir» və öz nəzəriyyələrini də bu əsasda qururlar – bir az geniş izah verməyi lazım bilirik. Buna görə də bu nəzəriyyənin köklərinə, əsas üsul və prinsiplərinə diqqət edərək onun nəticələrini şərh etdikdən sonra həmin nəzəriyyənin özünü elmi və islami nöqteyi-nəzərdən də araşdıracağıq.

## TARİXİ MATERİALİZMİN ƏSASLARI

### 1. MADDƏNİN RUH ÜZƏRİNDƏ ÜSTÜNLÜYÜ

İnsan həm cismə, həm də ruha malikdir. Onun cismi (bədəni) tibb elmi, anatomiya, fiziologiya, və bu kimi digər elmlərin mütaliə mövzusudur. Ancaq ruh və ruhla əlaqədar mövzular, fəlsəfi və psixoloji araşdırmalar mövzusudur. Fikirlər, imanlar, hisslər, meyllər, nəzəriyyələr və ideologiyalar ruhi işlər və mövzulara aiddir. Maddənin ruhdan üstün olması, ruhi işlərin ikinci dərəcəli olması deməkdir. Bu nəzəriyyəyə əasən, ruhi işlər, xarici varlığın əsəb və beyin sistemində bir sıra maddi əksül-əməllər silsiləsidir.

Bu işlərin vəzifəsi, insan vücuduna hakim olan maddi qüvvələrə qarşı çıxan qüvvə kimi deyil, daxili maddi qüvvələrlə ətraf mühit arasında rabitə yaratmaqdır. Ruhi işləri avtomobilin işığana bənzətmək olar. Avtomobil, gecə vaxtı işıqsız hərəkət edə bilmir və onun şüaları altında öz istiqamət və yolunu müəyyənləşdirir. Ancaq onu hərəkətə gətirən çıraqlar deyil, mühərrikdir.

Ruhi işlər – yəni fikirlər, imanlar, nəzəriyyələr, ideologiyalar və s. – tarixin maddi qüvvələrinin axarına qarışarlarsa, tarixin hərəkətinə kömək göstərəcəklər. Ancaq, onlar özləri heç cür, hərəkət yarada bilməzlər və maddi qüvvələrin qarşısına müxalif qüvvə kimi çıxa bilməzlər. Ruhi işlər, əsasən qüvvə sayılmırlar. İnsan vücudunun həqiqi qüvvələri, maddi qüvvə adı ilə tanınan və maddi ölçülərlə ölçülən qüvvələrdir. Bu səbəbdən də, ruhi işlər hərəkətdoğurucu və cəhətverici ola bilmir, heç vaxt cəmiyyətin hərəkəti üçün «sükan» sayılmırlar. Mənəvi dəyərlər maddi dəyərlərə əsaslanmazsa, heç bir ictimai hərəkətin başlanğıcı ola bilməz.

Buna görə də, tarixi təfsir edərkən dəqiq olmaq lazımdır. Tarixin zahiri təsirlərinə qapılmaq olmaz. Əgər, təsadüfən müəyyən bir dövrdə hər hansı bir əqidə, insan və ya ideologiyanın hər hansı bir cəmiyyəti hərəkətə gətirdiyini və təkamül mərhələsinə çatdırdığını görsək, məlum olacaq ki, bu əqidələr müstəqil deyil, cəmiyyətin maddi qüvvələrinin inikasıdırlar. Həmin maddi qüvvələr, iman şəklində cəmiyyətləri hərəkətə gətirir. Tarixi inkişaf etdirən maddi qüvvə – texnoloji cəhətdən – cəmiyyətin istehsal sistemi, insani cəhətdən isə, cəmiyyətin məhrum və istismar olunan kütləsidir.

Məşhur materialist filosof Feyerbax – Marks bir çox materialist nəzəriyyələrini onun fikirlərindən götürüb – deyir: «Nəzəriyyə nədir? Praksis (ictimai və əməli fəlsəfə) nədir? Bunların ikisinin fərqi nədir? Bu suala özü belə cavab verir: «Zehnlə məhdudlaşan hər bir şey nəzəridir. Bir çox beyinlərdə yerləşənlər əməlidir. Bir çox beyinləri bir-biri ilə müttəfiq edən, kütləni əmələ gətirən və bununla da dünyada özünə yer açan da odur.»[1]

Onun vəfalı şagirdi Marks yazır: «Aydındır ki, tənqidin silahı, silahların tənqidini əvəz edə bilməz. Maddi qüvvəni, yalnız maddi qüvvə ilə əzmək olar.»

Marks, qeyri-maddi qüvvələrə əsalət və üstünlük verməmək və onların yalnız aydınlaşdırıcı rolunu göstərmək üçün davam edir: «Ancaq nəzəriyyə də kütlə arasında yayıldıqda, maddi qüvvəyə çevrilir.»

Maddənin ruh üzərindəki üstünlüyü, mənəvi qüvvələrin və mənəvi dəyərlərin əsassız sayılması, fəlsəfi materializmin əsas prinsiplərindən biridir.

Bu prinsipin qarşılığı, ruhi dəyərlər və insan vücudunun bütün cəhətlərinə maddə və onun qanunları ilə ölçə bilməmək fikri əsasında qurulmuş fəlsəfi fikirdir. Ruh, insan vücudu çərçivəsində həqiqi reallıqdır. Ruhi enerji də, maddi enerjilərdən ayrı və müstəqildir. Buna görə də mənəvi qüvvələr, yəni fikri, etiqadi, imani və s. qüvvələr bir sıra hərəkətlər üçün – istər fərdi vücud və istərsə də cəmiyyət səviyyəsində – təkanverici sayılır və bu təkanvericilərdən də tarixin hərəkəti üçün istifadə etmək olar. Tarixi hərəkətlərin bir çoxu bu təkanvericilərdən

---

[1] Andre Piter, «Marks və marksizm» səh-39.

başlayıb və başlayır. Xüsusilə də, fərdi və ictimai hərəkətlər bü qüvvələrdən başlayıb və öz böyüklüyünü də məhz bu cəhətdən tapıb.

Mənəvi qüvvələr bədənin maddi qüvvələrini, təkcə ixtiyari fəaliyyət səviyyəsində deyil, hətta mexaniki, bioloji və kimyəvi fəaliyyətlərdə də öz şiddətli təsiri altına alır və onları öz məqsədinə uyğun olan şəkildə idarə edir. Fiziki xəstəliklərin sağalmasında psixi təlqinlərin, hipnotizmin qeyri-adi təsiri inkarolunmaz dəlillərdəndir.

Elm və iman, xüsusilə də iman, bir-biri ilə uyğunlaşdığı zaman, böyük və faydalı qüvvəyə çevrilirlər və tarixi hərəkatlarda aparıcı qüvvə rolunu oynaya bilirlər.

Ruhi qüvvələr, onun əsalət, üstünlük və dəyərliliyi «fəlsəfi realizmin» əsas prinsiplərindəndir.

## 2. MADDİ EHTİYACLARIN MƏNƏVİ EHTİYACALARDAN ÜSTÜNLÜYÜ

İnsanın, öz ictimai vücudunda ən azı, iki növ ehtiyacı vardır: Çörək, su, məskən, geyim, dərman və s. kimi maddi ehtiyaclar; təhsil, elm, ədəbiyyat, incəsənət, fəlsəfi düşüncə, iman, ideologiya, əxlaq və s. kimi mənəvi ehtiyaclar. Hər iki növ ehtiyac, insanda mövcuddur. Söhbət onların hansının üstün və daha öncül olmasıdır. Maddi ehtiyac, ya mənəvi və yaxud da heç biri? Maddi ehtiyacların önəmliyi nəzəriyyəsi, maddi ehtiyacların üstün və birinci dərəcəli olması, onların birinci dərəcəliyinin «insan əvvəl maddi ehtiyaclarını ödəməyə çalışır və onları ödədikdən sonra, mənəvi ehtiyaclarına üz tutur» mənasında deyil, «mənəvi ehtiyacların mənbəyi

maddi ehtiyaclardır» mənasını iddia edir. İnsan öz yaradılışında, maddi və mənəvi adlı iki növ ehtiyac fitrəti ilə yaradılmayıb. Əslində insan, birnövlü ehtiyacla yaradılıb və mənəvi ehtiyaclar ikinci dərəcəli ehtiyac olub, maddi ehtiyacların daha yaxşı ödənməsi üçün bir vasitədir.

Bu cəhətdən də mənəvi ehtiyaclar mahiyyət, keyfiyyət və forma baxımından da maddi ehtiyaclara tabedirlər. İnsanın maddi ehtiyacları hər bir dövrdə istehsal alətlərinin inkişafına uyğun olaraq, xüsusi forma və keyfiyyətə malik olur. Onun maddi ehtiyaclarından doğan mənəvi ehtiyacı da, forma, keyfiyyət və xüsusiyyət baxımından maddi ehtiyaclarına uyğun olur. Deməli həqiqətdə, maddi və mənəvi ehtiyaclar arasında iki növ önəmlilik mövcuddur: Vücud önəmliliyi, yəni mənəvi ehtiyacların maddi ehtiyaclardan doğması; keyfiyyət önəmliliyi, yəni forma və xüsusiyyət baxımından mənəvi ehtiyacların maddi ehtiyaclara tabe olması. P.Ruyanın yazdığı «Tarixi materializm» kitabında, Haymen Loyun «Fəlsəfi fikirlər» kitabının 92-ci səh-dən nəql edərək yazır: «Bəşər yaşayışının maddi yolu, insanları dünyaya, cəmiyyətə, incəsənətə, əxlaqa və s. – bunlar həmin maddi yoldan və istehsal formasından doğur – aid olan və zamanın maddi ehtiyaclarını ödəmək vasitələri əsasında olan nəzəriyyələr irəli sürülməyə vadar etdi.»[1]

Bu səbəbdən də elmi hakimlik, fəlsəfi düşüncə, zövq və gözəllik hissləri, əxlaqi qiymətləndirmə tərzi və hər bir fərdin dini meylləri, onun yaşayış tərzindən asılıdır. Bu prinsip fərdə aid olduqda, bu formada səslənir: «Nə

---

[1] Tarixi materializm, səh-37.

yediyini söylə, nə fikirləşdiyini deyim.» Ancaq cəmiyyətə aid edildikdə, bu formada səslənir: «İstehsal alətlərinin inkişaf dərəcəsini və cəmiyyət fərdləri arasında mövcud olan rabitənin növünü de, hansı əxlaq, hansı ideologiya və hansı dinin orada hakim olduğunu deyim.»

Bu nəzəriyyənin əksi, mənəvi ehtiyacların əsas və daha vacib olması nəzəriyyəsidir. Həmin nəzəriyyəyə əsasən, insanda zaman baxımından maddi ehtiyacların daha tez meydana gəldiyinə baxmayaraq – körpə doğulduğu andan ana döşünü axtarır – tədriclə insanın fitrətində olan mənəvi ehtiyaclar özünü büruzə verir. İnsan özünün inkişaf dövründə maddi ehtiyaclarını mənəvi ehtiyaclarına qurban verir. Başqa sözlə, mənəvi ləzzətlər maddi ləzzətlərlə müqayisədə daha güclü və daha cazibəlidir.[1] İnsanın tərbiyəsi və təhsili artdıqca, mənəvi ehtiyaclar, mənəvi ləzzətlər və nəhayət, mənəvi həyat maddi həyatı öz təsiri altına alır. Cəmiyyət də belədir. Yəni bədəvi və ibtidai cəmiyyətlərdə maddiyyat mənəvi ehtiyaclara hakim kəsilir. Ancaq cəmiyyət inkişaf etdikcə, mənəvi ehtiyaclar özünün əsil yerini tapmağa başlayır, insanın ali hədəfinə çevrilir və bununla da, maddi ehtiyacları öz təsiri altına alır.

---

[1] İbni Sina, «İşarələr» kitabının 8-ci fəslində bu barədə geniş izah verib.

## 3. İŞİN DÜŞÜNCƏYƏ NİSBƏTƏN ÜSTÜNLÜK PRİNSİPİ

İnsan həm fikirləşən və düşünən, həm də işləyən bir varlıqdır. Görəsən iş mühümdür, yoxsa düşüncə? İnsanın cövhəri işdir, yoxsa düşüncə? İnsanın şərəfi işlədir, yoxsa düşüncə ilə? İnsan işdən yaranıb, yoxsa düşüncədən?

Tarixin maddiliyi işin mühümlüyü, onun düşüncədən üstün olması prinsipinə əsaslanır. İşi bazis, düşüncəni üstqurum sayır. Qədim fəlsəfə və məntiq, düşüncəni açar hesab edirdi. Həmin məntiqə əsasən düşüncə və fikir iki yerə bölünürdü: Təsəvvür və təsdiq. Onlar da öz növbəsində iki yerə bölünürdü: bədihi və nəzəri. Bədihi – yəni, sübuta ehtiyacı olmayan – fikirlər, nəzəri fikirlərin açarı sayılır, həmin fəlsəfə isə, insanın cövhərini fikir sayırdı. İnsanın kamalı onun elmi ilə ölçülür, kamil insan isə alim adama deyilirdi.

Ancaq tarixi materializm, «iş fikrin açarı, iş fikrin meyarıdır, iş insanın cövhəridir, iş insanın formalaşdırıcısıdır» prinsipi əsasında qurulur. Marks deyib: «Dünya tarixi bütünlüklə, insanın bəşəri əmək vasitəsilə yaradılmasından başqa bir şey deyil.»[1]

Engels isə deyir: «İnsanın özünü də əmək yaradıb.»[2] Çünki, əzəldən insan təbii fəlakətlərə qarşı düşünmək əvəzinə, öz ağır zəhməti ilə ətraf mühitə qələbə çalır, bu yolla da təcavüzkarlarla vuruşaraq öz istədiyi cəmiyyəti yaradır və inkişaf etdirir.

---

[1] Marks və marksizm, səh-40-41.

[2] Marks və marksizm, səh-40-41.

Marks və marksizm kitabında yazılıb:

«Varlığın fəlsəfəsində əvvəl fikir və prinsiplərin bəyanı və sonda onlardan əməli nəticə çıxarmaq adi hal olduğuna baxmayaraq, praksis (əməli fəlsəfə) əməli fikrin əsası sayılır. Bu fəlsəfə, imanı qüdrətlə əvəz edir və Heygel kimi, o, da iddia edir ki, insanın həqiqi varlığı, ilk növbədə onun əməlidir. O, bu düşüncə ilə də, məşhur alman filosofuna həmfikirlik edib deyir: ilk olaraq ruh və söz yaranıb yerinə, öncə əməl yaranıb demək lazımdır.[1]

Bu prinsip, bir marksist-materialist fəlsəfə prinsipidir. Bu prinsip, marksizmdə «praksis» adı ilə tanınır və Marks onu, öz ustadları Feyerbax və Heygeldən əxz edib.

Bu nəzəriyyənin müqabilində, iş və düşüncənin qarşılıqlı təsirini və düşüncənin önəmliyini bəyan edən realist fəlsəfi prinsipi dayanır. Bu fəlsəfədə insanın cövhəri, fikirdir. İnsan – ətraf mühitlə məşğul olmaqla – öz işi ilə, məlumatlarını ətraf mühitdən kəsb edir və zehni, bu məlumatlarla dolmayana qədər onları araşdırmağa macal tapmır. Bu məlumatları topladıqdan sonra, beyin bunlar üzərində müxtəlif formalarda araşdırmalar aparır və doğru anlayış üçün şərait yaradır. Anlayış təkcə görünən maddənin beyindəki sadə əksi deyil. Maddənin beyində əks olunmasından sonra, ruhun qeyri-maddi cövhərindən doğan bir sıra beyin prosesləri nəticəsində, anlayış formalaşır. Deməli, iş fikrin başlanğıcı və eyni halda da, fikir işin mənşəyidir. İş fikrin və fikir də işin meyarıdır. İnsanın şərəfi, onun elmi, imanı, izzəti və kəraməti ilə ölçülür və iş də, bunları təmin etmək vasitəsi olduğu üçün

---

[1] Həmin mənbə, səh-39.

şərəf mənbəyi sayılır. İnsan, işin həm yaradıcısıdır, həm də yaratdığı. Bu xislət yalnız insana məxsusdur – bu xüsusiyyət başqa varlıqlarda yoxdur – və onun xüsusi, ilahi yaranışından irəli gəlir. Ancaq, insanın işi yaratmağı həqiqi, işin insanı yaratmağı isə məcazidir. Yəni insan öz işini həqiqətdə yaradır. Ancaq iş insanı yaratmır. İş, əmək və əməllərin təkrarı, insanın daxilən formalaşmasına şərait yaradır. İki şeyin qarşılıqlı əlaqəsi, biri «həqiqi» və «icadi», digəri isə «məcazi» və «imkani» olduqda, üstünlük «həqiqi» və «icadi» tərəfdə olur.

Deməli, agahlığı və elmi, onun zati cövhəri olan insanın işlə qarşılıqlı əlaqəsi olmaqla – insan işi yaradır, iş də insanı – bərabər, yuxarıda dediyimizə əsasən, işdən üstündür. Yəni, iş insandan deyil, insan işdən üstün və mühümdür.

## 4. İNSAN SOSİOLOGİYASININ PSİXOLOGİYADAN ÜSTÜNLÜYÜ

İnsan fizioloji cəhətdən canlıların ən mükəmməlidir və o, insani təkamül adlanan xüsusi bir istedada, insani xüsusiyyətlərin yaratdığı vücud və şəxsiyyətə malikdir. Bu şəxsiyyət, bir sıra təcrübə və təlimlər nəticəsində fikri, fəlsəfi və elmi xüsusiyyətlərə malik olur və bununla da «əxlaq» adlanan digər xüsusiyyətin təsiri altına düşür. Bu xüsusiyyətin təsiri ilə də, «yaxşı» və «pisi» yaradır. Elə «incəsənət» və «din» xüsusiyyəti də bu cürdür. İnsan fikri və fəlsəfi cəhətlərdən bir sıra prinsiplər kəşf edir və həmin prinsiplər onun düşüncə bazisi olur. Bütün bunlar, insan vücudunun insani xüsusiyyətlərini təşkil edir.

İnsani xüsusiyyətlər birbaşa ictimai amillərin yaratdığı bir şeydir. O, doğulduğu anda heç bir xüsusiyyətə malik deyildir. Təsiri altında olduğu amillərdən asılı olaraq, istənilən forma və xüsusiyyəti qəbul etməyə hazır olan xammaldır. Bu mənada o, boş bir qaba, yazılmağa hazır olan ağ bir kağıza bənzəyir. Çünki, o qaba nə doldurulsa, o kağıza nə yazılsa, özündə onu əks etdirəcək. Xülasə, insanı «əşya»lıqdan çıxarıb «şəxs» formasına salan, ictimai iş adalanan xarici ictimai amillərdir. İnsan özü-özlüyündə «şey»dir və yalnız ictimai amillərin təsiri ilə «şəxs»ə çevrilir.

P.Rayanın «Tarixi materializm» kitabında» Plexanovun «Marksizmin əsas məsələləri» kitabından nəql edilir: «İctimai mühitin sifətləri, hər dövrün istehsal qüvvələrinin səviyyəsilə təyin olunur. Yəni, istehsal qüvvələrinin səviyyəsi təyin olunduqda, ictimai mühitin xüsusiyyətləri, ona bağlı psixologiya və mühitlə fikir və rəftar arasındakı qarşılıqlı əlaqə təyin olunur.»

Başqa bir yerdə yazır: «İstehsal qüvvələri vasitəsilə psixologiya təyin olunduqda, kökləri psixologiyada olan ideologiya da təyin olunur. Ancaq, ictimai münasibətlərdən doğan ideologiyanın müəyyən dövrdə yaşaması, qalması, və hakim təbəqənin mənafeyini müdafiə etməsi üçün, ictimai təsisatlarla təkmilləşməsi və güclənməsi lazımdır. Deməli həqiqətdə, ictimai təsisatlar təbəqəli cəmiyyətlərdə baxmayaraq ki, hakim təbəqənin qorunması və ideologiyanın qüvvətlənməsi üçün meydana gəlir, əslində ictimai münasibətlərin nəticələrindən sayılırlar. Sonuncu təhlilə əsasən, onlar istehsalın necəliyindən və xislətindən doğurlar. Məsələn, kilsə və

məscidlər dini ayinlərin – bütün dinlərdə onun əsası məada imandır – yayılması üçündür. Məada inam istehsal vasitələrinin təkamül mərhələsindən doğan təbəqə parçalanmasına əsaslanan, xüsusi ictimai münasibətlərdən yaranır. Yəni, son təhlildə, məada inam, istehsal qüvvələrinin xislətinin nəticəsidir.»

Bu prinsipin əksi, «insan şəxsiyyətinin əsasları, onun yaradılışında yaradıcı amillər tərəfindən qoyulub» fikrinə əsaslanan digər bir insanşünaslıq prinsipidir. Doğrudur ki, insan – Əflatunun məşhur nəzəriyyəsinə zidd olaraq – formalaşmış şəxsiyyətlə dünyaya gəlmir, ancaq öz şəxsiyyətinin əsas xüsusiyyətlərinə doğulduğu anda malik olur. Əgər fəlsəfi terminlərlə desək, insanın insani xüsusiyyətlərinin əsas mayası – əxlaqi, dini, fəlsəfi, eşqi və s. – insan növü surəti, onun məbdə və başlanğıcı, düşünən və danışan varlıq olmasıdır ki, xilqət vasitəsilə formalaşır. Cəmiyyət, insanı zati istedadlar cəhətindən ya tərbiyələndirir, ya dəyişdirir. Düşünmək və danışmaq xüsusiyyəti əvvəldə gizli formada olur və tədriclə, feli formaya düşür. İnsan da fikir və düşüncənin ilk əsasları cəhətindən, eləcə də maddi-mənəvi cazibələr və meyllər baxımından, əvvəlcə bütün xüsusiyyətləri gizli olan, sonra bir sıra cövhəri hərəkətlər nətincəsində aşkar və zahiri xüsusiyyətlərə malik olan digər canlılar kimidir. İnsan xarici amillərin təsiri altında öz fitri şəxsiyyətini tərbiyə edir və kamala çatır və bəzən də yolunu azır. Bu, islam elmlərində «fitrət» prinsipi adlanan bir elmi həqiqətdir. «Fitrət» prinsipi, islam elmlərində ana prinsip sayılır.

Fitrət prinsipinə əsasən, insanın psixologiyası, onun sosiologiyasından önəmlidir. İnsanın sosiologiyası, onun

psixologiyasından güc alır. Burada, insan doğulduğu andan nə dərkə, nə təsəvvürə, nə təsdiqə və nə də insani meylə malikdir. Eyni halda, heyvani xüsusiyyətlərdən başqa, vücudi xüsusiyyətələrə də malik olur. Elə bu xüsusiyyətlər də tədriclə, bir sıra insan təfəkkürünün əsası sayılan və onlarsız məntiqi təfəkkür mümkün olmayan bir sıra təsəvvür və təsdiqlər yaradır. Həmin xüsusiyyətlər, insanın insani şəxsiyyətinin əsas bünövrəsi sayılırlar.

İnsan sosiologiyasının psixologiyadan üstün olması nəzəriyyəsinə əsasən, insan «axtarıcı» deyil, yalnız «qəbuledici» varlıqdır. Verilən hər formanı qəbul etməyə hazır olan xam maddədir, yazılan mahnıları bir-birindən fəqləndirməyən boş kassetdir. Bu maddə müəyyən bir formanı gözləmir ki, onu verdikdə «öz formasına» çatsın, yaxud vermədikdə «öz formasından» uzaq düşsün. Yaxud «xüsusi» bir mahnı arzusunda olan kaset deyil ki, o mahnı yazılmadıqda, zatına uyğun gəlməyən bir şey olsun. Həmin maddə, həmin kasset və ya qab üçün istənilən formanın, mahnının və ya içinə qoyulacaq əşyanın, ya töküləcək mayenin heç bir fərqi yoxdur.

Ancaq fitrətin mühümlüyü və psixologiyanın sosiologiyadan üstünlüyü prinsipinə əsasən, insanın əvvəldə heç bir idrak və meylə malik olmasına baxmayaraq, o, ancaq öz daxilinin əmrinə əsasən bir sıra qəziyyələrə doğru, bir sıra insaniyyət meyarı adlanan ilahi dəyərlərə doğru dinamik hərəkət edir. Təfəkkürün ilk xammalı sayılan bir sıra sadə təsəvvürlər xaricdən zehnə daxil olduqdan sonra, nəzəri və ya bədihi təsdiq formasına düşərək özünü büruzə verir.

Birinci nəzəriyyəyə uyğun olaraq demək olar ki, məsələn, insan hal-hazırda «iki vurulsun iki bərabərdir dörd» deyir və bunu bütün zaman və məkanlarda dəyişilməz qəbul edir. Həqiqətdə bu, onun mühitinin doğurduğu nəticədir, yəni həmin xüsusi mühit və şərait, ona bu fikri təlqin edir. Ola bilər ki, başqa bir mühit ona «iki vurulsun iki bərabərdir iyirmi altını təlqin etsin.

Ancaq ikinci nəzəriyyəyə əsasən, mühitin insana verdiyi 2, 4, 6, 8 və s. təsəvvürüdür. «İki vurulsun iki bərabərdir dörd» və ya «beş vurulsun beş bərabərdir iyirmi beş» hökmünü isə, insanın ruhu təyin edir və bu nəticənin başqa cür olması qeyri-mümkündür.

## 5. CƏMİYYƏTİN MADDİ CƏHƏTİNİN MƏNƏVİ CƏHƏTİNDƏN ÜSTÜNLÜYÜ

Cəmiyyət bölmələrdən, təşkilatlardan və qruplardan yaranır. Mədəni, iqtisadi, idari, siyasi, dini, məhkəmə və s. təşkilatlar. Bu cəhətdən cəmiyyət bir ailənin yaşadığı mənzilə bənzəyir və bu mənzil bir neçə otaqdan ibarətdir. Qonaq otağı, yataq otağı, mətbəx, hamam və s.

İctimi qruplar arasında bütün bina üçün özül rolunu oynayan bir təşkilat vardır. Əgər o silkələnsə, yaxud dağılsa, təbii olaraq bina dağılacaq. Bu da, cəmiyyətin iqtisadi quruluşudur. Cəmiyyətin iqstiadi quruluşu, yəni cəmiyyətin maddi istehsalına aid olan hər bir şey, o cümlədən istehsal vasitələri, istehsal mənbələri, istehsal əlaqələri və münasibətləri.

Cəmiyyətin quruluşunun əsas hissəsi sayılan istehsal vasitələri, əslində dəyişən və təkmilləşəndir. İstehsal

vasitələrinin hər bir təkamül mərhələsinin özünə xas olan istehsal əlaqələri və münasibətləri vardır və onlar əvvəlki mərhələdən fərqlənir. İstehsal əlaqələri, yəni malikiyyət formasına aid olan qayda-qanunlar və ya ictimai əməyin məhsuluna aid olan qarşılıqlı əlaqələr qanunu. İstehsal münasibətlərinin könüllü, ya icbari dəyişilməsi ilə bütün əxlaqi, dini, elmi və s. bəşəri normalar dəyişir. Qısa şəkildə desək, hər bir şeyin əsasını iqtisadiyyat təşkil edir.

Marks və marksizm kitabında Karl Marksın «siyasi iqtisadın araşdırılması» əsərindən belə nəql olunur:

«İnsanlar öz istehsal münasibətlərində onların iradəsindən asılı olmayan zəruri və müəyyən əlaqələrə girirlər. Həmin əlaqələr maddi qüvvələrin inkişaf və təkamülünün müəyyən mərhələsi ilə uyğunlaşır. Bu əlaqələrin toplusu, cəmiyyətin iqtisadi üstqurumunu təşkil edir. Yəni üzərində hüquqi və siyasi – ictimai şüurun müəyyən formaları ilə uyğun olan – platformalar qurulur. Maddi həyatda, istehsal forması ictimai-siyasi həyatın axarını təyin edir. Bəşərin vücudunu təyin edən onun şüuru deyil, şüurunu təyin edən onun ictimai vücududur.»[1] Həmin kitabda başqa yerdə Marksın Anenkova məktubundan nəql edilir: «İnsanların istehsal qüvvələrinin inkişaf vəziyyətini nəzərdə tutun. Onun qarşısında ticarət və istehsalın bir forması olacaq. Ticarət istehsal və istehlakının inkişaf mərhələlərindən istənilənі nəzərdə tutun. İctimai tərkibin, ailə qurumunun, təbəqələrin və

---

[1] Marks və Marksizm, səh-246.

xülasə, mədəni cəmiyyətin uyğun forması göz önündə canlanacaq.»[1]

Piter, Marksın nəzərini belə izah edir:«Beləcə, Marks cəmiyyəti, özülü iqtisadi qüvvələr, üstqurumu isə fikirlər, adətlər, siyasi, dini və s. təşkilatlar olan binaya bənzədir. Binanın vəziyyəti özülün vəziyyəti ilə bağlı olduğu kimi, iqtisadi şərait də texniki vəziyyətlə bağlıdır. Həmçinin, rəylərin necəliyi, adətlər, siyasi quruluş da iqtisadi vəziyyətə tabedir.»[2]

Həmin kitabda Leninin dilindən «Kapital» kitabının 3-cü cildindən nəql olunur: «İstehsal forması, insanın təbiət və yaşayış istehsalının qarşılıqlı fəaliyyətinin və onların ardınca, ictimai şəraitin göstəricisidir. Fikirlər də buradan doğur.»[3]

«Siyasi iqtisadın araşdırılması» kitabının müqəddiməsində deyilir: «Araşdırmalarım məndə belə bir fikir oyatdı ki, ədliyyə əlaqələri və dövlətin müxtəlif formaları öz-özünə yarana bilməzlər və onlar bəşəri fikrin ümumi təkamülündən də yaranmayıblar. Əslində, bu əlaqələr və müxtəlif formalar mövcud maddi şəraitdən doğurlar... Cəmiyyətin ekspertizasını siyasi iqtisadda araşdırmaq lazımdır.»[4]

Marks «Fəlsəfi yoxsulluq» kitabında yazır: «İctimai münasibətlər, tamamilə yaradıcı qüvvələrlə əlaqəlidir. İnsanlar yeni yaradıcı qüvvə əldə etməklə, öz istehsal

---

[1] Marks və Marksizm, səh-247.

[2] Marks və Marksizm, səh-3.

[3] Marks və Marksizm, səh-248.

[4] Marks və Marksizm, səh-32-33.

formalarını dəyişir və bunu dəyişməklə bütün ictimai münasibətləri də dəyişirlər. Əl dəyirmanı feodal və xanlıq cəmiyyətinin, buxar dəyirmanı isə kapitalist və texnoloji cəmiyyətin bariz nümunəsidir.»[1]

Cəmiyyətin maddi təşkilatının digər ictimai təşkilatlar üzərində hakim olması nəzəriyyəsi, əməyin düşüncədən önəmli olması nəzəriyyəsinə uyğundur. Əməyin düşüncədən üstünlüyü nəzəriyyəsi fərdi səviyyədə təqdim olunur və maddi təşkilatın digər ictimai təşkilatlardan üstünlüyü nəzəriyyəsi isə həqiqətdə ictimai səviyyədə əməyin düşüncədən üstünlük nəzəriyyəsidir. Əslində bu, əməyin düşüncədən üstün olması prinsipidir. Ancaq ictimai formada bu nəzəriyyənin tərəfdarları insan sosialogiyasının psixologiyadan üstünlüyü nəzəriyyəsinin tərəfdarıdırlar. Deməli, fərdi əməyin fərdi düşüncədən üstün olması insan psixologiyasının sosialogiyadan üstün olacağı halda, maddi təşkilatın sair qurumlardan üstünlüyü əməyin düşüncədən üstün olması prinsipinin əksinə aparır və təbii olaraq bu, maddi qurumların sair ictimai qurumlardan üstün olması prisipinin nəticəsidir.

Cəmiyyətin maddi qurumu – həm də iqtisadi quruluş və iqtisadi qurum da adlanır – iki hissəyə bölünür: İnsanın təbiətlə əlaqəsinin məhsulu olan istehsal vasitələri, digəri isə istehsal əlaqələri adlandırılan, cəmiyyətin fərdləri arasında sərvətin paylanması zəminində olan iqtisadi rabitədir. Əksər vaxtlarda, istehsal vasitələri və istehsal əlaqələri ilə yanaşı ona «istehsal forması» da deyilir.[2] Yeri

---

[1] Marks və Marksizm, səh-32-33.

[2] P.Nikitinin «İqtisad elminin əsasları» kitabına bax.

gəlmişkən bilmək lazımdır ki, bu termin tarixi materializm filosofларının dilində iradlı səslənir və ətraflı bəyan olunmur.

İqtisad bazisdir və cəmiyyətin maddi quruluşu sair qurumlardan önəmlidir – deyildikdə, məqsəd istehsal sistemidir.

Diqqətə layiq nöqtələrdən biri də budur ki, tarixi materializm alimlərinin fikrindən bazisin özünün də ikiqurumlu olması məlum olur və onun bir təbəqəsi o biri üçün özül rolunu oynayır. Bazisin birinci və əsas təbəqəsi istehsal vasitələridir ki, bunlardan da sərvəti bölüşdürən xüsusi iqtisadi əlaqələr yaranır. İstehsal əlaqələrinin artım dərəcəsini əks etdirən bu əlaqələr, istehsal alətləri ilə uyğun olmaqla yanaşı, onun mühərriki və təşviqatçısıdır. Yəni həmin alətlərdən istifadənin ən yaxşı vasitəsidir və istehsal alətlərinin bir növ boyuna biçilmiş geyimə bənzəyir. Ancaq istehsal alətləri zatən kamilləşəndir. İstehsal alətlərinin təkamül və inkişafı istehsal sisteminin iki bölməsi arasındakı uyğunluğu pozur. İstehsal və iqtisadi əlaqələr, – yəni əvvəlki istehsal alətlərinə uyğun qanunlar – inkişaf etmiş bədəni dar geyim kimi sıxır və inkişaf etməyə qoymur və nəticədə iki hissə arasında təzad yaranır. Sonda, çarəsiz olaraq yeni istehsal əlaqələri – yeni istehsal vasitələrinə uyğun olaraq – yaranır və cəmiyyətin bazisi kökündən dəyişir və bunun nəticəsində də hüquqi, əxlaqi, fəlsəfi, dini və s. üstqurumlar da dəyişir.

İctimai işin üstünlüyünü nəzərə alaraq və Marksın, insan sosialogiyasını psixologiyadan üstün tutan sosioloqlardan olmasına əsasən, marksizim nöqteyi-

nəzərindən işin fəlsəfi vəzifəsi aydınlaşır – bu marksizim fəlsəfəsinin əsasıdır və bu haqda az araşdırmalar aparılıb.

Marks əməyin insani vücudu və insanın işçi vücudu haqqında, Dekartın «insanın əqli vücudu» haqqında, Jan Pol Sarterin «insanın üsyançı vücudu» haqqında düşündüyü kimi düşünür.

Dekart deyir: «Mən düşünürəmsə, demək varam», Berqson deyir: «Mən davam edirəmsə, demək varam», Sarter deyir: «Mən üsyan edirəmsə, demək varam», Marks demək istəyir: «Mən işləyirəmsə, demək varam».

Bu mütəfəkkirlərin heç biri, bu yollardan istifadə etməklə insanın bu işlərdən müstəqil vücudu sayılan «mən»liyini isbat etmək istəmirlər. Bəlkə əksinə, bəziləri bununla insanın müstəqil vücudunun həqiqətinə və insanlığın cövhərinə tərif vermək istəyirlər. Məsələn, Dekart demək istəyir ki, mənim mövcudluğum fikrin mövcudluğuna bərabərdir. Əgər fikir yoxdursa, «mən» də yoxam. Berkson demək istəyir ki, insanın olması davamın və zamanın olmasıdır. Sarter də demək istəyir ki, insanın olması onun üsyan etməsi deməkdir. Əgər insanı üsyansız təsəvvür etsək, o, artıq insan olmayacaq.

Marks da öz növbəsində demək istəyir ki, insanın və ümumiyyətlə bütün varlığın olması, «iş» deməkdir. İş insanın cövhəridir. Mən işləyirəmsə, deməli varam, iş mənim mövcudluğumun dəlilidir, iş mənim həqiqi varlığımdır.

Marks deyir: «Həqiqi mənada sosialist olanlar üçün dünya tarixi, bəşəri əmək vasitəsilə insanın yaranmasından başqa bir şey deyil»;

Digər bir yerdə isə insan birliyi ilə həqiqi vücud arasında fərq qoyaraq yazır: «İnsanların agahlığı onların vücudunu təyin etmir, əksinə onların ictimai vücudu agahlıqlarını təyin edir»; yaxud «Başlanğıc aldığımız ilk şeylər, öz-özünə baş qaldırmış əsaslar deyil, həqiqi fərdlər, onların əməlləri və onların maddi varlıqlarının şəraitidir»; deyərək həqiqi fərdləri belə izah edir: «Ancaq bu fərdlər öz təsəvvürlərində yaranan əsasda deyil,... maddi formada istehsal etdikləri və yaratdıqları kimi, yəni öz iradələrindən müstəqil olaraq müəyyən maddi hüdudlar çərçivəsində və müəyyən şəraitdə hərəkət edirlər»;

Engels isə deyir: «İqtisadçıların nəzərinə görə, əmək bütün sərvətlərin mənbəyidir. Ancaq məsələ bununla bitmir, əmək bundan sonsuz dərəcədə çoxdur. Əmək, bütün bəşər yaşayışının ən birinci və əsas şərtlərindəndir. Hətta demək olar ki, insanı əmək yaradıb.»[1] Bu da həmin prinsipi təsdiq edir.

Əlbəttə Marks və Engels, insanın yaşayışında əməyin rolu haqqındakı bu nəzəriyyəni Heygeldən götürmüşlər. İlk olaraq Heygel deyib ki: «İnsanın həqiqi varlığı, ilk növbədə onun əməlidir.»[2]

Marksist fikrinə əsasən, insanın insani varlığı, əvvəla fərdi deyil, ictimaidir. İkincisi, ictimai insanın varlığı, ictimai iş – yəni, reallığa çevrilmiş işdir – və fərdi hisslər kimi fərdi işlər və yaxud dini, əxlaq və s. kimi ictimai işlər, insanın həqiqi varlığına oxşar deyil, insanın həqiqi varlığının özüdür. Buna görə də, insanın həqiqi, hissi və ya

---

[1] Engels, «Meymunun insan olmağında əməyin rolu» kitabı.

[2] Marks və Marksizm, səh-39.

ictimai təkamülü, təkamülün oxşarı deyil, həqiqi təkamülün özüdür. Cəmiyyətin maddi təkamülü onun mənəvi təkamülünün meyarıdır. Yəni, onu fikri və məntiqi meyarlarla deyil, əməklə ölçmək lazımdır. Mənəvi təkamülün meyarı da, maddi təkamüldür. Deməli, əgər soruşulsa ki, hansı əxlaqi, fəlsəfi, dini və ya incəsənət məktəbi daha mütərəqqidir, onda fikri və məntiqi meyarlar bu suala cavab verə bilməz. Yeganə meyar budur ki, həmin məktəbin hansı şəraitdə, ictimai əmək təkamülünün hansı mərhələdə yaranması araşdırılsın.

Bu cür düşüncə tərzi, insanın həqiqi varlığını onun «mən»liyi və bu «mən»liyi də qeyri-maddi cövhər sayan bizlər üçün qəribə səslənir. Ancaq maddi düşünən və qeyri-maddi cövhərə inanmayan Marks kimi şəxslər isə, gərək insanın cövhərini və mənasını bioloji cəhətdən açıqlasın və desin ki, insanın cövhəri elə onun maddi quruluşudur. Ancaq Marks bu nəzəriyyəni rədd edir və iddia edir ki, insanlıq təbiətdə deyil, ictimaiyyatda məna kəsb edir. Təbiətdə yaranan yalnız zahiri insandır. Bundan başqa, Marks ya gərək düşüncəni insanın cövhəri və əməyi də düşüncənin əksi saysın, yaxud əksinə, əməyi insanın cövhəri və düşüncəni əməyin əksi və nəticəsi hesab etsin. Təkcə fərddə deyil, hətta cəmiyyət və tarixdə də maddi düşünən Marks, maddənin rolunu mühümləşdirir və ikinci fikrə üstünlük verir.

Elə buradan da Marksın nəzəriyyəsinin, sair materialistlərlə tarix barəsində olan fərqi aydınlaşır. Hər bir materialist mütəfəkkiri, insanın vücudunu maddi hesab etdiyi üçün, istər-istəməz tarixin varlığını da maddi sayır. Ancaq, Marksın dedikləri bundan da artıqdır. Marks

deməк istəyir ki, tarixin varlığı iqtisadidir və iqtisad da, istehsal əlaqələrinin, yəni insan malikiyyəti və əməyin məhsulu arasındakı əlaqənin zəruri olduğunu nəzərə alaraq, əmək alətlərinin inkişafı və onun təcəssümü deməkdir.

Deməli, təkcə «tarixin varlığı maddidir» və hətta «tarixin varlığı iqtisadidir» deməyimiz, Marksın nəzəriyyəsini tam əhatə etmir. Diqqət yetirməliyik ki, Marksın fikrincə, tarixin varlığı və ruhu, «vasitəli»dir. Elə buna görə də biz, bəzi yazılarımızda[1] 0000000000000000000000Marksın tarixi materializmini, öz «insani nəzəriyyə»mizə qarşı olaraq, «vasitə nəzəriyyəsi» adlandırırıq.

Marks «əmək fəlsəfəsi»nə o qədər qərq olub ki, sanki küçədə gəzən, fikirləşən varlıqları deyil, zavodlarda işləyən maşın və dəzgahları həqiqi insan hesab edir. Danışan, yol gedən və fikirləşən insanlar, insanın özü deyil, onun bənzərləridir. Marksın ictimai əmək və istehsal vasitələri haqqındakı anlayışı öz-özünə və kor-koranə, insan iradəsindən xaric, müstəqil, inkişaf edən, təkmilləşən, insanların düşüncə və iradəsini öz təsiri altına alan və onları öz arxasınca aparan canlı varlıq haqqında anlayışa oxşayır.

Bir tərəfdən demək olar ki, Marks ictimai əmək və onun insan iradəsi, şüuru üzərində hakimliyi haqqında, bəzi ilahiyyət alimlərinin insan bədəninin bir sıra qeyri-iradi hərəkətləri – həzm sistemi, ürək və s. insan iradəsinin gizli təsiri ilə işləməsi – haqqında dediklərini təkrarlayır. Bu

[1] Tarixi fəlsəfə baxımından Məhdinin inqilabı kitabı.

alimlərin fikrincə, istəklər və ümumiyyətlə, bədənə aid olan bütün işlər bir sıra təbii ehtiyacların inikasıdır və agah şüur bu işlərin mahiyyətinə varmadan onları həyata keçirir. Bu, Freydin «batini şüur» haqqında dediklərinə bənzəyir. Yalnız bir fərqlə ki, Freydin dediyi insanın vücudu daxilində baş verir, Marksın dediyi isə, insan vücudundan xaricdir. Əgər dəqiq diqqət yetirsək, Marksın nəzəriyyəsi fəlsəfi cəhətdən çox təəccüblüdür.

Marks özünün bu kəşfini Darvinin məşhur bioloji kəşfi olan təkamül nəzəriyyəsi ilə müqayisə edir. Darvinin fikrincə, heyvanın şüur və iradəsindən xaricdə olan cərəyanlar tədriclə heyvan əzalarının yaranmasına səbəb olur. Marks da iddia edir ki, kortəbii bir cərəyan tədriclə insanın ictimai bədəninin – yəni Marksın üstqurum adlandırdığı şeyin yaranmasına səbəb olur. O, deyir: «Darvin alimlərin fikrini, təbiətşünaslığın tarixinə, yəni bitki və heyvanların yaşayış üçün vəsait toplamağa görə bədən üzvlərinin formalaşmasına yönəltdi. İctimai insanı yaradan əzaların tapılma tarixi, yəni bütün ictimai qurumun maddi əsasları buna layiq deyilmi?... Təbiətşünaslıq insanın təbiət qarşısında hərəkətini işıqlandırır. İstehsal prosesi, onun maddi həyatı və nəticədə, düşüncələr və ictimai əlaqələrin mənşəyini aşkar edir.»

İndiyə qədər söylədiklərimizdən aydın oldu ki, tarixi materializm nəzəriyyəsi, bir neçə başqa nəzəriyyə üzərində qurulub. Onlardan bəziləri psixoloji, bəziləri sosioloji, bəziləri isə humanizm fəlsəfəsinə aiddir.

# NƏTİCƏLƏR

Tarixi materializm nəzəriyyəsi öz növbəsində ictimai strategiyada mühüm təsirə malik olan bir sıra nəticələr verir. Tarixi materializm, ictimai seçim və rəftarda təsir etməyən bir nəzəri və fikri məsələ deyildir. İndi isə söylədiklərimizdən çıxara biləcəyimiz nəticələrə nəzər salaq.

Birinci nəticə cəmiyyət və tarixi tanımağa qayıdır. Tarixi materializmə əsasən, ictimai və tarixi hadisələrin təhlili üçün ən yaxşı yol budur ki, onların iqtisadi əsaslarını araşdıraq. Tarixi hadisələrin iqtisadi əsaslarını araşdırmadan, onlar haqqında dəqiq fikir söyləmək mümkün deyil. Çünki orada bütün ictimai proseslərin iqtisadi mahiyyətə malik olması fərz olunur. Hərçənd zahirdə görünür ki, onlar, müstəqil, mədəni, dini ya əxlaqi mahiyyətə malikdirlər. Yəni bütün bu proseslər, cəmiyyətin maddi və iqtisadi vəziyyətinin inikasıdır. Bütün bunlar nəticə, o isə səbəbdir. Keçmiş mütəfəkkirlər də iddia edirdilər ki, əşyaların yaranma səbəbini araşdırmaqla tanınması ən yaxşı və ən şərəfli tanıma yoludur. Deməli, bütün ictimai proseslərin cəmiyyətin maddi quruluşundan doğmasını fərz etməklə, tarixi tanımağın ən yaxşı yolu ictimai-iqtisadi təhlildir. Başqa sözlə, səbəb nəticədən üstün olduğu kimi, isbat və tanıma mərhələsində də üstündür. Deməli iqtisadi əsasların üstünlüyü təkcə vücudu və zahiri deyil, həm də isbat olunan üstünlükdür. Marksdan Maoya qədər islahatlar kitabı bu bəhsi izah edərkən deyir: «İctimai inqilabların təhlilində, gərək ictimai keşməkeşlər barəsində onların

siyasi, ictimai, hüquqi və ideoloji formaları əsasında fikir yürütməyəsən. Əksinə, onları yaradıcı qüvvələr və istehsal əlaqələri arasındakı ixtilaf vasitəsilə araşdırmaq lazımdır. Marks bizi, ciddi şəkildə bu cür fikir yürütməkdən çəkindirir. Çünki birincisi həqiqətə uyğun deyil və nəticə olan siyasi, hüquqi və ideoloji formanı, iqtisadi dəyişikliklərin yerinə qoyur. İkincisi səthidir, çünki cəmiyyətin dərinliklərinə baş vurmaq və əsil səbəbləri axtarmaq yerinə, zahirlə kifayətlənir. Üçüncüsü isə, fərzidir. Çünki, həqiqi təhlili mövzu yerinə onun yanlış təsviri araşdırılır və bu da bizi səhvə aparır.»

Sonra o, Marks və Engelsin seçilmiş əsərləri kitabından bu cür nəql edir:«Bir fərd halında, özünə aid fikirləşdiklərinə əsasən fikir yürütmədikləri kimi, belə bir qarışıq zaman barəsində də, özü haqqında anlayışı olduğu üçün fikir yürütmək olmaz.»

Marks çalışır ki, fikrin, agahlığın və adətən təkamülün əsas səbəbi sayılan «yeniliklərin» rolunu puç etsin. Məsələn, Marksın bir çox yerlərdə ilham aldığı şəxslərdən olan Sen Seymon, «yenilik» qüvvəsinin təkamülündə rolu barəsində deyir: «Cəmiyyətlər bərabər şiddətə malik olan iki əxlaqi qüvvəyə tabedirlər. Bu qüvvələr, ardıcıl və növbə ilə təsir edirlər. Biri adət qüvvəsi, digəri isə yeniliyə meylli olmaqdır. Bir neçə vaxtdan sonra adətlər köhnəlir... və elə həmin anda yeni şeylərə ehtiyac duyulur və bu ehtiyac, yeni inqilabi şərait yaradır.»

Yaxud Marksın digər müəllimi Prudon, əqidə və fikirlərin cəmiyyət təkamülü rolu barəsində deyir: «Millətlərin siyasi forması, onların əqidələrinin nişanəsi olmuşdur. Bu formaların hərəkəti, dəyişməsi və məhv

olması, bu əqidələrin nə qədər qiymətli olduğunu bizim üçün açıqlayan əzəmətli təcrübələrdir və tədriclə... dəyişməz və əbədi, mütləq həqiqət onlardan üzə çıxır. Lakin görürük ki, bütün siyasi quruplar, özlərini ölümdən qurtarmaq üçün ictimai şəraiti bərabərləşdirməyə doğru meyl edir.»

Bütün bunlara baxmayaraq, Marks iddia edir ki, hər bir ictimai inqilab, hər şeydən əvvəl mədəni cəmiyyətin, yaradıcı qüvvələrin və ictimai əlaqələrin forma və mahiyyətinin qütbləşməsindən yaranır.

Marks demək istəyir ki, ictimai prosesləri yaradan əqidə, iman ya yenilik hissi deyil, əksinə əqidə, iman, yaxud yenilik meyli yaradan, ictimai-iqtisadi zərurətdir.

Deməli, tarixi materializmdən aldığımız bu nəticə ilə, İran Yunan müharibələrini, Səlib müharibələrini, Renesans dövrünü və bu kimi digər hadisələri təhlil etsək, onların zahirini araşdırmaq səhv olardı. Yaxud, hətta həmin müharibə iştirakçılarının iddiasına arxalansaq da, gərək həmin hadisənin həqiqi mahiyyətinə fikir verək və beləliklə, hadisənin əsas açarını tapaq.

Bu gün də şahidik ki, müasir marksistlər hər hansı bir tarixi prosesi araşdırmaq istədikdə, heç bir məlumatları olmadan belə, bir neçə cümlə də olsa, həmin prosesin baş verdiyi anda mövcud olmuş iqtisadi vəziyyətdən danışırlar.

2. Tarix üzərində hakim olan qanun icbari, dəyişməz və insanların iradəsindən xaricdir. Bu barədə ötən fəsillərdə, «Tarix üzərində bir sıra «səbəb-nəticə» qanunları hakimdir, ya yox?» haqqında söhbət etmişdik və izah etmişdik ki, bəziləri təsadüf adı ilə, bəziləri də insanın

azad varlıq olmasını söyləməklə, səbəb qanununun tarix üzərində hakimliyini və nəticədə, tarixdə və cəmiyyətdə dəyişməz qanunların mövcudluğunu inkar edirlər. Ancaq, biz sübut etdik ki, bu nəzəriyyə əsassızdır. Səbəb qanunu, başqa iş və hadisələr üzərində hakim olduğu kimi, cəmiyyət və tarix üzərində də hakimdir. Digər cəhətdən də sübut etdik ki, cəmiyyət və tarix, xüsusi təbiət, vəhdət və hüquqi vücuda malik olduqlarına görə, onlar üzərində hakim olan qanun, zəruri və ümumi qanundur. Deməli, söylədiklərimizə uyğun olaraq, cəmiyyət və tarix üzərində bir sıra «zəruri» və «ümumi» qanunlar hakimdir. Biz, bu növ zərurəti fəlsəfi zərurət adlandırırıq və həmin hökmə əsasən, tarixi proseslər bir sıra qanunlar çərçivəsində baş verir.

Amma «iqtisadi icbar» və ya «tarixi icbar» adlanan marksist fəlsəfi zərurətin xüsusi formasıdır. Bu nəzəriyyə, iki digər nəzəriyyənin qarışığından ibarətdir. Onlardan biri, heç bir hadisənin zərurət olmadan baş vermədiyini bəyan edən fəlsəfi zərurətdir. Hər bir hadisə, müəyyən səbəblər üzündən baş verir. Səbəb olmayan yerdə nəticənin olması qeyri-mümkündür. Digəri isə, bir qədər əvvəl bəyan etdiyimiz cəmiyyətin maddi qurumunun sair qurumlardan üstün və öncül olması nəzəriyyəsidir. Bu iki nəzəriyyənin əsas şərti tarixin maddi icbarıdır. Yəni, üstqurumun bazisdən asılı və tabe olması zəruri və mütləqdir. Bazisin dəyişməsi ilə, üstqurumun da dəyişməsi qaçılmaz olur. Bazis dəyişmədən, üstqurumun dəyişməsi mümkün deyildir.

Marksizmin iddiasına əsasən, «marksist sosializmini» elmiləşdirən və onu təbii qanun şəklinə salan amil, məhz

bu prinsipdir. Çünki bu prinsipə uyğun olaraq, cəmiyyətin iqtisadi quruluşunun əsas hissəsi olan istehsal alətləri, bir sıra təbii qanunlara əsasən öz təkamülünə davam edir. Heyvan və bitkilərin müxtəlif növlərinin bir neçə milyon illik tarix ərzində öz inkişaflarına davam etdikləri və müəyyən mərhələlərdə yeni növə keçdikləri və bu təkamülün və növ dəyişməsinin kimsənin meyl və arzusu əsasında olmadığı kimi, istehsal vasitələri də inkişaf edir.

İstehsal vasitələri tədrici inkişaf prosesində müxtəlif mərhələlərdən keçirlər. Yeni mərhələyə çatdıqda, cəmiyyətin sair qurumlarını da dəyişdirir. Bu qarşısıalınmaz bir hərəkətdir və yeni mərhələyə çatmazdan qabaq, ictimai üstqurum proseslərinin baş verməsi mümkün deyil. Sosialistlər və ümumilikdə ədalət axtarışında olanlar, istehsal vasitələrinin inkişafından yaranacaq imkanları nəzərə almadan, ədalət, sosializm və cəmiyyətin ictimai olması arzusunun hökmü ilə, faydalı bir iş görmürlər. Karl Marks «Kapital» kitabının müqəddiməsində deyir: «Sənaye cəhətdən başqalarından daha çox inkişaf etmiş ölkə, özündən sonra gələn ölkələrin gələcək formasının nümunəsidir... Hətta əgər hər hansı bir cəmiyyət öz hərəkəti üzərində hakim olan təbiət qanunlarını kəşf etmək mərhələsinə gəlib çıxarsa, nə o mərhələnin üstündən adlayıb keçə bilər, nə də onu məhv edə bilər. Ancaq o mərhələnin ömrünü qısa və öz əziyyətlərini isə yüngülləşdirə bilər.»

Marks sözünün sonunda, indiyə qədər ya işarə olunmamış, ya da az işarə olunmuş bir nöqtəyə toxunur və bununla da, bir suala və ya tam əhəmiyyətli bir irada cavab vermək istəyir. Ola bilər desinlər ki, təbiətin tədrici və

nəzmli inkişafı, insanın onu tanıyacağı və təbii qanunu kəşf edəcəyi ana qədər, icbari və dəyişməzdir. İnsan onu tanıdıqdan sonra, öz qüdrəti altına keçirir və ona hakim kəsilir. Elə buna görə də deyirlər ki, təbiət naməlum qaldığı ana qədər insanın hakimidir. Tanındıqdan sonra insana xidmət etməyə başlayır. Məsələn, naməlum bir xəstəlik, səbəb və dərmanı tanınmayana qədər insan həyatına hakim kəsilir. Elə ki, tanındı – bu günkü kimi – qarşısı alınır və verdiyi ziyanlara son qoyulur. Sel, tufan və digər təbii fəlakətlər də bu cürdür.

Marks öz sözü ilə demək istəyir ki, cəmiyyətin bir mərhələdən digər mərhələyə nəzmli hərəkəti, dinamik dəyişiklik və hərəkətlər növündəndir. Yəni, əşyanın daxili, bitki və heyvanların nizamlı artımı kimi, öz-özünə olan hərəkətlərdəndir. Əşyalarda xarici amillərin təsiri ilə baş verən mexaniki dəyişikliklərdən deyil. Təbiət ram olunmasına və insanın qulluğunda durmasına səbəb olan yerlərdə, təbii qanunlarının kəşfi, qanun və əlaqələr də mexanikidir. Ancaq dinamik dəyişikliklər, zati və daxili hərəkətlər barəsində insan elminin və agahlığının rolu, insanın özünü bu qanunlara uyğunlaşdırması və bu yolla mənfəət əldə etməsidir. İnsan bitkilərin inkişafı, heyvanların təkamülü, həmçinin rüşeymin bətndə inkişafı qanunlarını kəşf etməklə, bir sıra dəyişməz və icbari qanunlar tapır.

Marks demək istəyir ki, insanın ictimai inkişafı, istehsal alətlərinin təkamülündən və inkişafından asılıdır. Elmin əvəz edə bilməyəcəyi və formasını dəyişdirə bilməyəcəyi dinamik, zati, daxili və öz-özünə olan inkişafdır. İnsan icbari olaraq, gərək müəyyən, vahid xətt olan ictimai

təkamülün mərhələlərinə – rüşeymin ana bətnində inkişaf etdiyi kimi – boyun əysin və onun dəyişməsi fikrini – məsələn, cəmiyyət bəzi orta mərhələləri keçmədən son mərhələyə çatsın, yaxud tarixin göstərdiyi yoldan qeyri bir yolla getsin – ağlına belə gətirməsin.

Marksizm, ictimai təkamül prosesini öz-özünə təbii və icbari saydığı üçün, Sokratın bəşər zehni və fitri doğuş qabiliyyətinə aid etdiyi mətləbə oxşar mətləbi bəyan etmişdir. Sokrat öz təlimatlarında sual vermə yolundan istifadə edirdi. O, bu fikirdə idi ki, əgər suallar mərhələ-mərhələ, ardıcıllıqla və zehni fəaliyyətlə dəqiq tanışlıq halında verilsə, beyin öz fitri hərəkəti ilə o suallara cavab verəcəkdir və xaricdən heç bir təlimə möhtac deyil. Sokratın anası bir qadın həkimi (mama) idi və deyirdi ki, mən zehnlərdə anamın dünya gələcək təzə körpələrlə gördüyü işi görürüm. Həmin həkim dünyaya uşaq gətizdirmir, ananın təbiəti və təbii qanunlardır ki, ananı uşağı dünyaya gətirməsinə məcbur edir Eyni halda burada həmin qadın həkimin olmasına da ehtiyac vardır. O həkim qeyri-təbii hadisə baş verməməsi, ananın və ya körpənin narahatlığına səbəb olacaq halların qarşısını almaq üçün orada hazır olur.

Marksizmin nəzərinə görə, sosiologiya və tarix fəlsəfəsi qanunları kəşfinin cəmiyyətin dəyişilməsində heç bir rolu olmamasına baxmayaraq, bu elmlərə hörmətlə yanaşılmalıdır. Elmi sosializm bu qanunların kəşfindən başqa bir şey deyil. Ən kiçik nəticəsi, utopik sosiolizmi və arzuolunan ədalətçiliyi inkar etməkdir. Çünki dinamik qanunlar, dəyişiklikdən uzaq olmalarına baxmayaraq, bir üstünlüyə də malikdirlər. O da, ictimai hadisələrin və

proseslərin qabaqcadan təhlil olunmasıdır. Elmi sosiologiya və elmi sosializmin işığında hər bir cəmiyyətin vəziyyətini, hansı mərhələdə olmasını və gələcəkdə necə olacağını araşdırmaq olar. Nəticədə anlamaq olar ki, sosializm rüşeymi istənilən cəmiyyətin bətnində hansı mərhələdədir. Həmin elmlərdən bundan başqa bir şey ummaq lazım deyil. Marksizm çalışır ki, cəmiyyətlərin dinamiki təbii mərhələlərini tanısın, göstərsin və cəmiyyətlərin bir dövrədən digər dövrə keçid qanunlarını kəşf etsin.

Marksizmin əqidəsinə görə, cəmiyyətlər dörd ümumi mərhələni keçməklə sosializmə çatır və ya çatacaqlar. İbtidai icma quruluşu, quldarlıq quruluşu, feodalizm quruluşu və kapitalizm quruluşu. Ola bilər ki, bu dörd dövrün yerinə beş, altı, hətta yeddi dövr də olsun. Yəni ümumi mərhələlərdən hər biri öz növbəsində bir neçə kiçik dövrlərə bölünsün.

3. Hər bir tarixi dövr sair dövrlərlə, mahiyyət və növünə görə fərqlənir. Bioloji cəhətdən heyvanlar bir növdən sair növə keçdiyi və mahiyyətini dəyişdirdiyi kimi, tarix də dəyişir. Bu səbəbdən də, hər bir tarixi dövrün özünəməxsus qanunları vardır. Heç bir vəchlə özündən əvvəlki, yaxud özündən sonrakı dövrün qanunlarını həmin dövrlə uzlaşdırmaq olmaz. Misal olaraq, suyu göstərmək olar. Su maye halında olduqda, mayelərə xas olan qanunlara tabe olur. Ancaq buxara çevrilən kimi, daha o qanunlara deyil, qaz qanunlarına tabe olur. Cəmiyyət də məsələn, nə qədər ki, feodalizm quruluşundadır, o dövrün qanunlarına tabe olur. Elə ki, kapitalizm dövrünə keçdi, feodalizm qanunlarının saxlanılmasına çalışmaq əbəsdir.

Elə buna görə də, cəmiyyət əbədi və dəyişməz qanunlara malik ola bilməz. Tarixi materializm və iqtisadın bazis olmasına əsasən, qanunlar əbədilik iddiası edə bilməz. Tarixi materializmin dinlə – xüsusilə də bir sıra əbədi qanunlara etiqadı olan islam – olan uyğunsuzluqlarından biri də budur.

«Marksdan Maoya qədər islahatlar» kitabında, «Kapital» kitabının ikinci çapından belə nəql edir:

«Hər bir tarixi dövr, müəyyən qanunlara malikdir... Həyat bir mərhələdən o birinə keçdiyi andan digər qanunlarla idarə olunmağa başlayır. İqtisadi həyat özünün tarixi görünüşündə, biz biologiyanın digər bölümlərində qarşılaşdığımız hadisəni vücuda gətirir... İctimai orqanizmlər, heyvan və bitki orqanizmlərinin bir-birindən fərqləndiyi qədər, fərqlidir.»[1]

4. İstehsal alətlərinin inkişafı, tarix səhnəsində xüsusi mülkiyyətin yaranmasına səbəb oldu və beləliklə də cəmiyyət iki təbəqəyə bölündü: İstismar edən və istismar olunan. Bu iki təbəqə, tarixin əvvəlindən cəmiyyətin iki əsas qütbünü təşkil edib və edir. Onların arasında həmişə təzad və mübarizə mövcuddur. Əlbəttə cəmiyyətin iki qütblü olması, bütün qurupların ya istismarçı, ya da istismar olunan olması mənasında deyil. Ola bilər ki, üçüncü qütb də olsun. Məqsəd, iki əsas qütbü təşkil edən qrupların cəmiyyətin taleyində təsiredici olmasıdır. Başqa qruplar, bu iki əsas qrupdan birinin ardınca gedirlər.

---

[1] Marksdan Maoya qədər islahatlar, səh-225.

«Marksdan Maoya qədər islahatlar» kitabında yazılır: «Marks və Engelsin fikirlərində, cəmiyyətin təbəqələrə bölünməsinin və onların mübarizəsinin iki müxtəlif modelinə rast gəlirik (iki qütblü və çox qütblü). Hər iki modeldə təbəqənin tərifi müxtəlifdir. Birinci modeldə, təbəqə məcazi, ikincidə isə həqiqidir. Bunların yaranma qaydaları da müxtəlifdir. Engels, «Alman kəndlərinin müharibəsi» kitabının müqəddiməsində bu iki modeli uyğunlaşdırmağa çalışaraq ortaq bir təbəqə yaratmaq istəyir. O, cəmiyyətdə müxtəlif təbəqələr və hər təbəqənin daxilində də müxtəlif dəstələr nəzərdə tutur. Lakin onun əqidəsinə görə, yalnız iki təbəqə tarixi vəzifəni yerinə yetirə bilər. Burjuaziya və proletariat. Çünki onlar, iki həqiqətdən də təzadlı qütbləri yaradır.»[1]

Marksist fəlsəfəsinə əsasən, cəmiyyətin üstqurum cəhətdən bazisi ötməsi mümkün olmadığı kimi, cəmiyyət bazisi cəhətdən istismarçı və istismar olunan iki qütbə bölündüyü halda, üstqurum cəhətdən tək qütblü olması da qeyri-mümkündür. İctimai vicdan da öz növbəsində iki yerə bölünür: İstismarçı və istismar olunan vicdan. İki dünyagörüşü, iki ideologiya, iki əxlaq sistemi yaranır. Hər təbəqənin ictimai və iqtisadi mövqeyi bir növ fikir, düşüncə, zövq və s. ilham verir. Heç bir təbəqə vicdan, zövq və düşüncə tərzi cəhətdən, iqtisadi mövqeyini aşa bilməz. İki qütblü olmayan və yalnız istismarçı təbəqəyə məxsus olan şey, yalnız din və dövlətdir. Din və dövlət, istismar olunan təbəqəni əsarətdə saxlmaq üçün istismarçı təbəqənin ixtirasıdır. İstismarçı təbəqə bütün maddi

---

[1] Marksdan Maoya qədər islahatlar, səh-345.

şeylərə hakim olduğu üçün, öz mədəniyyətini və öz dini zorla istismar olunan təbəqəyə qəbul etdirir. Bu səbəbdən də, hakim mədəniyyət – yəni hakim dünyagörüşü, hakim ideologiya, əxlaq, zövq və hisslər – və hakim din, istismarçı təbəqənin mədəniyyəti və dini olur. İstismar olunan təbəqənin mədəniyyəti də, özü kimi məhvə və əzaba məhkumdur və inkişafın qarşısını alır. Marks «Alman ideologiyası» kitabında deyir: «Hakim təbəqənin fikirləri, hər dövrdə həmin dövrün hakim fikirləridir. Yəni cəmiyyətdə hakim olan maddi qüvvə təbəqəsi, həm də cəmiyyətin hakim mənəvi qüvvəsidir... Hakim fikirlər, hakim maddi əlaqələrin bəyanından başqa bir şey deyil. Həmin əlaqələr bu təbəqəni hakim elan edib. Hakim təbəqəni təşkil edən şəxslər, başqa şeylərdən əlavə agahlığa da malikdirlər və fikirləşə bilirlər. Təbəqələr əsasən hakimiyyətdə olduqları üçün və tarixi dövrü təyin etdiklərinə görə, aydındır ki, bu dəyişikliyi bütün səviyyələrdə həyata keçirirlər. Yəni başqa şeylərdən əlavə, mütəfəkkirlər hökumət etdikləri və fikir yayınını tənzimlədikləri üçün, onların fikirləri dövrün hakim fikri olur.»[1]

İstismarçı və hakim qütb mühafizəkar, fundamentalist və keçmişə pərəstişkardır. Onun yeritdiyi mədəniyyət də bu xüsusiyyətlərə malikdir. Ancaq istismar olunan qütb inqilabçı, gələcəyi sevən, hər şeyi dəyişməyə çalışandır, onun mədəniyyəti də özü kimi həmin xüsusiyyətlərə malikdir. İstismar olunmaq inqilabçı olmağın vacib

---

[1] Alman ideologiyası, səh-61.

şərtidir. Yəni təkcə istismar olunan təbəqənin inqilabçı olmaq istedadı var.

Həmin kitabda deyilir: «Bu müqəddimənin (Alman kəndlilərinin müharibəsi kitabının müqəddiməsi) çapından bir il sonra, Alman sosialistlərinin qurultayı «Tuada» öz proqramında yazdı ki, bütün təbəqələr, işçi təbəqəsi qarşısında irticaçı kütlə yaradırlar. Marks, şiddətlə bu cümləni tənqid etdi. Ancaq, əgər doğrusunu desək, etiraf etmək lazımdır ki, bu biçarə sosialistlər, Marksın «Manifest»də yazdıqlarından sonra, onun iki qütblü və çox qütblü modelini ayıra bilmirdilər. Marks «Manifest»də, təbəqələrin indiki mübarizəsinin «proletariat»la «burjuaziya» arasındakı mübarizə adlandıraraq yazmışdı ki, burjuaziyaya müxalif bütün təbəqələrin içində, yalnız proletariat təbəqəsi inqilabçıdır.»

Marks, özünün bəzi çıxışlarında deyib ki, təkcə proletariat təbəqəsi inqilabçı olmağın bütün şəraitinə və xüsusiyyətinə malikdir. Həmin xüsusiyyətlər bunlardır:

1. **İstismar olunmaq;** Bunun üçün həm də, istehsal edən olmaq lazımdır.

2. **Mülkiyyətsiz olmaq;**

3. **Təşkilatlanmaq;** Bunun üçün birləşmək və toplanmaq lazımdır.

Marks ikinci xüsusiyyət haqqında deyir: «Fəhlə iki mənada azaddır: Öz iş qüvvəsini satmaqda və hər növ mülkiyyətçilikdən.»

Üçüncü xüsusiyyət haqqında isə «Manifest»də deyib: «Sənayenin inkişafı, təkcə proletariatın sayını artırmır. Ondan başqa, onları həm də təmərküzləşdirir və bir yerə

toplayır. Proletarların qüvvəsi artır və onlar öz qüdrətlərindən agah olurlar.»

Bu prinsipi ideoloji və ictimai baza arasında uyğunluq prinsipi adlandırmaq olar. Bu prinsipə əsasən, hər bir təbəqə müəyyən fikir, əxlaq, incəsənət, ədəbiyyat və s. yaradır. Həmçinin bu prinsipi, hər fikri və düşüncənin mənbəyi ilə həmin fikir və düşüncənin yönümü arasında uyğunluq prinsipi də adlandırmaq olar. Yəni, istənilən təbəqədən qalxan hər hansı bir fikir, əxlaq sistemi, ya dini sistem həmin təbəqənin mənafeyini təmin edir. Bir təbəqədən çıxaraq digər təbəqənin xeyrinə olan fikir sisteminin olması qeyri-mümkündür. Yaxud ola bilməz ki, bir təbəqədən çıxan fikir sistemi həmin təbəqənin mənafeyini təmin etmədən insanlığın xeyrinə olsun. Düşüncə və fikir o zaman fövqəl təbəqə, insani və humanist xüsusiyyətə malik olur ki, istehsal alətlərinin təkamülü bütün təbəqələri məhvə doğru aparsın. Yəni təbəqə bazalarının təzadını inkar etməklə, ideoloji bazaların təzadı da aradan götürülür.

Marks cavanlıq dövrünün bəzi əsərlərində – burada təbəqələrin iqtisadi xüsusiyyətinə deyil, daha çox siyasi xüsusiyyətinə toxunmuşdur – təbəqələrarası mübarizəni azadlıq və əsarətdən qurtulma mübarizəsi adlandırmışdır. Bu mübarizəni iki mərhələyə ayırır: Kiçik və siyasi mərhələ, ümumi və insani mərhələ. O, «tarixin əsir düşmüşlərinin» inqilabının son mərhələsi olan proletariat inqilabının əsaslı inqilab olduğunu söyləmişdir. Yəni inqilab, insanın tam azadlığı və bütün hökmranların və nökərçiliyin aradan qaldırılması üçündür. Marks bu məsələnin – bu, tarixi materializmə də uyğun gəlir –

izahını belə bəyan etmişdir ki, bu təbəqənin köləliyi əsaslı olduğu üçün, inqilabı da əsaslıdır. Bu təbəqə hər hansı bir xüsusi ədalətsizliyə deyil, ümumi ədalətsizliyə düçar etdirilib. Elə buna görə də, hər hansı xüsusi bir məsələdə deyil, bütün məsələlərdə ədalət istəyir və insan azadlığının arzusundadır.

Bu ifadə tərzi əvvəla, elmi deyil, poetik bir bəyandır. «Ümumi ədalətsizliyə düçar etdirilib» sözləri nə deməkdir? Məgər istismarçı təbəqə hər hansı yollasa öz təbəqəsindən irəli gedərək, zülmü zülm olduğu üçün deyil, öz mənafeyi üçün, ədalətsizliyi ədalətsizlik olduğu üçün deyil, istismar olunanlar üçün rəva görmüşdürmü ki, nəticəsi proletariatın məhz ədalət istəməsi olsun? Hətta «istismarçı təbəqə, belə bir vəziyyətə kapitalizmdə çatır» fərziyyəsi də tarixi materializmə ziddir və o, daha çox idealist nəzəriyyəsi ilə uyğun gəlir.

«İdeoloji və sinfi təbəqələr arasında uyğunluq prinsipi, həmin fikrin mənbəyi ilə cəhəti arasında uyğunluq tələb etdiyi kimi, insanın hər hansı cərəyana meyli olması ilə, olduğu təbəqə arasında uyğunluq olmasını da tələb edir. Yəni insanın təbii meyli, öz təbəqəsindən çıxmış və həmin təbəqənin mənafeyini gözləyən məktəbə və ideologiyaya doğru olur.

Marksist məntiqinə əsasən, bu prinsip ictimai anlayışlarda çox səmərəli və yol göstərəndir.

5. Beşinci nəticə, üstqurumu işlədən ideologiyanın, məsləhətin, dəvətin, təbliğatın və s. cəmiyyəti və ya ictimai təbəqələri meyilləndirməkdə olan məhdud roludur. Adətən belə təsəvvür olunur ki, məktəb (ideoloji), dəvət, dəlil, sübut, təlim-tərbiyə, təbliğ, məsləhət və s. bəşər

vicdanını istənilən şəkildə formalaşdırmağa və ya dəyişməyə qadirdir. Hər bir şəxs, qrup və təbəqənin vicdanı, ictimai və sinfi vəziyyətdən doğduğuna görə, həqiqətdə onun sinfi mövqeyinin inikası olub ondan irəli ya arxaya keçə bilməz. Qeyd etdiyimiz işlərdə üstqurumun ictimai dəyişikliklər yaratmağa qadir olduğunu təsəvvür etsək bir növ tarix və cəmiyyət haqqında ideoloist nöqteyi-nəzərindən düşünmüş olacağıq və bu da o deməkdir ki, ziyalılıq, islahatçılıq və inqilabçılıq özünütəhrik xarakteri daşıyır. Yəni təlim-tərbiyə kimi xarici amillər deyil, sinfi məhrumiyyətlər öz-özünə ziyalılığın, islahatçılığın və inqilabçılığın ilhamvericisidir. Ən aşağısı bu işlərin özülünü sinfi mənafe təşkil edir. İdeologiyanın, məsləhətin və sair ziyalı əməllərinin maksimum rolu, sinfi ziddiyyətin və əslində, məhrum təbəqənin sinfi mənafeyini onun özünüdərketmə həddinə çatdırmaqdır. Onların öz dili ilə desək, xüsusi bir təbəqəni agah təbəqəyə çevirməkdir. Sinfi cəmiyyətlərdə, hər hansı bir təbəqəni silkələyə biləcək yeganə fikir, həmin təbəqənin özünü və öz təbəqə mənafeyini dərk etməsidir. Ancaq ümumi – insani, ədalət tələb edən və s. – fikirlər, insanın iki qrupa bölündüyü sinfi cəmiyyətlərdə – burada, ictimai vicdan da iki növə ayrılır – heç bir rol oynaya bilmir. Bəli, istehal alətləri təkamülünün hökmü ilə, proletariat hökuməti yarandıqda, insan özünün təbəqə sərhədləri olmayan insanlığına qayıtdıqda, təbəqələr məhv olunduqda, mülkiyyət vasitəsilə bölünmüş insan vicdanı birləşdikdə, istehsal alətlərinin müştərək və vəziyyətinin inikası olan ümumi fikirlər, müəyyən işlərə qadirdir. Deməli, tarixi dövrlər cəhətindən xüsusi bir dövrün üstqurumu olan sosializmi,

istədiyi formada özündən əvvəlki dövrdə yerləşdirmək mümkün olmadığı kimi, cəmiyyətin iki təbəqəyə bölündüyü bir tarixi dövrdə, bir təbəqənin agahlığını o biri təbəqəyə də sirayət etdirmək olmaz. Yəni müştərək insani agahlıq yoxdur.

Elə buna görə də sinfi cəmiyyətlərdə, hər hansı təbəqəyə meylli olmayan ümumi və küllü ideologiya yarana bilməz – təbəqəli cəmiyyətdə zühur edən istənilən ideologiya, istər-istəməz hansısa bir təbəqəyə tərəf meyl edir – və əgər fərz edək ki, yaransa da, heç bir rol oynaya bilməz. Bu cəhətdən də din və məzhəblərin dəvəti ən azı, bu adla çıxış edərək müsavat, ədalət, insaf şüarları ilə bəşərə müraciət edən istənilən məktəb, əgər aldadıcı deməsək də, ən azı utopikdir.

6. Qeyd olunan nəticələrdən biri də budur ki, inqilabçı və mücahid rəhbərlərin istəyi, mütləq istismar olunan təbəqədir.

Təkcə istismar olunan təbəqənin ziyalılıq, islahatçılıq və inqilabçılığa hazır olması sübut olunduqdan sonra, həmin liderlərin o təbəqə ilə həmdərd olmaları mümkündür. Hər hansı bir cəmiyyətdə üstqurumun tarixi cəhətdən bazisi ötməsi və ya müəyyən bir təbəqənin ictimai vicdan cəhətdən ictimai mənafeyi aşıb keçməsi mümkün olmadığı kimi, şəxslərin də rəhbər adı ilə öz təbəqəsini ötməsi və öz təbəqəsinin arzularından daha çox arzu istəməsi də mümkün deyildir. Ona görə mümkün deyil ki, kiminsə cəmiyyətin istismarçı təbəqələri arasından, öz təbəqəsi əleyhinə və istismar olunan təbəqənin xeyrinə üsyan etməsini təsəvvür etmək çətindir.

«Marksdan Maoya qədər islahatlar» kitabında deyilir: «Alman ideologiyasının daha bir yeniliyi təbəqə agahlığının təhlilidir. Marks burada öz əvvəlki əsərlərinə zidd olaraq təbəqə agahlığını, xaricdən təbəqəyə daxil olan deyil, həmin təbəqənin öz məhsulu sayır. Həqiqi agahlıq, ideologiyadan başqa bir şey deyil. Çünki, gərək təbəqənin mənafeyinə ümumi şəkil versin. Lakin, bu həmin agahlığın, təbəqənin öz mənafeyindən agah olması üzərində qurulmasına mane olmur. Hər halda, təbəqə özünəməxsus sinfi agahlığa nail olmadan lazımi səviyyəyə çatmayacaq.

Marksın fikrincə, bu iş, təbəqə daxilində fikri işlə maddi iş arasında fərq yaradır. Bəzi şəxslər, bu təbəqənin mütəfəkkirləri olduqları halda digərləri bu düşüncələri qəbul edən və daha qeyri-fəal formada qalırlar.»[1]

Həmin kitabda «Manifest» və «Fəlsəfi yoxsulluq» kitablarında Marksın nəzəriyyəsini təhlil edərək yazır: «Beləliklə, sinfi agahlığına çatmaq və təbəqə halında formalaşmaq, proletariatın öz işi və onun coşmuş iqtisadi mübarizəsinin nəticəsidir. Bu dəyişikliyi, nə fəhlə hərəkatından kənarda olan mütəfəkkirlər, nə də siyasi partiyalar gətirmir. Marks utopik sosialistləri tənqid edirdi ki, öz proletar xüsusiyyətlərinə rəğmən, proletariatın tarixi coşqunluğunu və onun xüsusi, siyasi hərəkatını görmürlər... və öz uydurmalarını, proletariatın tədriclə, təbəqə formasında təşkilatlanması yerinə verirlər.»

Bu üsul da, cəmiyyətin və ictimai meyllərin tanınmasında, şəxslərin hansı meyldə olmalarının

---

[1] Marksdan Maoya qədər islahatlar, səh-314.

müəyyənləşməsində və xüsusilə də, cəmiyyətin islahı və rəhbərlik iddiasında olanların tanınmasında və marksist məntiqində xüsusi əhəmiyyətə malik olduğu üçün xüsusi yolgöstərici kimi istifadə olunmalıdır.

Qeyd olunanlardan aydın olur ki, Marks və Engels müstəqil ideoloq və mütəfəkkirlərin olmasına inanmır və inana da bilməzlər. Yəni marksizm prinsipləri buna icazə vermir. Əgər təsadüfən Marks bəzi əsərlərində bunun ziddinə fikir söyləyibsə, bu onun marksist olmaq istmədiyi hallardandır və sonra deyəcəyik ki, belə hallar heç də az deyil. İndi, belə bir sual yaranır ki, Marks və Engels öz ziyalı və mütəfəkkir mövqelərini marksizm prinsiplərinə əsasən necə əsalandıracaqlar? Çünki onların heç biri proletariat təbəqəsindən deyillər. Onlar fəhlə deyil, filosof olduqları halda ən böyük fəhlə nəzəriyyəsini yaradıblar. Marksın bu suala cavabı, çox maraqlıdır. «Marksdan Maoya qədər islahatlar» kitabında deyilir: «Marks ideoloqlardan çox danışır. Çox güman ki, onları xüsusi təbəqə deyil, sadəcə olaraq digər təbəqələrin, xüsusilə də burjuaziyanın bir hissəsi sayır. «18 brumer» kitabında akademiya üzvlərini, mətbuat işçilərini, tələbələri, hakimləri, keşişləri və zabitləri burjuaların bir hissəsi sayır. Manifestdə proletar mənşəyi olmayan fəhlə ideoloqlarından – Engels və özü kimi – bəhs edərkən onları ziyalı kimi qələmə vermir. Sadəcə, proletariat içində qərq olmuş, hakim təbəqə nümayəndələri və proletariatın təlim-tərbiyəsi üçün bir çox üsullar gətirmiş şəxslər adlandırır.»

Marks heç cür izah etmir ki, necə olur ki, o, və Engels hakim təbəqədən sürüşərək asılı təbəqəyə düşürlər və

özləri ilə həmin təbəqənin təlim-tərbiyəsi üçün qiymətli hədiyyələr gətirirlər.

Marks izah etmir ki, necə olur ki, proletar təbəqənin nicatı olan ideologiya, hakim təbəqənin daxilində yaranır? Bundan başqa izah etmir ki, bu təbəqə dəyişmə prosesi yalnız onların ikisinə aiddir, yoxsa bu iş digərləri üçün də mümkündür? Həmçinin izah etmir ki, göydə və yerdə – istisna olaraq – agahlıq azad oluduğu və bir-biri üçün açıq olduğu halda, yalnız göydəkilər və yuxarıdakılar aşağıdakılar üçün gətirir, ya «merac» formasında da mümkündür. Əlbəttə, aşağıdakıların yuxarıdakılara hədiyyə aparmalı bir şeyləri yoxdur.

Ümumiyyətlə, aşağıdan yuxarı hədiyyə aparmaq mənasızdır. Əgər belə bir şans olsa və biri merac etsə və yenidən göydən yerə qayıtsa, o, da cənab Marks və Engels kimi, yerə endikdən sonra göydən yerə hədiyyə gətirəcəkdir.

## TƏNQİDLƏR

Tarixi materializm nəzəriyyəsinin əsaslarını və ondan yaranan nəticələri izah etdikdən sonra, növbə onun araşdırılmasına çatır.

İlk növbədə qeyd etməliyik ki, biz burada, nə marksizmi və nə də Marksın külliyatda olan nəzəriyyələrini araşdırmaq istəyirik. Biz burada yalnız, bəhsimizin mövzusu ilə bilavasitə əlaqəli olan tarixi materializmi araşdırmaq istəyirik.

Marksın nəzəriyyələrinin təhlili onun kitablarında və yazılarında – həyatının müxtəlif dövrlərində yazıldıqları

üçün ziddiyyətlərlə doludur – yer verdiyi nəzəriyyələrinin hamısının araşdırılması deməkdir. Bu iş, qərbdə müxtəlif şəxslər tərəfindən həyata keçirilmişdir.

Ancaq, marksizm və ya onun prinsiplərindən birinin təhlili isə, marksimz məktəbinin əsasları sayılan və Marksın fikrincə qüsursuz sayılan bir və ya bir neçə prinsipin araşdırılmasıdır. Yaxud bir və ya bir neçə prinsipinin – ola bilər ki, bunlar Marksın fikrincə qəti olmasın və o, bəzi əsərlərində bu prinsiplərə zidd fikirlər söyləsin – hərtərfli araşdırılması olsun.

Biz burada, Marksın qəti prinsiplərini nəzərə alaraq, yaxud həmin prinsiplərdən doğan məntiqi nəticəni nəzərə alaraq araşdırma aparırıq və məqsədimiz, Marksın öz əsərlərində buna zidd bir şey söylədiyini araşdırmaq deyil. Çünki, bizim əsas məqsədimiz tarixi materializmin analizidir.

Tarixi qəribəliklərdən biri də budur ki, özünün fəlsəfi, ictimai və iqtisadi yazılarında az-çox tarixi materializmdən bəhs edən Marks öz dövrünün bəzi tarixi hadisələrini təhlil edərkən öz üslubuna riayət etmir və ya bu məsələyə az diqqət yetirir. Niyə? Bu suala müxtəlif cavablar veriblər. Məsələ yalnız bununla bitmir. Bir çox məsələlərdə, Marksın yolu ziddiyyətli bir yoldur. Yəni onun nəzəri və əməli şəkildə marksizmdən fərqli hərəkət etdiyi nəzərə çarpır. Deməli, daha ümumi bir cavab tapmaq lazımdır.

Bəziləri bunu, onun bəzi dövrlərdə naşılığı və təcrübəsizliyi ilə əlaqələndirirlər. Ancaq bu fikir, ən azı marksist nöqteyi-nəzərindən əsassızdır. Çünki, bu gün marksizmin əsas prinsiplərindən sayılan bir çox şeylər, Marksın gənclik və orta yaş dövrünə aiddir və naşılıq

adlandıranların bir çoxu – o cümlədən də, öz dövrünün tarixi hadisələrinin elmi təhlili – onun ömrünün son illərinə aiddir.

Bəziləri bu ixtilafı, onun ikili şəxsiyyətində görürlər. İddia edirlər ki, o, birtərəfdən filosof, ideoloq və məktəb yaradıcısı idi və təbii olaraq prinsipləri qüsursuz və qəti saymalı, hadisələri öz düşüncəsi ilə uyğunlaşdırmalı idi. Digər tərəfdən o, elmi ruha və şəxsiyyətə malik idi və bu da, onun hadisələrə tabe olmasını və heç bir qəti prinsipə əsaslanmasını tələb edirdi.

Bəziləri isə, Marks və marksizm arasında fərq qoyaraq iddia edirlər ki, Marks və onun fikirləri, marksizmin mərhələlərindən biridir. Marksizm əslində inkişafda olan məktəbdir. Deməli, marksizmin Marksı arxada qoyması da mümkündür. Başqa sözlə, Marksın naqis olması, marksizmin naqis olmasına dəlil ola bilməz. Ancaq onlar, marksizmin mahiyyətinin nədən ibarət olduğunu izah etmirlər. Hər hansı bir məktəbin təkamül şərti budur ki, o, sabit və ibtidai prinsiplərə malik olsun və iradlar bu prinsiplərə deyil, əməllərə aid olsun. Əks halda, bir nəzəriyyənin ləğvi ilə təkamül arasında heç bir fərq qalmayacaq. Əgər sabit və dəyişməz prinsipləri təkamülün şərti sayırıqsa, bəs nəyə görə Marksdan əvvəl olan Heygeldən, Sen Seymondan, Prudondan, ya onlar kimi sair şəxsiyyətlərdən başlamayaq və heygelizm, sen seymonizmi, və ya prudonizmi təkamül halında olan məktəb saymayaq? Bizim nəzərimizcə, Marksın ziddiyyətlərinin səbəbi budur ki, o, marksistlərin bir çoxuna nisbətən daha az marksistdir. Deyilənlərə görə o, bir qrup marksistin içində olduğu zaman, özünün əvvəlki

nəzəriyyəsinə zidd olan bir nəzəriyyəni müdafiə edərkən deyib: Mən sizin qədər marksist deyiləm.

Marksın bəzi nəzəriyyələrində marksizmdən ayrılması ona görə baş verir ki, o, həqiqi mənada marksist olmaqdan daha üstün və ağıllı idi. Qətiyyətlə etiraf etmək lazımdır ki, tam mənada marksist olmaq, bir az axmaqlıq tələb edir. Bizim bəhsimizin mövzusu və marksizmin bir hissəsi olan tarixi materializm bir sıra «əsaslar» və «nəticələr»ə malikdir. Təkcə alim Marks deyil, hətta filosof və mütəfəkkir Marks da, həmişəlik bu prinsip və nəticələrə vəfalı qala bilməzdi.

İndi isə tənqid və iradlara başlayaq:

## 1. SÜBUTSUZLUQ

İlk irad budur ki, bu nəzəriyyə sübutsuz və dəlilsiz teoremdən başqa bir şey deyil. Hər hansı tarixi-fəlsəfi nəzəriyyə, ya gərək öz dövrünün tarixi hadisələri əsasında formalaşaraq digər dövrlərə da aid edilsin, yaxud da keçmişdə baş vermiş hadisələrə aid olan tarixi sənədlərə əsaslanaraq indiki və gələcəkdə baş verəcək hadisələrə və proseslərə də şamil olunsun və yaxud, gərək bir sıra elmi, məntiqi və fəlsəfi prinsiplərə arxalanan isbat və müqayisə əsasında sübut olunusun.

Tarixi materializm nəzəriyyəsi bu üsullardan heç biri üzərində qurulmayıb. Nə Marks və nə Engelsin dövrü hadisələri bu yolla izah oluna bilər – hətta Engels bəyan edir ki, mən və Marks bəzi dövrü hadisələrin təhlili zamanı, iqtisadın əhəmiyyəti haqqında bəzi kitablarımızda yol verdiyimiz səhvə görə günahkar deyilik. Çünki, nə

həmin hadisələri və nə də bəşər tarixinin neçə min il ərzində olmuş tarixi hadisələrini gözümüzlə görüb isbat etməyə qadir deyildik.

Hətta ötən dövrləri tarixi materializmlə izah etməyə çalışan kitabları oxuduğu zaman, insan onların uzun-uzadı isbatlarından və əsaslandırmalarından heyrətlənir. Bu məsələ, «Dünya tarixi» kitabında daha çox diqqəti cəlb edir.

## 2. YARADICILARIN FİKİR DƏYİŞMƏLƏRİ

Bir neçə dəfə qeyd etdiyimiz kimi, Marks cəmiyyətin iqtisadı qurumlarını bazis, digər qurumları isə üstqurum adlandırır. Bu sözlərin mənası, digər qurumların iqtisadi quruma birtərəfli bağlılıq və asılılığını aşkar göstərir. Bundan əlavə Marks bir çox cümlələrində bəyan edir ki, təsir və bağlılıq bir tərəflidir. Yəni iqtisadi amillər təsiredici, digər ictimai amillər isə təsir qəbul edəndirlər. İqtisadi amillər azad hərəkət edir, sair amillər isə ona bağlıdırlar.

Həqiqət budur ki, Marksın bu sözləri deyib-deməməsindən asılı olmayaraq, maddənin ruhdan, maddi ehtiyacların mənəvi ehtiyaclardan, insan sosiologiyasının psixologiyadan, işin düşüncədən üstün olması nəzəriyyəsi, onu bu fikrə gəlməyə vadar edir.

Ancaq Marks, özünün bir çox yazılarında başqa bir məsələni dialektik məntiq əsasında bəyan edir və bu da, müəyyən mənada yeni fikir və tarixin mütləq maddiliyindən müəyyən qədər yayınma kimi anlaşılmalıdır. Bu məsələ, qarşılıqlı təsir məsələsidir.

Qarşılıqlı təsir prinsiplərinə əsasən, səbəb-nəticə əlaqəsini birtərəfli fərz etmək olmaz. «A», «B» üzərində təsiredici və ondan təsir qəbuledici olduğu kimi, «B» də «A» üzərində təsiredici və ondan təsir qəbul edəndir. Bu prinsipə əsasən, təbiətin və cəmiyyətin bütün üzvləri arasında qarşılıqlı təsir və bağlılıq vardır.

Mən hələlik bu dialektik prinsipin bu formada bəyanın düzgün və ya səhv olması haqqında söhbət açmıram. Ancaq onu deyirəm ki, bu prinsipə əsasən, ümumiyyətlə iki şey arasında əlaqədə üstünlük təyin etmək – maddə və ruh, yaxud əmək və düşüncə, yaxud iqtisadi və sair ictimai qruplar – mənasız bir işdir. Çünki iki şey bir-birinə bağlı və asılı olduğu, bir-birinin mövcudluq şərtidirlərsə, üstün və öncül olmanın heç bir mənası yoxdur.

Marks bəzi sözlərində bütün rolu – istər mühüm olsun, istər ikinci dərəcəli – iqtisadi quruma vermiş və üstqurumun bazisə təsirindən heç bir söz açmamışdır. Bəzi sözlərində isə, bazis və üstqurum arasında qarşılıqlı təsirdən danışmış, lakin əsas cəmiyyəti bazisə vermişdir. «Marksdan Maoya qədər islahatlar» kitabında, Marksın iki «Kapital» və «İqtisadi elmin tənqidi» kitablarını müqayisə edərkən – onların hər ikisində, birtərəfli olaraq iqtisadın təyinedici olması təsdiq edilir – deyilir: «Buna baxmayaraq, Marks bilərkdən, ya qeyri-ixtiyari olaraq bu tərifi artırır. O da budur ki, üstqurumlar bazisin onlara nisbətən üstün öncül olmasına baxmayaraq, cəmiyyətdə mühüm rol ifa edə bilmir.»[1]

---

[1] Marksdan Maoya qədər islahatlar, səh-222.

Müəllif əlavə edir ki, hakimin və iqtisadi bazisin rolu ilə üstqurumun oynadığı mühüm rol arasında hansı fərqlər vardır? Yəni, əgər üstqurum əsas rol oynayırsa, deməli o, həm hakim və həm də təyinedicidir və daha üstqurum adlandırdığımız şey üstqurum deyil, bazisdir və bazis də anoloji olaraq üstqurumdur.

Engels, ömrünün sonlarında Jozef Blok adlı şəxsə yazdığı məktubda belə xatırlayır: «Tarixi materializm dünyagörüşünə uyğun olaraq, son araşdırmalara əsasən, təyinedici amil istehsal və həqiqi həyatın yeniləşməsidir. Nə Marks və nə də mən, heç vaxt bundan savayı bir şey deməmişik. Əgər Marksdan sonra bu təklifi – iqtisadi amil yeganə təsiredici amildir – mənasını verəcək qədər dəyişdirilərsə, onun mənası quru bir ifadəyə çevirəcək. İqtisadi vəziyyət özüldür, digər ünsürlər isə üstqurum. Təbəqələrarası mübarizənin siyasi forması və onun nəticələri, hüquqi formalar və hətta, həmin həqiqi mübarizənin, öz iştirakçılarının beynində əks olunması, siyasi, hüquqi, fəlsəfi nəzəriyyələr, dini tapıntılar və onların sonrakı dəyişmələri, bu minvalla tarixi mübarizələrin gedişatına təsir edir və bir çox hallarda, ciddi şəkildə onun formasını təyin edir. Bütün bu amillər bir-biri ilə qarşılıqlı təsirdədirlər və onlar arasında, təzadlardan ibarət sonsuz kütlə içində iqtisadi hərəkat, öz yolunu açır.»[1]

Qəribədir! Əgər «iqtisadi amil yeganə təyinedici amildir» nəzəriyyəsi boş və mənasız bir ifadədirsə də, bu nəzəriyyəni Marksdan başqası deməyib. Bundan başqa,

---

[1] Marksdan Maoya qədər islahatlar, səh-282.

əgər üstqurum amili bir çox hallarda ciddi formada tarixi mübarizələrin formasını təyin edirsə, deməli təyinedicilik iqtisadi amillərin inhisarında deyil. Əgər belədirsə, – iqtisadi hərəkat, sonsuz təzadlar kütləsi içində bir zərurət kimi özünə yol açır – deməyə lüzum varmı?

Daha qəribəsi budur ki, cənab Engels həmin məktubda, bu səhvin məsuliyyətini öz boynuna və Marksın üzərinə qoyub deyir:

«Marks və mənim özüm, (gərək) bəzi vaxtlarda gənclərin lazım olduğundan artıq həddə iqtisadi amilə əhəmiyyət vermələrinin məsuliyyətinin bir hissəsini öz öhdəmizə götürək. Biz, rəqiblərimizin qarşısında onların inkar etdikləri bu prinsip üzərində təkid etməyə məcbur idik. Elə buna görə də həqiqətdə daha çox rolu olan sair amillərə əhəmiyyət verməyə nə vaxtımız, nə fürsətimiz və nə də imkanımız var idi.»[1]

Ancaq bəziləri Marks və Engelsin iqtisadi amil üzərində ifratçı təkidlərini Engelsin söylədiyi kimi izah etmirlər. Onlar deyirlər ki, bu təkid rəqiblər qarşısında deyil, həmin nəzəriyyənin tərəfdarları qarşısında və onları tərksilah etmək məqsədilə edilirdi.

«Marksdan Maoya qədər islahatlar» kitabında, iqtisadi amillərin birtərəfli şəkildə daha çox təkid olunduğu «İqtisadi elmin tənqidi» kitabının yazılma səbəblərini izah edərkən belə deyir: «İqtisadi elmin tənqidinin yazılmasının digər səbəbi, Prudonun və Dariman Pyerin çapdan çıxmış kitabları idi... Marks, rəqiblərinin – yəni, Prudonun tərəfdarlarının və digər tərəfdən Lasonun həmfikirlərinin –

---

[1] Marks və marksizm, səh-245.

iqtisadi amillər üzərində təkid etmələrini gördükdə, bu silahı onların əlindən alaraq inqilabi formada işlətməyə çalışır. Bunun da əsas yolu, onun əqidələrinin daha asan və kütlənin qəbul edə biləcəyi hala salınmasıdır.»[1]

Mao Teze Dun, tarixi materializmin mənasında dəyişiklik və iqtisadın bazis olmasında yeniliyi, Çinin vəziyyətinə və həmçinin, Çin inqilabı və öz rəhbərliyinin ifa etdiyi rola əsaslandırmaq üçün elə bir hədd çatdırmışdır ki, tarixi materializmin və onun iqtisadi bazis olması ideyasının və nəticə olaraq, tarixi materializmə əsaslanmadan və ya elmi sosializmdən yanlız quru ad qalmışdır.

Mao, özünün Təzad əsərində, «Ümdə təzadlar və təzadın ən ümdə cəhətləri» bölməsində deyir: «...İstənilən təzadın ümdə və ikinci dərəcəli cəhətləri, bir-birinə çevrilir, əşya və olayların xislətləri də ona əsasən dəyişir. Hər hansı bir prosesin bir hissəsində və ya bir təzadın təkamülünün müəyyən mərhələsində, A ümdə cəhət və B ikinci dərəcəli cəhətdir. Digər mərhələdə və ya prosesin başqa bölməsində, bu iki cəhətin yeri bir-biri ilə – əşyanın və onların təkamülü prosesi boyunca, təzadın bir cəhətinin o biri cəhətə qarşı mübarizədə qüvvəsinin artması və ya azalmasına əsasən – dəyişir.»[2]

Bundan sonra deyir: «...Bəziləri təsəvvür edirlər ki, bu tezis bəzi təzadlar barəsində düzgün deyil. Məsələn, deyirlər ki, yaradıcı qüvvələr, əməl və iqtisadi bazis təzadın əsas cəhətini təşkil edirlər... sanki, təzadın digər iki

---

[1] Marksdan Maoya qədər islahatlar, səh-218-219.

[2] Dörd fəlsəfi traktant, səh-54-55.

cəhəti yerini dəyişmir. Bu, mexaniki materializmə xas olan qavramadır və dialektik materializmə heç bir aidiyyəti yoxdur. Aydındır ki, yaradıcı qüvvələr, əməl və iqtisadi bazis, ümumilikdə mühüm və təyinedici rola malikdirlər və bunu inkar edən şəxs, materialist deyil. Elə buna görə də, qəbul etmək lazımdır ki, istehsal münasibətlərinin müəyyən şəraitində, tezis və üstqurum öz növbəsində mühüm və təyinedici rola malik ola bilərlər. Əgər yaradıcı qüvvələr, istehsal münasibətləri dəyişmədən təkamül edə bilməzlərsə, o halda istehsal münasibətlərinin dəyişilməsi, mühüm və təyinedici əhəmiyyət kəsb edəcək.

Leninin İnqilabi nəzəriyyəsi, «heç bir inqilab ola bilməz» sözü gündəliyə gətirildikdə, inqilabi nəzəriyyənin yaradılması və yayılması, mühüm və təyinedici əhəmiyyət kəsb edir... Üstqurum iqtisadi bazisin inkişafına mane olduqda, siyasi olaylar və mədəni proseslər mühüm və təyinedici məna kəsb edir. Biz, bu növ tezislə materializmi inkar edirikmi? Heç bir vəchlə. Çünki biz, tarixi inkişafın ümumi prosesində maddənin, ruhun təyinedici və ictimai vücudun, ictimai şüurun təyinedici olduğunu qəbul edirik. Ancaq eyni halda, bunu da qəbul edirik ki, – və qəbul etməliyik ki, – ruh maddə üzərində, ictimai şüur ictimai vücud üzərində və üstqurum bazis üzərində qarşılıqlı təsirə malikdir. Beləliklə, mexaniki materializmi rədd və dialektik materializmi müdafiə edirik.»[1]

Cənab Maonun dedikləri, tamamilə tarixi materializmi inkar edir. Cənab Mao – istehsal münasibətləri yaradıcı qüvvələrin təkamülünə mane olarsa və ya inqilabi

[1] Dörd fəlsəfi traktant, səh-58-59.

hərəkatın inqilabi nəzəriyyəyə ehtiyacı var və ya üstqurum bazisin təkamülünə mane olarsa – dedikdə də, həmişə baş verən şeyi deyir. Ancaq tarixi materializmə əsasən, icbari olaraq yaradıcı qüvvələrin təkamülü, istehsal münasibətlərini dəyişir. İcbari olaraq inqilabi nəzəriyyə, özündən coşma halını alır və üstqurum, bazisin ardınca öz formasını dəyişir.

Məgər Marks, «İqtisad elminin tənqidi» kitabının girişində aşkarcasına deməmişdimi ki, cəmiyyətin yaradıcı qüvvələri təkamül və inkişafın müəyyən mərhələsində mövcud istehsal əlaqələri, yaxud istehsal əlaqələrinin hüquqi istilahı olan malikiyyət əlaqələri ilə mübarizəyə girir. Keçmişdə, yaradıcı qüvvələrin inkişafının özəyini təşkil edən bu əlaqələr, bu yolda maneəyə çevrilirlər. O zaman, ictimai inqilab dövrü başlayır və iqtisadi özəyin dəyişməsi, bütün üstqurumu az və ya böyük sürətlə darmadağın edir?

İstehsal münasibətlərinin dəyişilməsinin, yaradıcı qüvvələrin inkişaf yolunu açmaq üçün yaradıcı qüvvələrin inkişafından üstün olması, inqilabi nəzəriyyənin yaranmasının, inqilabi təfəkkürün öz-özünə coşmasından və üsyanından üstün olması, bazisin dəyişə bilməsi üçün üstqurumun dəyişməsi, düşüncənin iş, ruhun maddə, siyasi və fikri qurumların iqtisadi qurum müqabilində mütləqliyi mənasındadır və tarixi materializmi inkar edir.

Cənab Maonun – əgər təsiri birtərəfli qəbul etsək, dialektik materializmi inkar etmiş olaraq – deməsi doğru və düzgündür. Ancaq nə etmək olar ki, elmi sosializmin əsası həmin birtərəfli təsir və dialektik məntiqə zidd formada – yəni qarşılıqlı bağlılıq prinsipinə ziddir –

yaranıb. Çarəsizlikdən, ya gərək elmi sosializmə boyun əyərək dialektik məntiqi rədd edəsən, ya da dialektik məntiqi qəbul edərək elmi sosializmi və onun mənbəyi olan tarixi materializmi rədd edəsən.

Əlavə olaraq, cənab Maonun tarixi inkişafın ümumi prosesində, «maddə ruhun təyinedicisidir və ictimai vücud, ictimai şüurun təyinedicisidir» sözləri nə deməkdir? Təzadların ümdə cəhətlərinin yerləşdirilməsini qəbul edəriksə, bəzən yaradıcı qüvvə istehsal münasibətlərini və bəzən də əksinə olaraq təyin edilir. Bəzi hallarda inqilabi hərəkat inqilabi nəzəriyyəni və bəzi hallarda da, inqilabi nəzəriyyə inqilabi hərəkatı yaradır. Bəzən siyasət, mədəniyyət, qüdrət, din və s. cəmiyyətin iqtisadi bazasını dəyişdirir və bəzən də əksinə olur. Deməli, bəzi hallarda maddə ruhu, bəzi hallarda da ruh maddəni təyin edir. Bəzi ictimai vücud ictimai şüuru təyin edir və yaxud əksinə.

Həqiqət budur ki, cənab Maonun təzadların əsas cəhətlərinin yerdəyişməsi kimi adlandırdığı şey, maoizmi sübut etməkdir. Maoizm də praktiki olaraq, marksist tarixi materializminə zidd formada alındı. Mao əməli surətdə göstərdi ki, o, da Marks kimi, həmişə marksist olma səviyyəsindən daha ağıllı və zirəkdir.

Maonun rəhbərlik etdiyi Çin inqilabı, əməli olaraq elmi sosializmi və tarixi materializmi və nəticə etibarı ilə marksizmi inkar etdi. Çin, Maonun rəhbərliyi və kəndli inqilabı vasitəsilə, Çinin köhnə feodal rejimini darmadağın etdi və onun yerinə sosializm sistemini qurdu. Halbuki, elmi sosializm və tarixi materializmə əsasən, feodalizm mərhələsini keçən ölkə kapitalizm mərhələsinə çatmalıdır

və bu mərhələdə zirvəyə çatdıqdan sonra, sosializm mərhələsinə keçməlidir. Tarixi materializmə əsasən, rüşeym bətndə iki sistemi eyni edə bilmədiyi kimi, cəmiyyət də ardıcıl mərhələləri keçmədən son mərhələyə çata bilməz. Ancaq cənab Mao, əməli olaraq göstərdi ki, belə bir şey mümkündür. Sübut etdi ki, Marksın iddiasına zidd olaraq, rəhbərlik, partiya təlimi, siyasi təşkilat, inqilabi nəzəriyyə, ictimai aydınlıq – yəni Marksın vücud növünə deyil, şüur növünə aid etdiyi şeylər – istehsal münasibətlərini dəyişib və ölkəni sənaye ölkəsi edə bilər və beləliklə də, elmi sosializmə etina etməz.

Mao, başqa yolla da tarixi marksist nəzəriyyəsini inkar etdi. Marksist nəzəriyyəsinə görə və ən azı, Marksın şəxsi fikrinə görə, kəndli təbəqəsi inqilabı olmağın birinci və ikinci şərtinə – istismar olunma və malikiyyətsizlik – malik olmasına baxmayaraq, üçüncü şərtə malik deyillər. Elə buna görə də kəndli təbəqəsi heç zaman inqilabın başlanmasını öz üzərinə götürə bilməz. Ən yüksək halda, yarı kəndli və yarı sənaye cəmiyyətində kəndli təbəqəsi, fəhlə təbəqəsinin ardınca gedə bilər. Marksın fikrinə əsasən, kəndli təbəqəsi hər növ inqilabi hərəkət etməkdən acizdir.[1] Marks Engelsə yazdığı məktubda (Polşa inqilabı barəsində), kəndlilər haqqında belə söyləyir: «Kəndliləri... bu məzlum və avam varlıqları... döyüşə çağırmaq olmaz (mübarizəyə səsləmək olmaz).»[2]

Ancaq Mao, bu avam və məzlum təbəqəni və mübarizəyə səslənməsi mümkün olmayan təbəqəni,

---

[1] Marksdan Maoya qədər islahatlar, səh-368.

[2] Marksdan Maoya qədər islahatlar, səh-348.

inqilabi təbəqəyə çevirdi və köhnə rejimi devirdi. Marksın nəzərində, kəndilər təkcə ölkəni sosializmə aparmaqda deyil, hətta feodalizmdən kapitalizmə keçdikdə də heç bir rola malik deyillər. Cəmiyyəti feodalizmdən kapitalizmə aparan və həmin tarixi anda inqilabi xüsusiyyətə malik təbəqə burjuaziyadır. Ancaq Mao həmin təbəqə ilə feodalizmdən sosializmə keçdi. Deməli Maonun, marksizmdən ayrılaraq maoizmi sübut etmək üçün təzadların əsas cəhətinin yerdəyişməsi prinsipini bəyan etməyə haqqı vardır və özünü elə göstərir ki, məsələni öz üzərinə gətirmədən marksizmi şərh edir.

Mao, «marksist lazım olduqda əməli surətdə marksizmdən ayrılmalıdır», dərsini, öz sələfi Lenindən öyrənib. Lenin Maodan öncə, o dövrdə yarı feodal, yarı kapital ölkəsi olan Rusiyada inqilab etdi və birinci dəfə sosialist ölkəsi yaratdı.

Lenin görürdü ki, ömrü çar Rusiyasının kapitalist ölkəsinə çevrilməsini və kapitalizm və istismarın son mərhələyə çatmasını və dinamik formada, öz-özünə inqilab baş verməsini və əsaslı dəyişikliklər olmasını görməyə imkan verməyəcək və görürdü ki, gözləmə mövqeyi tutsa, çox gec olacaq. Elə buna görə də, üstqurumdan başladı. Partiya, siyasət, inqilabi tezis, müharibə və qüdrətdən istifadə etdi və o dövrün yarı sənaye Rusiyasını sosialist SSRİ-sinə çevirdi.

Lenin əməli olaraq, Rusiyanın iqtisadi bazisinin dinamiki və öz-özünə inkişafını gözləmədən qüvvə, siyasət, partiya təlimi və siyasi agahlıqdan istifadə etdi.

## 3. BAZİS VƏ ÜSTQURUMUN İCBARİ UYĞUNLUĞUNUN İNKARI

Tarixi materializm nəzəriyyəsinə əsasən, cəmiyyətlərdə gərək bazis və üstqurum arasında uyğunluq olsun və bazisi tanımaqla, üstqurumu da tanıma imkanı yaransın. Həmçinin, üstqurumu tanımaqla bazisi tanıma imkanı olsun. Bazis dəyişildikdə və bu uyğunluq pozulduqda, icbari olaraq ictimai tarazlıq da pozulur, böhran başlanır və üstqurum istər-istəməz dağılır. Nə qədər ki, bazis əvvəlki formasında qalır, üstqurum da sabit və dəyişilməz qalır.

Müasir tarixi olaylar, bunun əksini sübut edir. Marks və Engels, bir sıra inqilablarla uyğun olaraq silsilə böhranların (1827-1847) ardınca bu fikrə gəldilər ki, ictimai inqilablar iqtisadi böhranların ayrılmaz və zəruri nəticəsidir.

«Marksdan Maoya qədər islahatlar» kitabı müəllifinin dili ilə desək, «Tarixin zarafatına baxın ki, 1848-ci ildən indiyə qədər inkişaf etmiş ölkələrdə, inqilabla nəticələnən heç bir iqtisadi böhrana rast gələ bilmərik. Elə Marksın öz dövründə və onun ölümündən qabaq 4 dəfə yaradıcı qüvvə, heç bir inqilab baş vermədən istehsal əlaqələri əleyhinə tüğyan edir... Sonralar C.Şumpter kimi iqtisadçılar, bu böhranları yaradıcı dağıntı adlandıracaq həddə çatdırdılar və onları iqtisadi inkişaf və tarazlığı yenidən qaytarmaq üçün qoruyucuya bənzətdilər.»

İngiltərə, Almaniya, Fransa və Amerika böyük elmi-texniki inkişafa nail oldular, kapitalizmin ən yüksək zirvəsinə çatdılar və Marksın fikrinə zidd olaraq – Marks,

bu ölkələri fəhlə-proletariat inqilabın baş verəcəyi və sosialist ölkələrinə çevriləcək ilk ölkələr hesab edirdi – siyasi quruluş, hüquqi quruluş, dini və üstqurum adlandırılan sair amillər baxımından, heç bir dəyişikliyə uğramadılar. Marksın 9 ay gözlədiyi körpə, 9 ilə deyil, hətta 90 ilə də doğulmadı və heç doğulma gümanı da yoxdur.

Əlbəttə gec, ya tez bu rejimlər dağılacaqlar. Ancaq bu ölkələrdə gözlənilən inqilab, fəhlə inqilabı olmayacaq və tarixi marksist nəzəriyyəsi həqiqətə çevrilməyəcək. Həmçinin müasir sosialist rejimləri də dağılacaq və bu formada qalmayacaqlar. Ancaq gələcək rejim, qəti olaraq kapitalizm olmayacaq.

Qarşılıqlı olaraq Şərqi Avropada, Asiyada və Cənubi Amerikada bəzi ölkələr sosializmə çatdılar və hələ də, onların doğum vaxtı çatmayıb. Bu gün elə ölkələrə rast gəlirik ki, bazis baxımından eynidirlər. Lakin üstqurum baxımından, bir-birindən fərqlənirlər. İki fövqəldövlət – yəni, SSRİ və Amerika – buna ən yaxşı misaldır. Amerika ilə Yaponiya da eyni iqtisadi rejimə malikdirlər. Ancaq siyasi, dini, əxlaqi, incəsənət və s. rejimlərlə fərqlidir. Anoloji olaraq üstqurum baxımından eyni olan, lakin iqtisadi bazis cəhətdən fərqlənən ölkələr də mövcuddurlar. Bütün bunlar, «bazis və üstqurumun icbari uyğunluq prinsipinin – tarixi materializmin iddiası budur – boş şey olmasının nişanəsidir.

## 4. SİNFİ DAYAQLARLA İDEOLOJİ DAYAQLARIN UYĞUNSUZLUĞU

Keçən bəhsdə söylədiyimiz kimi, tarixi materializmə əsasən, hər bir tarixi dövrdə, heç bir vəchlə üstqurum bazisdən üstün ola bilməz. Buna görə də hər bir dövrün alimləri, məhz həmin dövrə və zamana bağlıdırlar və zaman keçdikcə köhnəlir, dəbdən düşür, inkar olunur və tarixin arxivinə verilirlər. Biliklər, fəlsəfələr, planlar, dinlər və s. hamısı, yarandıqları dövrün xüsusiyyətlərini əks etdirir və sair dövrlərlə uyğun gələ bilməzlər.

Ancaq əməli olaraq, bunun əksi sübut olunub. Bir çox fəlsəfələr, şəxsiyyətlər, fikirlər – hələ din və məzhəbləri demirik – vardır ki, öz dövrünü və ya təbəqəsini qabaqlayırlar. Bir çox fikirlər vardır ki, zəmanəsinin iqtisadi amilləri dəyişilməsinə və məhv olmasına baxmayaraq hələ də, tarixin səhnəsində yaşayırlar.

Qəribəsi budur ki, Marks burada da, bəzi sözləri ilə marksizmdən fərqlənir. O, özünün məşhur «Alman ideologiyası» kitabında yazır: «Agahlıq, bəzən elə nəzərə çarpır ki, öz dövrünün təcrübi əlaqələrini qabaqlayır və sonrakı dövrün mübarizələrində, ötən tarixçilərin dediklərinə bir həqiqət kimi istinad edilir.»[1]

## 5. MƏDƏNİ İNKİŞAFIN AZADLIĞI

Tarixi materializmə əsasən, cəmiyyətin mədəni və elmi qurumları da, sair qruplar kimi – məsələn, siyasi, dini və s.

---

[1] Marksdan Maoya qədər islahatlar, səh-173.

– iqtisadi quruma bağlıdır və müstəqil inkişaf edə bilməz. İstehsal vasitələri və iqtisadi bazis inkişaf etdikcə, elm də inkişaf edir.

Əvvəla bilirik ki, insan olmadan istehsal vasitələri, öz-özünə inkişaf etmir. İstehsal alətləri, insan və təbiətin əlaqələri və insanın axtarışları nəticəsində inkişaf edir. İstehsal vasitələrinin təkamül və inkişafı, insanın elmi və texniki inkişafına bağlıdır. Söhbət onların hansının daha öncül və mühüm olmasıdır. Görəsən insan əvvəl kəşf edir və ondan istifadə edərək sənaye yaradır, yoxsa əvvəl sənaye yaranır və sonra insan kəşflər edir? Şübhəsiz ki, birinci doğrudur.

Aydındır ki, elmi qanunların kəşfi və texnoloji üsullar insanın təbiətlə təcrübi və axtarıcı əlaqəsindən yaranır və əgər insan təbiətlə əlaqə yaratmazsa, axtarış aparmazsa və təcrübə etməzsə, təbiət qanunlarından heç birini kəşf edə bilməyəcək. Əsas məsələ bu deyil. İş orasındadır ki, görəsən təcrübə və axtarışdan sonra, insan ilk öncə öz daxilində inkişaf edir və sonra, texnoloji alətləri yaradır, yoxsa məsələ əksinədir? Şübhəsiz, birinci düzgündür.

Bundan başqa təkamül və ya inkişaf ifadəsi, insana aid olduqda həqiqi, texnoloji və isthesal vasitələrinə aid olduqda isə, məcazi məna daşıyır. Həqiqi təkamül və inkişaf, olayın daxili mərhələdən çıxaraq, daha ali mərhələyə çatdığı zaman baş verir. Ancaq məcazi inkişaf olayın dəyişmədiyini, sadəcə olaraq məhv olduğunu və digər olayın, onun yerini tutduğunu bildirir. Məsələn, körpə böyüdükdə, həqiqi təkamül və inkişaf baş verir. Ancaq sinifdə bir müəllim dərs keçərsə və sonra, onun yerinə daha savadlı müəllim gəlirsə, burada sinifin

müəllim vəziyyəti dəyişir və məcazi inkişaf baş verir. Texniki inkişaf prosesində insanın inkişafı həqiqidir. Həqiqətən də insan, ruhi cəhətdən təkmilləşir. Ancaq sənayenin təkamülü – hər il yeni modelləri çıxan avtomobil kimi – məcazi təkamüldür. Yəni keçən ilki avtomobil təkmilləşib, sadəcə istehsaldan çıxarılıb və onun yerinə, sair modellər gəlib. Başqa sözlə, naqis fərd məhv olmuş və onun yerinə kamil bir fərd keçmişdir. Həqiqi və məcazi təkamülün çiyin-çiyinə qərarlaşdığı yerdə şübhə yoxdur ki, həqiqi təkamül əsas və məcazi təkamül isə ikinci dərəcəlidir.

Bu, texnoloji elmlər barəsindədir. Sair elmlərdə – məsələn, tibb, psixologiya, sosiologiya, məntiq, riyaziyyat və s. – heç bir vəchlə bu növ bağlılığı təsdiq etmək olmaz. Elmlərin inkişafı, iqtisadi və maddi vəziyyətin ona bağlı olduğu qədər də, iqtisadi və maddi vəziyyətə bağlıdır. K.Şmulerin marksizm əleyhinə dediyi kimi: «Yəqindir ki, iqtisadi və maddi vəziyyət mədəniyyətin daha gözəl tərənnümünün əsas şərtidir. Lakin bu da danılmaz bir məsələdir ki, mənəvi həyat müstəqil inkişafa malikdir.»[1]

Əgər, Oqust Kontun söyləməsindəki nöqsanı (o, bəşəri və insanlığı zehndə – zehni isə, insanın insani istedadlarında və bəşər mənəviyyatının yarısıdır – xülasələşdirir) aradan götürsək, onun ictimai təkamül barəsindəki nəzəriyyəsi, Marksın nəzəriyyəsindən daha qiymətlidir.

Oqust Kont iddia edir ki, «ictimai nişanələr dəqiq, elmi icbara tabedir və bəşər cəmiyyətinin, bəşər zehninin

---

[1] Marksdan Maoya qədər islahatlar, səh-239.

tərəqqisinin əlaqələri altında, qaçılmaz dəyişiklik formasında baş verir və gözə görünür.»[1]

## 6. TARİXİ MATERİALİZM ÖZÜNÜ İNKAR EDİR

Tarixi materializmə əsasən, hər bir fikir, düşüncə, elmi nəzəriyyə və əxlaq sistemi xüsusi iqtisadi və maddi şəraitin tərənnümü olduğu və xüsusi şəraitə bağlı olduğu üçün, mütləq etibar və dəyərə malik ola bilməz. Çünki, özünə xas dövrə məxsusdur və o dövrə keçdikdən sonra, həmçinin iqtisadi-maddi şərait dəyişdirildikdə həmin fikir, həmin düşüncə, həmin elmi-nəzəriyyə və həmin əxlaq sistemi də öz etibarını əldən verir və gərək, başqa bir fikir və ya sistemlə əvəz olunsun.

Tarixi materializm də bu ümumi qanuna tabedir. Çünki, əgər bu ümumi qanuna tabe olmazsa, deməli istisna mövcuddur və bəzi elmi qanun və ya qanunlar vardır ki, heç bir iqtisadi bazisə tabe deyillər. Əgər tarixi materializm bu qanuna tabedirsə, deməli tarixi materializm, etibar və qiymət baxımından yalnız məhdud bir zamanda və xas bir dövrdə doğrudur. Bu da, onun yarandığı dövrdür. Deməli hər halda tarixi materializm inkar olunur (və ya naqis olur). Yəni, tarixi materializm bir nəzəriyyə olaraq, ya özündən başqa şeyə aid olub özü-özünü inkar edir və yaxud özünə və başqalarına da aid olur. Sair dövrlərdə nə özünə aid olur, nə də başqalarına. Bu irad, həm də hərəkət və qarşılıqlı bağlılıq prinsiplərini

---

[1] Sosiologiyada düşüncənin əsas mərhələləri, səh-102.

hər bir şeyə, hətta elmi üsullara aid edən dialektik materializmə də aiddir. Biz fəlsəfənin prinsipləri və realizmin gedişi kitabında (1 və 2-ci cildlər) bu barədə söhbət açmışıq. Buradan aydın olur ki, dünya dialektik materializm və cəmiyyət tarixi materializm sərgisidir – sözləri nə qədər əsassızdır.

Tarixi materializmin digər iradları da vardır. Biz, hələlik onlara toxunmuruq. Mən təəccübümü gizlədə bilmirəm ki, bu qədər əsassız və etibarsız bir nəzəriyyə, necə elmi nəzəriyyə adına layiq olur.

Təbliğat bacarığı diqqətə layiqdir.

# İSLAM VƏ TARİXİ MATERİALİZM

İslam, tarixi materializmi qəbul edirmi? Quran məntiqi, misal çəkdiyi tarixi hadisələrin təhlilində tarixi materializmə əsaslanırmı? Bir qrup alim belə fikirləşir və iddia edirlər ki, bu təfəkkür ən azı Marksdan min il öncə, Məhəmməd (s) Quranında tarixin təhlili üçün özül və mənbə olmuşdur. Doktor Əliverdi – məşhur İran alimi – də, onlardan biridir. Bəlkə də o, bu məsələni bəyan etmiş ilk şəxsdir. Bu gün bir qrup müsəlman alimləri arasında bu növ tarixi təhlil, dəb şəklini alaraq ziyalılıq hesab olunur.

Ancaq bizim nəzərimizcə, bu cür fikirləşən şəxslər ya islamı, ya tarixi materializmi və yaxud da heç birini düzgün dərk etmirlər. Tarixi materializmin beş mənbə və altı nəticəsinə diqqət yetirmək, islam məntiqini bilən şəxslərə kifayət edir ki, islam məntiqi və tarixi materializmin bir-birinə zidd iki qütbdə yerləşdiyini anlasın.

Tarix və cəmiyyət barəsində bu növ düşüncənin və xüsusilə də, ona yalançı islami rəng verildikdə və islami etibar möhürü vurulduqda, islami düşüncə və mədəniyyət üçün böyük təhlükə olduğunu nəzərə alaraq, lazım bilirik ki, bu anlaşılmazlıqları yaradan və ya onlar üçün mənbə ola biləcək məsələləri aydınlaşdıraq.

Bu nöqtəni də xatırladırıq ki, bizim burada həmin məsələlər barəsində söylədiklərimiz, onların bu barədə dediklərindən daha genişdir. Onlar bu barədə bir neçə ayə və hədis gətirməklə kifayətlənirlər. Ancaq biz, onların

toxunmadığı və dəlil ola biləcək digər məsələləri də gətirərək bu barədə geniş bir bəhs açacağıq.

## İSLAM NƏZƏRİNDƏN TARİXİ MATERİALİZM NƏZƏRİYYƏSİNİN TƏRƏFDARLARI

1. Quranda bir çox ictimai terminlər bəyan edilmişdir. Biz cəmiyyət haqqındakı bəhslərimzdə Quranın ictimai lüğətlərindən təqribən 50-yə yaxınını saydıq. Quranın ictimai ayələrini oxumaqla, Quran nəzərindən cəmiyyətdə iki qütblük halı müşahidə olunur. Digər tərəfdən Quran, cəmiyyətdə maddi – yəni, maddi malikiyyət və kasıblıq – iki qütblük halını göstərir və qütblərdən birini müstəkbir (hegemon) və digər qütbü müstəzəf (məzlum kütlə), adlandırır və bu iki qütbü bir-birinin qarşısında qoyur. Digər tərəfdən isə, mənəvi məhfumlara əsaslanan iki qütblülüyü göstərir və qütblərdən birini kafir, müşrik, münafiq, fasiq və s., digərini isə mömin, müvəhhid, müttəqi, saleh, mücahid, şəhid və s. adlandırır.

Əgər maddi və mənəvi qütbü tanıtdıran Quran ayələrinin mənasına fikir versək, birinci maddi qütblə birinci mənəvi və ikinci maddi qütblə ikinci mənəvi qütb arasında uyğunluğun şahidi olacağıq. Yəni kafirlər, müşriklər, münafiqlər və fasiqlər, həmin hegemonlardır; möminlər, müvəhhidlər, salehlər və mücahidlər də, elə həmin kasıblar, miskinlər, məzlumlar və məhrumlardırlar. Deməli ümumilikdə, cəmiyyət iki qütbə bölünür: Kafirlərdən ibarət varlı və zalım təbəqə; möminlərdən ibarət olan kasıb təbəqə. Bu da aşkar surətdə göstərir ki,

cəmiyyət zəif və zalım təbəqəyə bölünərək kafir və mömin adlı iki qrup əmələ gətirir. Zalımlıq şirkə, küfrə, nifaqa və fəsada səbəb olur, məzlumluq isə imanın, təqvanın və s. bünövrəsidir.

Bu tətbiqi aydınlaşdırmaq üçün, Əraf surəsinin 59-cu ayəsindən 137-ci ayəsinədək oxumaq lazımdır. Bu ayələrdə Nuh, Hud, Saleh, Lut, Şüeyb və Musa peyğəmbərin dostları qısa şəkildə nəql olunmuş və bütün bu əhvalatlarda (Lut (ə) dastanı istisna olunmaqla) peyğəmbərlərə iman gətirənlərin müstəzəf və onlara qarşı müxalifətçilik edənlərin isə varlı və zalım olduqları müşahidə olunur. Bu uyğunluğun tarixi materializm üçün lazımi şərt olan sinfi vicdandan başqa heç bir dəlili yoxdur. Deməli, əslində Quranın nəzərində iman və küfrün bir-biri qarşısında əks mövqe tutması, zalımlığın və məzlumluğun bir-biri qarşısında dayanmasının əksinədir.

Quran izah edir ki, malik olmaq – yəni malikiyyət və varlılıq – tüğyana və özbaşınalığa səbəb olur. Yəni, malik olmaq, təvazökarlığa, əməli-salehliyə ziddir. Buna misal olaraq, Quran ayəsində buyurulur:

**«Xeyr, (kafir) insan azğınlıq edər, özünün dövlətli olduğunu (bir şeyə ehtiyacı olmadığını) gördüyü üçün!» (Ələq surəsi, 6-7-ci ayələr).**

Həmçinin Quranın, malikiyyət və malik olmağın mənfi təsirlərini aydınlaşdırmaq üçün, Qarunun hekayətini söylədiyini görürük. Qarun qibti deyil, sibti idi. Yəni Musanın tayfasından olub, Fironun istismar etdiyi müstəzəf və kasıblardan idi (sibti yəhudi və qitbi isə Misirin qədim əhalisi deməkdir). Eyni halda,

həmin şəxs bəzi səbəblər üzündən varlı olduqda, kasıblardan ibarət olan öz tayfasına qarşı çıxır. Quran deyir:

**«Həqiqətən, Qarun Musa qövmündən (Musanın əmisi oğlu) idi. O, İsrail oğullarına qarşı həddini aşmışdı.» (Qəsəs-76.)**

Bunun özü sübut etmirmi ki, peyğəmbərlərin həddi aşmağa qarşı mövqe tutması, əslində malik olmaq, var-dövlət və varlıq əleyhinə idi? Quran özünün bəzi ayələrində bəyan edir ki, peyğəmbərlərin müxaliflərinin başçıları və öncülləri, nemətlər içində batan – yəni varlı təbəqə idi. Səba surəsinin 34-cü ayəsində, bu mətləb ümumi qanun formasında bəyan olunub:

**«Biz hər hansı bir məmləkətə (kafirləri Allahın əzabı ilə) qorxudan (və təşviq edən) bir peyğəmbər göndərdiksə, onu naz-nemət içində yaşayan zəngin başçıları ancaq: «Biz sizinlə göndərilənləri (Allahın hökmlərini, risaləti, möcüzələri) inkar edirik!» – dedilər.»**

Bütün bunlar, peyğəmbərlərin müxaliflərlə qarşı-qarşıya durmasının, imanın küfrlə qarşı-qarşıya durmasının, iki ictimai təbəqə olan kasıb və varlı təbəqələrin bir-birinə qarşı mövqe tutmasının inikası olduğunu aydınlaşdırır.

2. Quran müraciət etdiklərini «nas» adlandırır və nas da, kütlə – yəni məhrum və kasıb xalq deməkdir. Bu, Quranın sinfi vicdana malik olmasına dəlildir və Quran nəzərindən islami dəvəti qəbul etməyə səlahiyyəti çatan yeganə təbəqə, məhrum təbəqədir. Bu eyni zamanda islamın

xüsusi təbəqəyə meylli olduğunu da göstərir. Yəni islam, məhrum və zəiflərin dinidir, islam ideologiyasının xitab etdiyi şəxslər yalnız xalq kütlələridir. Bu özü də, iqtisadın bazis və tarixin maddi olmasının başqa bir dəlilidir.

3. Quran söyləyir ki, rəhbərlər, islahatçılar, mücahidlər, şəhidlər və nəhayət peyğəmbərlər varlı təbəqədən deyil, xalq kütləl əri içindən çıxırlar. Quran, islam Peyğəmbəri (s) barəsində deyir:

**«(Əksəriyyəti yazıb-oxumaq bilməyən) ümmi ərəblərə özlərindən peyğəmbər göndərən Odur.» (Cümə-2.)**

Ümmət, məhrum kütlədən başqa bir şey deyil. Həmçinin, haqq yolunun şəhidləri barəsində deyir:

**«(O gün) hər ümmətdən (öz peyğəmbərləri olmaqla) bir şahid çıxardacaq və (müşriklərə): «(Allaha şərik qoşmağınızın lüzumu barədə) tutarlı dəlilinizi gətirin!» – deyəcəyik.» (Qəsəs-75).**

İnqilab və hərəkat rəhbərlərinin mütləq, məhrum kütlə içindən çıxması, ictimai və etiqadi bazanın, iqtisadi və sinfi baza ilə uyğun gəlməsinin zəruriliyinə sübutdur və bu zərurət, tarixi materializm və iqtisadın bazis olmasından başqa heç bir şeylə izah oluna bilməz.

4. Quranda, peyğəmbər hərəkatlarının mahiyyəti və onların ictimai meylləri üstqurum deyil, bazisdir. Qurandan dəlil gətirmək və sübut etmək olar ki, peyğəmbərlərin risalət və göndərilmə hədəfləri ədalətin bərpası, ictimai bərabərliyin qurulması və təbəqələrarası sədlərin uçurulmasıdır. Peyğəmbərlər həmişə üstqurumdan bazisə doğru deyil, bazisdən üstquruma doğru gedirdilər.

Üstqurumlar – yəni əqidlər, imanlar, əxlaqın islahı – peyğəmbərlərin ikinci hədəfi idi və onlarla, bazisi islah etdikdən sonra məşğul olurdular. Peyğəmbər (s) buyurub: **«Maddi həyatı olmayanın, mənəvi həyatının məhsulu olan məadı da yoxdur.»**

Bu cümlə, maddiyyatın məad və maddi həyatın mənəvi həyatdan üstün və mənəvi həyatın maddi həyata bağlı olmasını xatırladır. Həmçinin, Peyğəmbər buyurub: **«Pərvərdigara! Bizə çörək məsələsində bərəkət ver. Əgər çörək olmasaydı, nə zakət olardı və nə də namaz.»**

Bu cümlə də, mənəviyyatın maddiyyata nisbətən asılı və üstqurum olmasını çatdırır.

Hal hazırda bir çoxlarının, peyğəmbərlərin yalnız üstqurumda fəaliyyət göstərməsi və xalqı mömin etmək istəməsi, onların rəftarını, əxlaqını və əqidəsini dəyişmək və islah etmək istəməsi və heç bir bazis dəyişikliyi ilə işi olmaması fikrində olmamaları və yaxud xalqın mömin olmasını istəmələri və xalqın mömin olacağı halda bütün işlərin düzələcəyini fikirləşmələri fikrində olmaları və peyğəmbərlərin yalnız, əqidə və iman silahı ilə öz məqsədlərinə çatmaları və təbii olaraq onların ardıcıllarının da eyni yolla getmələri fikrində olmaları istismarçı təbəqənin və onlara bağlı ruhanilərin, peyğəmbərlərin təlimlərini təsirsiz etmək üçün işlətdikləri hiylələrdəndir. Bu fikri o qədər işlədiblər ki, onu əksəriyyət və hətta demək olar ki, hamısı qəbul edir. Marksın təbirincə «maddi əmtəə ixrac edənlər, mənəvi əmtəə də ixrac etməyə qadirdirlər. Cəmiyyətin maddi

rəhbəri olanlar, həm də cəmiyyətin mənəvi rəhbəri və cəmiyyətin fikrinə hakim olanlardır.»[1]

Peyğəmbərlərin üslubu indi əksəriyyətin fikirləşdiyinin əksinə olub. Peyğəmbərlər öncə cəmiyyəti şirkdən, ictimai ayrı-seçkilikdən, əxlaqi və etiqadi şirkin mənbəyi olan ədalətsizlikdən (istismarçı və istismar olunan) azad etmək və sonra, əxlaq və əməli-tohidə çatdırmağı düşünürdülər.

5. Quran peyğəmbər müxaliflərinin məntiqini, tarix boyu peyğəmbərlərin və onların ardıcıllarının məntiqi ilə qarşı-qarşıya qoyur. Quran aydın şəkildə göstərir ki, müxaliflərin məntiqi mühafizəkar, fundamentalist məntiqi olub və əksinə, peyğəmbərlərin və onların ardıcıllarının məntiqi isə islahatçı, yenilikçi və modernist məntiqi olub. Quran aydın şəkildə izah edir ki, birinci qrup, ikili təbəqələrdə istismarçıların işlətdikləri məntiqlə uyğun məntiq, peyğəmbərlər və onların ardıcılları isə, məhrumların istifadə etdiyi məntiqdən istifadə edirdilər. Sanki Quranın məqsədi, müxalif və müvafiqlərin məntiqini açıqlamaq və hər iki qrumun, hansı məntiqə malik olduqlarını göstərməkdir. Bunun da səbəbi, həmin iki məntiqin – iki təbəqə, yəni məhrum və istismarçı – tarix boyunca bir-birinə qarşı durmasıdır. Quran da, bu iki məntiqi tanıtdırmaqla, bu gün üçün meyar seçməyə kömək edir.

Quranda, bu iki məntiqin bir-birinə ziddiyətini göstərən səhnələr çoxdur. İstəyənlər Zuxruf surəsinin 40-50-ci, Mömin surəsinin 23-44-cü, Taha surəsinin 49-71-ci, Şüəra surəsinin 16-49-cu və Qəsəs surəsinin 36-39-cu ayələrinə

---

[1] Alman ideologiyası.

müraciət edə bilərlər. Biz misal olaraq, Zuxruf surəsinin 20-24-cü ayələrini qeyd edir və onlar haqqında qısa şərh veririk:

**«Onlar dedilər: «Əgər Rəhman (Allah) istəsəydi, biz mələklərə ibadət etməzdik!» Onların (dedikləri sözün həqiqətə nə qədər uyğun olması barədə) heç bir biliyi yoxdur. Onlar ancaq yalan danışırlar.**

**Yoxsa onlara Qurandan əvəl bir kitab vermişik və onlar (Alllahdan başqasına ibadət etməyin mümkünlüyü barəsində) ona istinad edirlər?!**

**Xeyr, (belə bir şey yoxdur). Onlar: «Biz atalarımızı bir din üzərində (bütpərəstlikdə) gördük və biz də onların ardınca gedirik!» – deyirlər.**

**(Ya Məhəmməd!) Biz səndən əvvəl hər hansı bir məmləkətə (Allahın əzabı ilə) qorxudan bir peyğəmbər göndərdiksə, onun naz-nemət içində yaşayan başçıları sadəcə olaraq: «Biz atalarımızı bir din üzərində gördük və biz də onların yolu ilə gedəcəyik!»– dedilər.**

**(Hər peyğəmbər öz ümmətinə) belə dedi: «Əgər sizə atalarınızın sitayiş etdiyini gördüyünüz dindən daha doğrusunu gətirmiş olsam necə?!» Onlar: «Biz sizinlə göndərilənləri (şəriəti, möcüzələri) inkar edirik!» – deyə cavab verdilər.»**

Görürük ki, peyğəmbərlərin müxalifləri bəzi hallarda icbar və qəza-qədər məntiqindən istifadə edirlər – sosiologiyanın göstərdiyi kimi, bu məntiqi, həmişə

mövcud vəziyyətdən faydalanan və mövcud vəziyyətin dəyişilməsini istəməyən və qəza-qədəri bəhanə gətirənlərin məntiqidir – və bəzən də, ata-babaların adətinə əməl etməyi söyləyir, keçmişi müqəddəs və əmələ layiq kimi göstərir və bir şeyin keçmişə aid olmasını kafi bilərək, həmin şeyi düzgün sayır və ona əməl edirlər. Bu da, mühafizəkarlara və mövcud vəziyyətin dəyişməsini istəməyənlərə xas bir məntiqdir.

Qarşılıqlı olaraq peyğəmbərlər icbarlıq və fundametalizm yerinə, daha məntiqli, daha elmli olmaqdan söhbət açırlar və bu da, inqilabçıların və əzab çəkmişlərin məntiqidir. Müxaliflər peyğəmbərlər qarşısında dəlil cəhətdən aciz qaldıqda, son sözlərini – istər icbari olsun, istər olmasın, istər adətlərə hörmət edək, istər etməyək, sizin özünüzlə sizin peyğəmbərlərinizlə və sizin ideologiyanızla müxaliflik – deyirlər. Niyə? Çünki, sizin sözləriniz bizim təbəqə və ictimai mövcudluğumuza ziddir.

6. Daha aydın olanı, Quranın istismarçılarla zəiflər arasında mübarizədə mövqe tutmasıdır. Bu mövqeyə əsasən, bu iki qrup arasındakı mübarizədə son qələbə – tarixi materializmin dialektik məntiq əsasında söylədiyi kimi – zəiflərindir. Quran bu mövqeyi ilə, əslində tarixin zəruri və icbari inkişaf yolunu göstərir və o yol budur ki, zatən inqilabi xisləti olan təbəqə, özünün zatən zülmkar olan təbəqə ilə mübarizəsindən qalib çıxır və yer üzünün varisi olur.

Həmçinin Əraf surəsinin 137-ci ayəsində deyilir:

**«Zəif, həqir görünən o tayfanı (İsrail oğullarını) yer üzünün daim xeyir-bərəkət verdiyimiz şərq və**

**qərb tərəflərinə (Şam diyarına) varis etdik. (Müsibətlərə, fəlakətlərə) səbr etdiklərinə görə Rəbbinin israil övladına verdiyi gözəl sözlər (vədlər) tam yerinə yetdi. Fironun və onun camaatının qurduqları (imarətləri) və ucaltdıqları (qəsrələri, kaşanələri) isə viran qoyduq.»**

Quranın çıxartdığı bu nəticə – tarix məhrumların, əsirlərin və zəiflərin qələbəsinə doğru hərəkət edir – tarixi materializmdən çıxardığımız nəticə ilə üst-üstə düşür ki, istismarçılığın zati xislətlərindən bir də irtica və mühafizəkarlıqdır. Bu xislətlər, yaranmışların təkamül qanuna zidd olduğu üçün, icbari olaraq məhvə məhkumdur. İstismar olunmağın əsas xüsusiyyəti isə ziyalılıq, hərəkat və inqilabdır və bu xüsusiyyət, yaradılışın təkamül qaydalarına uyğun gəldiyi üçün, qalib olacaq.

Burada, bir qrup müsəlman ziyalının tətrib etdiyi məqalənin bir hissəsinə toxunmaq yerinə düşərdi. Bu əsər, bir müddət öncə kitabça formasında çapdan buraxılıb. Bu məqalədə, yuxarıdakı ayə haqqında yazılır:

**«Diqqəti daha çox cəlb edən şey, Tanrının və bütün varlığın, dünya zəifləri qarşısında mövqe tutmalarıdır. Şübhəsiz, Qurana əsasən dünya zəifləri, məhrum kütlənin oxşarıdırlar və icbari olaraq, öz müqəddəratlarının təyin olunmasında heç bir əsaslı rolları yoxdur... Bu mənanı nəzərə alaraq və Tanrının mövqeyini və varlıq üzərində hakim olan mütləq iradənin onlar üzərində minnət qoyması zəminində, belə bir sual yaranır ki,**

**Tanrının iradəsini kimlər həyata keçirir? Bu sualın cavabı aydındır. Çünki cəmiyyətlərin idarəetmə təşkilatlarını iki qütb (zəif və istismarçı) formasında nəzərdə tutsaq və digər cəhətdən də, Tanrı iradəsinin həyata keçirilməsinin, bir tərəfdən zəiflərin imamət və varisliyinə (yer üzündə), bir tərəfdən də zalım rejimlərin dağılmasına səbəb olduğunu nəzərə alsaq, başa düşərik ki, zəiflər onların nümayəndələri və içərilərindən çıxan ziyalılar Tanrının iradəsini həyata keçirirlər.**

**Başqa sözlə, seçilmiş rəsullar və zəiflər arasından çıxmış şəhidlər, zalım rejimlərlə mübarizənin ilk addımlarını atırlar və bu addımlar zəiflərin imamətə çatması üçün yol açır. Bu məna həqiqətdə, bizim, inqilabı və tarixi dəyişiklikləri Quran nöqteyi-nəzərindən tanımağımızı əks etdirir. Belə ki, tohidi inqilablar ictimai baxımdan zəiflərin imamətliyi və onların yer üzündə varisliyi məhvərində baş verdiyi kimi, bu inqilabların rəhbərləri və öncül dəstələri də, gərək zəiflər və məhrumlar içindən çıxmış olsunlar və onların ideoloji və ictimai bazaları, həmin məzlum və məhrumların ictimai və fikri meylləri ilə üst-üstə düşsün.»**

Bu sözlər, bir neçə mətləbi əhatə edir:

**A**. Quran baxımından, cəmiyyət ikiqütblüdür və zalım-məzlum təbəqələrinə bölünür.

**B**. Tanrının iradəsi, (və həmin məqalənin dili ilə desək, «Tanrını mövqeyi və varlığın bütün formaları) zəiflərin və tarix əsirlərinin varisliyi və imaməti üzərində qurulub – onlar müşrik, bütpərəst, mömin ya qeyri-mömin olsunlar, heç bir fərqi yoxdur – yəni ayədəki **«Əlləzinə»** sözü hamıya aiddir və hamı üçün faydalıdır və ilahi qanun zəiflərin istismarçılar üzərində qələbəsini vəd edir. Başqa sözlə, tarix boyu baş vermiş mübarizənin əsil mahiyyəti (bu mübarizə hal-hazırda da davam edir), məzlumlarla zalımların mübarizəsidir və dünyanın daim təkmilləşən şərəfi də, məhrumların zalımlar üzərində qələbəsini vəd edir.

**V**. Tanrının iradəsi, məzlumların özləri vasitəsilə həyata keçirilir və rəhbərlər, peyğəmbərlər, şəhidlər və öncüllər başqa təbəqələrdən deyil, məhz məzlum və kasıb təbəqədən çıxırlar.

**Q**. İctimai və fikri baza ilə sinfi mövqeyi arasında, mütləq uyğunluq olmalıdır.

Bu ayədən, bir neçə marksist prinsiplərinin sübut olunma mümkünlüyünü görürük və görürük ki, Quran Marksın doğulmasından 1200 il öncə, onun düşüncə və fəlsəfəsini bəyan etmişdir.

Fərz edək ki, Quran əsasında belə bir nəticə almışıq. Görəsən müasir tariximizi onun əsasında təhlil edərkən hansı nəticələr ala bilərik? Həmin şəxslər tələsik bu dırnaq arası Quran prinsipinə istinad edərək, nəticə almağa çalışmışlar və mövcud dini hərəkatı[1] bu şəkildə təhlil

[1] Yazıçının sağlığında, İranda olan ruhani hərəkatı nəzərdə tutulur.

etmişlər. Onlar deyirlər ki, Quran bizə inqilab rəhbərlərinin mütləq məzlum təbəqədən çıxmasını bildirmişdir və bu gün görürük ki, tarixin qarətedici sisteminin üç üzvlərindən biri olan ruhani təbəqəsi, bu gün ictimai mövqeyini dəyişərək inqilabi təbəqəyə çevrilib. Bəs məsələni necə həll edək? Cavab çox sadədir. Gərək tərəddüd etmədən bildirək ki, işin içində iş var. Hakim təbəqə öz mövqeyini təhlükədə gördüyü üçün, özünə bağlı olan ruhani təbəqəyə, inqilabçı rolunu oynamağı tapşırmışdır və bu yolla da, çalışır ki, özünü xilas etsin.

Bu da marksizm (bağışlayan, Quran) baxımından və dnyagörüşündən çıxan nəticə. Bu nəticənin bu gün kimlərə sərf etməsi məlum məsələdir.

## İRAD VƏ TƏNQİDLƏR

Tarixi materializmin Quran baxımından sübutu üçün deyilən şeylər, ya kökündən səhvdir və yaxud da düzdür, sadəcə olaraq alınan nəticə düzgün deyildir. Əvvəldə qeyd olunan dəlilləri bir-bir araşdıraq.

**Birincisi,** Quranın cəmiyyəti iki qütbə – maddi və iki mənəvi qütbə bölməsi və bu iki qütbün bir-birinə uyğun olması sözləri düzgün deyildir. Yəni Quran baxımından kafir, müşrik, münafiq və fasiqlərin zalım və istismarçı sinfə, mömin, saleh, təkallahlı və şəhidlərin isə məhrum və məzlum sinfə aid edilməsi və hər ikisinin mövqeyini materializmin əsaslarını təşkil edən bazislə uyğunlaşdırması ağ yalandır. Quranda bu iki təbəqənin uyğunluğu deyil, uyğunsuzluğundan söz açılır.

Quran öz tarixi dərslərində, istismarçılar və hakim təbəqədən çıxmış və həmin təbəqənin əleyhinə mübarizə aparan möminlərdən söhbət edir. Ali-firon qövmünün mömininləri – onun barəsində, Quranın Mömin surəsində söz açılır – bu qəbildəndir. Fironun həyat yoldaşı və onun bəhrələndiyi nemətlərdən istifadə edən qadın da onun kimidir. Quranda onun haqqında da söhbət açılıb.[1]

Quran bir neçə yerdə həyacanlı şəkildə Fironun sehrbazlığından söz açır və göstərir ki, bəşərin haqq axtaran və həqiqət aşiqi olan fitri vicdanı haqq və həqiqətlə üzləşdikdə yalan və zülmün əleyhinə qalxır, öz mənafeyinə arxa çevirir və hətta Fironun təhdidindən də – sizin hamınızı, bir qolunuz və bir ayağınız kəsilmiş halda dar ağacından asacağam deməsindən – qorxmurlar.

Musa (ə) qiyamı – Quranın söylədiyinə əsasən – tarixi materializmi inkar edən qiyamdır. Doğrudur ki, Musa da yəhudidir və nəsil etibari ilə Ali-firondan deyil, Bəni-israil nəslindəndir, ancaq Musa (ə) körpəlikdən Fironun evində böyüyüb və bir şahzadə kimi tərbiyə olunub. O həzrət, Firon rejiminə qarşı – halbuki, bu rejimdə yaşayır və ondan bəhrələnirdi – üsyan etdi və onu tərk edərək, çobanlığı şahzadəlikdən üstün tutdu və nəticədə, peyğəmbərliyə layiq görüldü və rəsmi olaraq Fironla mübarizəyə başladı.

Rəsuli-əkrəm (s) körpəlikdən yetim qalmış və cavanlıq dövründə də kasıb olmuşdur. Xədicə ilə evləndikdən sonra var-dövlətə çatdı. Quran bu nöqtəyə işarə edir: **«Məgər o səni yetim ikən tapıb sığınacaq vermədimi?! Səni**

---

[1] Təhrim surəsi, 11-ci ayə.

**yoxsul ikən tapıb dövlətli etmədimi?!» (Züha, 6 və 8-ci ayələr).**

Məhz həmin rifah dövründə ibadətlə məşğul olmağa və xəlvətə çəkilməyə başladı. Tarixi materializm prinsipinə əsasən Rəsuli-əkrəm (s) bu dövrdə mühafizəkar və mövcud rejimin qalmasını istəyən şəxsə çevrilməli idi. Ancaq həmin dövrdə, inqilabi peyğəmbərlik başladı və varlılar, sələmçilər və Məkkə quldurları əleyhinə mübarizəyə qalxdı və həmin yaşayışın simvolu olan bütpərəstlik əleyhinə üsyan etdi.

Möminlər, müvəhhidlər və inqilabçıların hamısı zəif və məzlum təbəqədən olmadığı kimi, – Peyğəmbər pak fitrətləri və az aludə olmuş şəxsləri, istismarçı təbəqə içindən seçir və onları özlərinə (tövbə) və öz təbəqələrinə (inqilab) qarşı təşviq edirdi – zəif təbəqənin də hamısı möminlər və inqilabçılar qrupuna aid deyil. Quran müxtəlif səhnələri misal çəkir və həmin səhnələrdə məzlumların bəzi qruplarını tənqid və kafir qruplardan hesab edərək, onları ilahi əzaba layiq bilir.[1]

Deməli, nə bütün möminlər zəif təbəqədəndirlər və nə də bütün zəiflər möminlər sinfinə aiddir. Bu iddia puç bir şeydir. Əlbəttə şəksiz, həmişə peyğəmbərlərə qoşulan təbəqənin əksəriyyətini zəiflər və ən azı, istismarçı olmayan təbəqə təşkil edir və peyğəmbərlərə müxalif qrupun əksəriyyəti isə, istismarçılar olurdular. Amma bütün bunlarla yanaşı, bir şeyə diqqət yetirmək lazımdır ki, ilahi vəhyi qəbul etmək üçün zəminə yaradan insan fitrəti hamıda vardır, istismarçı və israfçı təbəqə böyük

[1] Nisa-97, İbrahim-21, Səba-31-37, Ğafir-47-50.

maniyəyə düçar olub və bu maneə, mövcud vəziyyətə adət etmə və aludəlikdir. Həmin təbəqə, gərək aludəlik yükü altından çıxaraq özünü azad etsin və bu da çox az adama nəsib olur. Ancaq zəif təbəqənin qarşısında, bu maneə yoxdur. Əksinə o, öz fitrətinin çağırışına cavab verməkdən əlavə, öz itirilmiş hüququnu da bərpa etməyə nail olur. Onun üçün iman əhlinə qoşulmaq həm tamaşadır, həm də xoş gələcəyə ümidlə yanaşmaq. Məhz buna görə də, peyğəmbərlərə qoşulanların əksəriyyəti kasıblardan və çox az hissəsi başqa təbəqələrdəndir. Ancaq uyğunluq məsələsi məhz puç bir şeydir.

Tarix barəsində Quranın əsasları, tarixi materializmin əsasları ilə fərqlidir. Quran baxımından ruh əsildir və maddənin ruh üzərində heç bir üstünlüyü yoxdur. Mənəvi ehtiyaclar və insan bədənindəki mənəvi tələbatlar daha mühümdür və maddi ehtiyaclara bağlılığı yoxdur. Həmçinin düşünücə əmək bərabərində daha mühümdür. İnsanın psixoloji və fitri şəxsiyyəti onun ictimai şəxsiyyətindən daha öncül və mühümdür.

Quran, fitrətin mühümlüyünə və hər bir insanın – hətta Firon kimi zalımların da – daxilində zəncirlənmiş bir insanın olduğuna əmin olduğu üçün, hətta ən zalım adam üçün də həqiqətə tərəf hərəkət etmək imkanı yaratmışdır. Elə bu səbəbdən də, Allahın peyğəmbərləri ilk növbədə zülmkarların islahına çalışmaq üçün göndərilmişlər. Bu yolla zəncirlənmiş insan fitrəti azad olunmalı və onların batini şəxsiyyəti, ictimai və mənfi şəxsiyyətlərinin əleyhinə təşviq edilməlidir. Məlum olduğu kimi, bir çox hallarda bu müvəffəqiyyət baş verib və onun adına «tövbə» deyilir.

Musa (ə) öz peyğəmbərliyinin ilk dövründə Fironun hüzuruna getmək, onun fitrətini oyatmaq və bu iş baş tutmadıqda isə, onunla mübarizəyə başlamaq göstərişi alır. Musanın nəzərində, Firon öz batini insaniyyətini zəncirləyib və buna görə də ətrafında olan insanları əsir edir. Musa ilk növbədə, Fironun daxilindəki əsiri Firon əleyhinə qaldırmaq istəyir və əslində, Fironun həqiqi varlığını – ən azı o, yarım insandır – ictimai firon əleyhinə – yəni, cəmiyyətdə formalaşmış firon – həvəsləndirməlidir.[1]

Quran hidayət, irşad, moizə və məntiqi isbata lazımi qiymət verir. Quranın fikrincə, bunlar insanı dəyişdirib və onun həyat yolunu əvəz edə bilər. Onun dixilində inqilab yaradıb şəxsiyyətini ucalda bilər. Quran, ideologiya və düşüncəni məhdud hesab etmir. Əksinə, marksizm və materializm, hidayət və bəndəçiliyin rolunu məcazi təbəqənin həqiqi təbəqəyə çevrilməsi ilə məhdudlaşdırır – yəni təbəqələrarası ziddiyətlərin özünüdərketməyə daxil olunması ilə.

**İkincisi,** əvvəldə qeyd edildi ki, Quranın müraciət etdiyi şəxslər ərəbcə «nas» kəlməsidir ki, mənası məhrum və məzlum kütlə deməkdir. Deməli, islamın müxatəbi məhrum təbəqədir və islamın ideologiyası da məhrum təbəqənin ideologiyası olmalıdır. İslam, təbii olaraq öz ardıcıllarını yalnız, məhrum kütlə içərisindən seçir. Bu sözlər də səhvdir. Əlbəttə, Quranın müxatəbi nasdır, ancaq nas insan deməkdir, yəni bütün xalqlar. Heç bir lüğət

[1] Nazilat 17-19, Taha 44-45.

kitabı nası məhrum kütlə mənasında qəbul etmir və onu təbəqə mənasında məhdudlaşdırmır. Quran deyir:

**«Onun yoluna (ərzaq, minik və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur.» (Ali-İmran-97).**

Burada məqsədin məhrum təbəqə olmasının nə mənası var? Həmçinin Quranda, **«Ya əyyuhən-nas»** müraciətlərinin məqsədi məhrum təbəqə deyil, ümumi xalqdır. Quran xitablarının ümumi olmasının mənbəyi, Quranda bəyan olunan fitrət nəzəriyyəsidir.

**Üçüncüsü,** Quranın, rəhbər, peyğəmbər, şəhid və qabaqcılların yalnız, zəiflər içindən çıxmasını iddia etməsi də, Quran barəsində düçar olunan digər bir səhvdir. Quran, belə bir söz deməyib.

«Peyğəmbər ümmət... içindən çıxıb» ayəsini dəlil gətirmək və ümmətin, xalq kütləsi demək olduğunu iddia etmək də çox gülünc bir işdir. Ayədəki, **«Ummiyyin»** sözü **«ummi»** – yəni savadsız – sözünün cəmidir və **«ummi»** də **«um»** sözündən yaranır (ümmət sözündən yox). Hətta «ümmət», yəni cəmiyyət – müxtəlif qrup və təbəqələrdən ibarət cəm – xalq kütləsi demək deyil. Bundan da gülünc məsələ, Qəsəs surəsinin şəhidlər barəsindəki 75-ci ayəsinin dəlil gətirilməsidir. Ayədə buyurulur:

**«(O gün) hər ümmətdən (öz peyğəmbərləri olmaqla) bir şahid çıxardacaq və (müşriklərə): (Allaha şərik qoşmağınızın lüzumu barəsində) tutarlı dəlilinizi gətirin! – deyəcəyik.»**

Bu ayəni, belə təfsir edir və əslində dəyişdirirlər: Biz hər ümmətdən şəhidi (Allah yolunda canından keçəni) ayağa qaldırarıq, yəni onu inqilabi şəxs edərik və o halda, ümmətlərə deyərik ki, hər biriniz öz dəlilinizi – yəni Allah yolunda canından keçmiş və şəhid olmuş inqilabi şəxsiyyəti – gətirin.

Birincisi, bu ayə başqa bir ayənin davamıdır və hər iki ayə qiyamətə aiddir. Əvvəldəki ayə belədir:

**«Qiyamət günü Allah müşriklərə müraciət edib belə buyuracaqdır: Şərikim olduqlarını iddia etdikləriniz (bütlər, tanrılar) haradadırlar?»**

İkincisi, **«nəzənə»** sözünün mənası **«ayıracağıq»** deməkdir. Onların dedikləri kimi, «ayağa qaldıracağıq» demək deyil.

**Üçüncüsü,** bu ayədəki «şəhid» sözü, «Allah yolunda ölmüş» demək deyil, əməllərə şahidlik etmək mənasındadır. Quran hər bir peyğəmbəri öz ümmətinin əməllərinə şahid sayır. Quranda, «şəhid» sözünü bu günkü mənasında – Allah yolunda canından keçmiş – işlənməsinə, hətta bir dəfə də olsun rast gəlmək olmaz. Əlbəttə, «şəhid» sözü özünün bu günkü mənasında, Allah peyğəmbərinin və imamların sözlərində işlənib, lakin Quranda işlənməyib. Görürsünüz ki, bir marksist əqidəsini sübut etmək üçün Quran ayəsini necə dəyişirlər.

**Dördüncüsü,** peyğəmbər hədəfinin nə olduğu barədə – birinci hədəf ədalətin bərpasıdır, ya birinci hədəf Allah ilə bəndə arasında iman və mərifət bağlılığı yaratmaqdır, yaxud hər ikisi (yəni peyğəmbər iki hədəfə malikdir), yaxud başqa bir yol da var – «Nübuvvət» (peyğəmbərlik)

bəhsində bu barədə söz açmışıq və artıq onu burada təkrar etməyəcəyik. Burada mətləbi, peyğəmbərlərin iş metodu və üslubu nəzərindən araşdıracağıq. Əməli-tohid bəhsində söylədiyimiz kimi,[1] peyğəmbərlər nə bəzi sufilərin düşündükləri kimi, bütün səylərini, insanın bu cəhətdə islahı üçün sərf edir (insanın daxilindən azad etmək üçün), yəni onların əşyalarla əlaqəsini kəsmək istəyirlər, nə də bəzi maddi məktəblər kimi daxili əlaqələrin islahı üçün xarici əlaqələrin islah olunmasını kafi sayırlar. Qurani-kərim bir cümlədə deyir:

**«(Ya Məhəmməd!) Söylə ki: «Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin!» (O kəlmə budur ki:) «Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi özümüzə rəbb qəbul etməyək!»...» (Ali-İmran-64).**

Məsələ, peyğəmbərlərin öz işlərini daxildən və ya xaricdən başlamasıdır? Birinci əqidə, iman və mənəvi həyacan yaradaraq daxili inqilab etməklə, fikri, hissi, mənəvi və tohidi inqilaba çatmış xalqı, ictimai tohidə və ictimai islah və ədalətin bərpası üçün ayağa qaldırır. Və yaxud əvvəl, maddi aləmlərə təzyiq göstərməklə – yəni, məhrumiyyətə, mənəviyyata və istismar olunmağa fikir verməklə – xalqı hərəkətə gətirir və ictimai şirk və ayrı-seçkiliyi aradan qaldırır və sonra iman, əxlaq və əqidə axtarışına başlayır?

---

[1] Bu toplunun ikinci hissəsi «Tohid dünyagörüşü» kitabı, səh-51-53.

Kiçik bir mütaliə ilə peyğəmbərlərin davranışlarına diqqət yetirsək, məlum olar ki, peyğəmbərlər, islahatçılar və bəşər islahatının iddiaçılarına zidd olaraq fikir, əqidə, iman, mənəvi istək, ilahi eşq və məadı xatırlamaqdan başlayır.

Surələrin ardıcıllığı və nazil olmuş Quran ayələrinin tərtib sırası və həmçinin, Rəsuli-əkrəmin həyatının mütaliəsi qeyd olunan mətləbi tam şəkildə aydınlaşdırır.

**Beşincisi,** peyğəmbər müxaliflərinin mühafizəkar əqidəyə malik olması məntiqi və təbii bir şeydir. Əlbəttə, əgər Qurandan belə bir məna çıxsa idi ki, peyğəmbərlərin müxalifləri istisnasız olaraq bu məntiqə sahib olublar, onda aydın olardı ki, onların hamısı varlı, istismarçı təbəqədən olublar. Ancaq Qurandan çıxan nəticə budur ki, bu məntiq, müxaliflərin başçılarının məntiqidir və onlar Marksın dili ilə desək, cəmiyyətin maddi əşyalarının sahibləridir. Mənəvi şeyləri isə yerdə qalan xalq üçün ixrac edirdilər. Peyğəmbərlərin məntiqində təhərrük, düşüncə və adətlərə etinasızlıq məntiqi olması da, təbii bir şeydir və elə belə də olmalıdır. Ancaq ona görə yox ki, məhrumiyyətlər və mənəviyyatlar və istismara düçar olmalar onların vicdanını bu şəkilə salır və bu məntiq, onların məhrumiyyətinin təbii nəticəsidir. Əksinə, bu ona görədir ki, onlar insanlıqda, yəni məntiq, düşüncə və insani hisslərdə kamilliyə çatıblar. Sonralar deyəcəyik ki, bəşər insanlıqda inkişaf etdiyi qədər, təbii və ictimai mühitə, eləcə də maddi şəraitə bağlılığı azalır və azadlığa yetişir. Peyğəmbərlərin müstəqil məntiqi, adət-ənənələrə bağlı olmağı qadağan edir və xalqı da bu adətlərə kor-koranə əməl etməkdən yayındırır.

**Altıncısı,** «istizaf» (zəif sayma) barəsində deyilənlər də, qəbul oluna bilməz. Niyə? Ona görə ki, birinicisi, Quran özünün digər ayələrində, açıq şəkildə tarixin sonunu – yeri gəlmişkən tarixin təkamülünü də aydınlaşdırır – fərqli şəkildə bəyan edib və həmin ayələr, bu ayənin müddəalarını – müddəalarının yuxarıda iddia olunanlar olduğunu qəbul etsək – aydınlaşdırıb təfsir edir və onu şərti hala salır. İkicisi, yayılmış və formalaşmış fikrin əksinə olaraq, istizaf ayəsi heç bir ümumi prinsipi açıqlamamışdır ki, lazım olduqda bu mövzuda olan sair ayələrlə müqayisə olunsun və ya izah edilsin. Bu ayə, özündən əvvəlki və özündən sonrakı ayələrlə bağlıdır. Həmin iki ayəyə əsasən, aydın olur ki, bu ayə iddia olunduğunun əksinə olaraq, heç bir ümumi prinsipi bəyan etmir. Deməli, bizim bu ayə barəsindəki bəhsimiz iki yerə ayrılır: Birinci hissədə belə fərz olunur ki, bu ayəni özündən əvvəlki və sonrakı ayədən ayırıb, ondan bir tarixi ümumi prinsip kimi istifadə edirik. Eyni zamanda onu bu ayədən çıxan prinsiplə zidd formada söyləyən ayələrlə müqayisə edirik ki, görək bunların sintezindən nə alınacaq. İkinci hissədə isə, bəhs bu ayənin iddia olunduğu kimi, heç bir tarixi ümumi prinsip bəyan etmək iqtidarında deyil.

**Birinci hissə:** Quranın bir neçə ayəsində, tarixin aqibəti və tarixin təkamül yolu, imanın imansızlıq, təqvanın ədəbsizlik, yaxşı əməlin pis əməl üzərində qələbəsi formasında verilmişdir. Nur surəsinin 55-ci ayəsində oxuyuruq:

**«Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə – yalnız Mənə ibadət edərlər, heç nəyi**

**Mənə şərik qoşmazlar deyə – onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini (İsrail övladını yer üzündə kafirlərin yerinə gətirdiyi kimi, onları da müşriklərin yerinə gətirəcəyini), möminlər üçün onların Allahın özü bəyəndiyi dinini (islamı) möhkəmləndirəcəyini (hər tərəfə yayacağını) və onların qorxusunu sonra əmin-amanlıqla, arxayınçılıqla əvəz edəcəyini vəd buyurmuşdur...»**

Bu ayədə, vədə, son qələbə, xilafət və yer üzünün varislik müjdəsi verilən kəslər, yaxşı iş görən möminlərdir. Orada «istizaf» ayəsinin əksinə olaraq, zəiflik, məhrumiyyət və məzlumiyyət barəsində təkid olunur (ideoloji, əxlaqi və sair xüsusiyyətlər barəsində təkid olunur) və əslində, xüsusi bir əqidə, iman və rəftarın qələbəsi və hakimliyi müjdəsi verilir. Başqa sözlə, bu ayədə imana çatmış, həqiqəti tapmış və doğrunu sevən insanın qələbəsi vəd olunur. Bu qələbədə müjdə verilən şeylərdən biri xilafət – yəni qüdrətin ələ keçirilməsi və digərlərinin qüdrətdən kənarlaşdırılması – və digəri, dinin bərqərar olması – yəni bütün əxlaqi və ictimai islam dəyərlərinin (ədalət, təqva, şücaət, məhəbbət, ibadət və s.) həqiqətə çevrilməsi – və üçüncüsü, ibadətdə istənilən növ şirkin inkar olunmasıdır.

Əraf surəsinin 128-ci ayəsində belə deyilir:

**«Musa öz tayfasına: «Allahdan kömək diləyin və səbr edin. Yer üzü Allahındır. Bəndələrindən istədiyini onun varisi edər. Aqibət (dünyada zəfər,**

**axirətdə yüksək məqamlar) müttəqilərindir!» – dedi.»**

Yəni Allahın qanunu budur ki, işin sonunda təqvalı şəxslər yer üzünün varisi olacaqlar.

Ənbiya surəsinin 105-ci ayəsində buyurulur:

**«Biz Tövratdan (yaxud lövhi-məhfuzdan) sonra Zəburda da cənnət torpağına (yer üzünə və ya müqəddəs torpağına) yalnız Mənim saleh bəndələrimin sahib olacağını (varis olacağını) yazmışdıq.»**

Bu mövzuda sair ayələr də mövcuddur.

İndi nə edək? İstizaf ayəsini əsas götürək, ya istixlaf (xəlifə etmə, xəlifə sayma) ayəsini və yaxud digər ayələri? Deyə bilərikmi ki, bu iki növ ayə zahirdə iki mənaya malik olmasına baxmayaraq, bir həqiqəti bəyan edirlər və o da budur ki, müstəzəflər həmin möminlər, salehlər və müttəqilərdir və əksinə, istizaf onların ictimai və sinfi, iman, əməl və təqva isə onların ideoloji adlarıdır? Əlbəttə belə deyildir. Çünki:

**Birincisi,** bir qədər əvvəl sübut etdik ki, üstqurum sözləri olan iman və təqvanın, bazis sözləri olan zəiflik, məhrumiyyət və s. ilə uyğun gəlməsi nəzəriyyəsi, Quran nəzərindən düzgün deyil. Quran nəzərindən ola bilər ki, müəyyən bir qrup mömin olduğu halda müstəzəf olmasın və yaxud da ola bilər ki, müstəzəf olsun, ancaq mömin olmasın. Quranda hər iki qrupdan danışılmışdır. Əlbəttə, işarə etdiyimiz kimi, təbəqəli cəmiyyətdə ilahi dəyərlər olan ədalət, ehsan və s. şeylərə əsaslanan tohid ideologiyası meydana çıxdıqda aydındır ki, onun əksər

ardıcıllarını müstəzəflər təşkil edəcəklər. Çünki, müxalif qrupun fitrətinin yolunda olan maniələr, onlarda yoxdur. Ancaq heç vaxt möminlər təbəqəsini, yalnız müstəzəflər təşkil etmirlər.

**İkincisi,** bu ayələrdən hər biri tarixin iki mexanizmini bəyan edir. İstizaf ayəsi tarixin yolunu təbəqələrarası müharibə adlandırır və hərəkət mexanizmini zalım təbəqənin təzyiqi, onların fitri və mürtəce ruhiyyələri və zəif təbəqənin istismar olunduğu üçün inqilab ruhiyyəsi kimi işıqlandırır və bu müharibənin son nəticəsi, zəif təbəqənin qələbəsidir. Məsələn, bu nəticə istiqlal əldə etmiş bir sıra ölkələrin istismar olunmuş xalqlarına da aid olur. Əgər ilahi baxımdan ayənin mənasını izah etmək istəsək, deməliyik ki, bu ayə Quranda gəlmiş haqqın məzlumdan himayəetmə prinsipini **«(Ya Məhəmməd!) Allahı zalımların etdikləri əməllərdən əsla qafil sanma!»,**[1] yəni Tanrının ədalətini işıqlandırır və ayənin mənasına əsasən, «vərasət» və «imamət» adlandırılanlar ilahi ədalətin təcəssümüdür.

Ancaq istixlaf ayəsi və digər ona bənzər ayələr təbii proses baxımından, tarixin digər mexanizmini göstərir və ilahi baxımdan ilahi ədalətə nisbətən daha geniş olan və ilahi ədalətin də içində yer aldığı bir prinsipi göstərir.

Bu və buna bənzər ayələrin göstərdiyi mexanizm, dünyada mövcud və maddi mahiyyətə malik olan müxtəlif mübarizə növləri içərisində **«Lillah»** və **«Fillah»**, müqəddəs, maddi fikirlərdən uzaq və peyğəmbərlərin, onların ardınca da möminlərin rəhbərlik etdikləri

---

[1] İbrahim surəsi, 42-ci ayə.

mübarizələr olduğunu göstərir. Bu mübarizələr, bəşəriyyəti insan mədəniyyəti əsasında irəli aparır. Yalnız bu mübarizələri haqqın batil əleyhinə mübarizəsi adlandırmaq olar. Tarixi, insaniyyət və insani mənəviyyat baxımından irəli aparan da, məhz bu mübarizələrdir. Bu mübarizənin əsas hərəkətverici qüvvəsi, başqa təbəqənin təzyiqi deyil, həqiqət istəyi və mövcud vəziyyəti olduğu kimi tanımaq və ədalət istəyi – yəni, cəmiyyəti tələb olunan formada qurmaq – olmuşdur. Bəşəri inkişaf etdirən məhrumiyyət və məzlumiyyət hissi deyil, insanın fitrətində olan kamillik axtarışı hissi olmuşdur.

İnsanın heyvani istedadları tarix boyu dəyişilməmiş və elə tarixin əvvəlində olan həddə qalmışdır. Bu istedadlar inkişaf etməmiş və etməyəcək də. İnsanın insani istedadları isə, tədriclə genişlənir və o qədər inkişaf edəcəkdir ki, gələcəkdə insan özünü maddiyyat və iqtisadi amillərin əsarətindən qurtaracaq və əqidə ilə imana tapınacaq. Tarixin inkişaf etdiyi zəminə maddi, mənfəət və təbəqələrarası mübarizə deyil, ideoloji, iman və s. mübarizədir. İnsan təkamülünün təbii mexanizmi və haqq yolu mücahidlərinin, salehlərin son qələbəsi budur.

Bu qələbənin ilahi cəhətinə gəldikdə isə, qeyd etməliyik ki, həmin cəhətdən tarix boyu baş verən və təkmilləşən və nəhayət öz sonuna çatan, ilahiliyin və rəhmətin (Tanrıya məxsus olan) zühurudur. Bunlar varlıqların təkamülünü icbari edirlər. Başqa sözlə, müjdə verilən şey Tanrının cabbarlığı və intiqamçılığı deyil, Onun ilahiliyi, rəhimliliyi və kəramətli olmasının zühurudur.

Görürük ki, istizaf və istixlaf ayələri və onlara bənzər ayələrin hər biri, özünəməxsus məntiqə malikdir. İstər

qalib gələn təbəqə və həmin qələbəyə çatmaq üçün keçilən tarixi yol cəhətdən, istərsə də mexanizm – yəni, tarixi hərəkətin təbii amili – və ilahi cəhətdən, onların hər birinin öz məntiqi var. Həmçinin aydın oldu ki, istixlaf ayəsi alınan nəticələr baxımından daha ətraflıdır. Bəşərin istizaf ayəsinə əsasən nail olduğu şey onun kiçik bir hissəsidir. İstizaf ayəsinin göstərdiyi dəyər – yəni, zülmün məzlumdan uzaqlaşdırılması, başqa sözlə desək, Tanrının məzlumları himayə etməsi – istixlaf ayəsinin verdiyi dəyərlərdən biridir.

**İkinci hissə:** Həqiqət budur ki, istizaf ayəsi ümumi prinsip bəyan etmək məqamında deyil və nəticə olaraq da, nə tarixin axarını işıqlandırır, nə tarixin mexanizmi haqqında söz açır, nə də onun son qələbəsini məzlum kütlələrlə – zəif olduqları üçün – əlaqələndirir. Bu ayənin ümumi prinsip bəyan etməsi kimi səhv bir fikir, bu ayəni özündən əvvəlki və sonrakı ayədən ayırmağın və **(Əlləzinə)** sözünü hamıya aid etməyin və o halda, ondan ümumi prinsip almağın nəticəsidir və bu, istixlaf ayəsində irəli gələn prinsiplə ziddiyyət təşkil edir. İndi ayəni bütövlükdə veririk:

**«Həqiqətən, Firon yer üzündə (Misirdə) baş qaldırıb, onun əhalisini zümrələrə bölmüşdü. (Hər zümrə ona bir cür xidmət göstərirdi). Firon onların arasında olan bir tayfanı (İsrail oğullarını) gücsüz, aciz görüb onların (yeni doğulan) oğlan uşaqlarını öldürür, qızlarını isə sağ buraxırdı (çünki, kahinlər Firona israil övladından bir oğlan doğulacağını və böyüyəndən sonra onu öldürüb səltənətinə sahib**

**olacağını xəbər vermişdilər). O, həqiqətən, (yer üzündə) fitnə-fəsad törədənlərdən idi!**

**Biz də o yerdə zəif düşüb əzilənlərə bol nemət vermək, onları rəhbər etmək, Fironun mülkünə varis etmək və onları yer üzündə yerləşdirib qüdrət sahibi etmək, Firona, (onun vəziri) Hamana və hər ikisinin qoşunlarına onların qorxduqları şeyi göstərmək istədik.» (Qəsəs 4-6).**

Görürük ki, üçüncü ayənin «və onları yer üzündə yerləşdirib...» və «Firona və Hamana... göstərmək istədik» cümlələri, ikinci ayənin **(Ən-numinnə)** ifadəsinə aiddir. Buna görə də bu iki ayəni bir-birindən ayırmaq olmaz. Digər tərəfdən görürük ki, üçüncü ayənin ikinci cümləsindəki «Firona və Hamana... göstərmək istədik» sözləri, birinci ayənin mənasına aiddir və birinci ayə də zülmləri sadalanan Fironun aqibətini açıqlayır. Deməli, üçüncü ayəni birinci ayədən ayırmaq olmaz və üçüncü ayəni ikincinin tamamlayıcısı olduğu üçün, ikinci ayəni də birincidən ayırmaq olmaz.

Əgər üçüncü ayə olmasaydı, yaxud üçüncü ayədə Fironun və Hamanın aqibəti açıqlanmasaydı, ikinci ayəni birincidən ayırmaq və onu müstəqil sayaraq, ümumi prinsip çıxarmaq olardı. Ancaq bu üç ayənin qırılmaz əlaqəsi ümumi prinsipin alınmasına, yaxud çıxarılmasına mane olur. Əldə olunan budur ki, Firon ayrı-seçkilik salır, insanları öldürür və fitnə-fəsad törədirdi. Həmin anda biz belə qərara gəlmişdik ki, həmin təhqir olunan məzlum və məhrum xalqa yaxşılıq edək və onları rəhbər və varis təyin

edək. Deməli, ayədəki **(Əlləzinə)** sözü hamıya deyil, yalnız «əhd bağlamış» qrupa aiddir.

Bundan başqa ayədə daha bir nöqtə vardır və o da budur ki, «rəhbər etmək...» cümləsi **(Ən-nəmunnə)** ifadəsinə aiddir və mənası da budur ki, «onlara yaxşılıq edək və onları rəhbər və s. təyin edək». Əgər iddia olunduğu kimi yazılasaydı, məna belə olardı «Onlara etdiyimiz yaxşılıq, rəhbərlik və varislik əta etmək olardı». Əsl məna budur: «Bizim istədiyimiz bu oldu ki, həmin məzlumlara peyğəmbər və səmavi kitab göndərməklə (Musa və Tövrat) və dini təlim-tərbiyə və dini etiqad verməklə yaxşılıq edək və onları iman əhli və salehlərdən qərar verək və nəticədə, onları yer üzəndə rəhbər və varis təyin edək.

Buna görə də, istizaf ayəsinin mənası xüsusi olmağına baxmayaraq, istixlaf ayəsinin mənası ilə eynidir. Yəni, həmin ayənin dəlillərindən birini nəql edir. Hətta bunu nəzərə almasaq belə, zənn etmək olmaz ki, ayə İsrail övladlarını zəif və məzlum olduqları üçün yer üzünün varisi və rəhbəri qərar verdi. Yəni bu iş Musa (ə) peyğəmbərin zühur edib-etməməsindən, onun təlimlərinin gəlib-gəlməməsindən və onların bu təlimləri qəbul edib-etməməsindən asılı olmayıb. Əlbəttə qeyd olunduğu kimi, bu heç də belə deyildi.

Ola bilər ki, islam baxımından tarixi materializm nəzəriyyəsinin tərəfdarları, başqa bir mətləbi söyləyirlər – islam mədəniyyəti, ruh və məna baxımından ya aşağı təbəqənin, ya istismarçı təbəqənin, yaxud da hamının ümumi mədəniyyətdir. Əgər islam mədəniyyəti zəif təbəqənin mədəniyyətidirsə, gərək məcburi olaraq öz

təbəqəsinin xüsusiyyətlərini qəbul etsin. Müraciətləri, meylləri və s. hamısı zəiflərə aid olmalıdır. Əgər islam mədəniyyəti istismarçı təbəqənin mədəniyyətidirsə, bu təbəqənin xüsusiyyətlərinə malik olaraq tamamilə onun mehvərində fırlanmaqla yanaşı zalım və anti-bəşəri bir mədəniyyət də olacaqdır və bu da ilahi bir dinlə uyğun gəlmir. Heç bir müsəlman bu nəzəriyyəni qəbul etmir və bundan başqa həmin mədəniyyətin özü də bunun əksini sübut edir. Qalır islam mədəniyyətinin əhatəli və ümumi bir mədəniyyət olması. Əhatəli mədəniyyət, bitərəf mədəniyyət deməkdir. Eyni zamanda məsuliyyətsiz, özünü kənara çəkən bir mədəniyyətdir. Su ilə odu, zalımla məzlumu, istismarçı ilə istismar olunanı barışdıraraq, bir dam altına yığmaq istəyən bir mədəniyyətdir. «Nə şiş yansın, nə kabab» şüarı ilə hərəkət edən bir mədəniyyətdir. Belə bir mədəniyyət də faktiki olaraq mühafizəkar bir mədəniyyət hesab olunur və təbii olaraq, istismarçı təbəqənin xeyrinədir. Məsələn, əgər hər hansı bir qrup bitərəf, məsuliyyətsiz və hadisələrin fərqinə varmayan olub qarətçi təbəqə ilə qarət olunan təbəqə arasındakı mübarizəyə qarışmazsa, faktiki olaraq zalım bir sinfi himayə etmiş olur. Həmçinin bir mədəniyyətin ruhu bitərəflik olarsa, faktiki olaraq onu, istismarçı təbəqənin mədəniyyəti kimi tanımalıyıq. İslam mədəniyyətinin bitərəf, yaxud istismarçı təbəqəyə meylli olmamasını qəbul etsək, onda onu zəif və məzlum təbəqənin mədəniyyəti saymalı, çağırış və müraciətini və s. də onlara aid etməliyik.

Bu sözlər tamamilə səhvdir. Zənnimcə, bir sıra müsəlman ziyalılarının tarixi materializmə meyl etmələrinin səbəbi iki şeydir:

Birincisi, onlar elə fikirləşirdilər ki, islam mədəniyyətini inqilabçı mədəniyyət saymaq istəsələr, yaxud islam üçün inqilabi mədəniyyət yaratmaq istəsələr, tarixi materializmdən başqa bir yol yoxdur. Bizim Quran anlayışımız belədir və istizaf ayəsindən də belə başa düşdük ki, bu iddiaların hamısı bu növ düşüncə üçün bəhanədir. Elə burada da, onlar islam məntiqindən uzaq düşür və islamın pak, insani, fitri və ilahi məntiqini materialist məntiqi həddinə endirirlər.

Bu ziyalılar elə zənn edirlər ki, mədəniyyətin inqilabi olmasının yeganə yolu, onun yalnız məhrum və məzlum təbəqəyə mənsub olmasıdır. Bu təbəqədən çıxmaq, bu təbəqənin xeyrinə çalışmaqdır, rəhbər və öncüllərinin ictimai bazasının bu təbəqədən olması və həmin mədəniyyətin digər qrup və təbəqələrlə əlaqəsinin başqa şey deyil, məhz mübarizə və düşmənçilik olmasıdır.

Bu ziyalılara görə, inqilabi mədəniyyətin yolu mütləq qarın və dolanışıqla nəticələnməlidir və tarixin bütün böyük inqilabları, hətta peyğəmbərlər tərəfindən edilən inqilablar da, yalnız qarın üçün olmuşdur. Elə buna görə də imanlı, əməli-saleh və mücahid Əbuzəri, qarınqulu Əbuzər etmişlər və guya o, aclığı yaxşı dərk edir və öz aclığı xatirinə qılınc çəkməyi və xalqın canına düşməyi rəva və hətta, lazım və vacib bilirdi. Vücudunun ən böyük dəyəri bu idi ki, şəxsən aclıq çəkdiyi üçün öz təbəqəsinin aclarının nə çəkdiyini bilir, ac xalqın dərdini hiss edir və bu aclığa səbəb olan təbəqə ilə daimi mübarizə aparırdı.

Onlar islamın bu böyük şəxsiyyətini yalnız bu xüsusiyyətlə məhdudlaşdırırlar.

Bu ziyalılar elə düşünürlər ki, Marksın dediyi kimi: «İnqilab yalnız barışmaz və kütləvi hərəkatdan yaranır.»[1]

Onlar təsəvvür edə bilmirlər ki, əgər bir məktəb, bir mədəniyyət, bir ideologiya ilahi mənbəyə malikdirsə və müxatəbi insan, çağırışı ümumi olarsa və ədalət, bərabərlik, paklıq, məhəbbət, mənəviyyat və zülmlə mübarizəyə doğru meyl edərsə, böyük hərəkat yarada və geniş inqilab edə bilər. Ancaq bu inqilab ilahi, insani və daxilində ilahi hisslər, mənəvi şadlıq və insani dəyərlər olan bir inqilabdır. Bu növ inqilabları, tarixdə çox görmüşük və islam inqilabı da bu növdəndir.

Bu ziyalılar təsəvvür edə bilmirlər ki, bir mədəniyyətin bitərəf və məsuliyyətsiz olmaması və məsuliyyət qəbul etməsi üçün, onun mənbəyinin məzlum təbəqə olmasına ehtiyac yoxdur. Elə fikirləşirlər ki, geniş və ortaq mədəniyyət mütləq, bitərəf və heç bir şeyə etina etməyən bir mədəniyyətdir. Düşünə bilmirlər ki, ümumi mədəniyyət və ümumi məktəb, əgər ilahi mənbəyə malik olarsa və müxatəbi insan – yəni insanın insani fitrəti – olarsa, onun bitərəf, məsuliyyətsiz, etinasız olması qeyri-mümkündür. Məsuliyyətin və öhdəçiliyin yaratdığı şey məhrum təbəqəyə bağlılıq deyil, Allaha və insanlıq vicdanına bağlılıqdır.

Bu, islamla inqilabın əlaqəsi barəsində alimnümanaların düçar olduğu səhvin əsas köklərindən biridir.

---

[1] Marks və Marksizm, səh-39.

Bu səhvin digər əsas kökünü, islamın ictimai istiqamətlənmə ilə əlaqəsində axtarmaq lazımdır. Həmin ziyalılar aşkarcasına görüblər ki, Quranın peyğəmbər inqilabları haqqında tarixi şərhində, onlar tərəfindən müstəzəf və məzlumların xeyrinə güclü meyillilik müşahidə olunur. Digər tərəfdən də meyl və mənbə arasında uyğunluq prinsipi – başqa sözlə, marksizm prinsipi olan ictimai bazis ilə etiqadi bazis arasında uyğunluq prinsipi – bu ziyalıların fikrincə mütləq qəbul olunur və onun əksini təsəvvür edə bilmirdilər. Ümumiyyətlə, belə nəticəyə gəlirdilər ki, Quran müqəddəs və proqressiv hərəkatların meyilliliyini, aşkar şəkildə zəiflərin xeyrinə və onların hüquq və azadlıqlarının təmini üçün bildiyinə görə, deməli, Quran baxımından bütün müqəddəs və proqressiv hərəkatların mənbəyi, məhrum və qarət olunmuş təbəqədir. Bununla da, Quran baxımından, tarix maddi və iqtisadi şəxsiyyətə malik olub, iqtisadi bazis sayılır.

İndiyə qədər söylədiklərimizdən aydın oldu ki, Quran fitrət prinsipini, fitrət məntiqi adlanan və insan həyatı üzərində hakim olan məntiqi də qəbul etdiyi üçün, islami meyl və mənbə uyğunluğu prinsipi, yaxud ictimai baza ilə etiqadi baza uyğunluğu prinsipini qəbul etmir və onu qeyri-insani bir prinsip sayır. Yəni bu yuğunluq, insanlığa çatmamış şəxslərdə və təlim-tərbiyə görməmiş insanlarda olur və onların məntiqi də mənfəət və qazanc məntiqidir.

Bundan başqa, islam zəif təbəqəyə tərəf meyllidir ifadəsini işlətməyimiz də bir qədər düzgün deyildir. İslam ədalət, bərabərlik və haqqa doğru meyllidir. Aydındır ki, bu meyldən bəhrələnən və xeyir görənlər, məhrumlar və

zəiflərdir. Bu meyldən ziyan çəkənlər isə qarətçilər, istismarçılar və onlar kimilərdir. Yəni, hətta islam bir təbəqənin mənafe və hüququnu qorumaq istədikdə belə, əsas hədəfi hər hansı bir dəyərin və insani prinsipin yaradılması və həyata keçməsi olur. Məhz burada, növbəti dəfə Quranda aşkarcasına bəyan olunan və islam elmlərində elmlərin anası adlandırılmalı olan fitrət prinsipinin fövqəladə dəyər və mahiyyəti aydın olur.

Fitrət barəsində çox söhbət açılır. Ancaq onun dərinliyinə və müxtəlif cəhətlərinə çox az fikir verilir. Əksər vaxtlarda görürük ki, bəzi şəxslər fitrətdən dəm vurur, lakin onun geniş cəhətlərinə yaxşı fikir vermədiklərinə görə, gəldikləri nəticə bu prinsiplə daban-dabana zidd olur.

Belə səhvlərə çox qabarıq bir misalı, dinlərin meydana gəlməsi barəsində olan fikirdə görmək olar. Bura qədər söylədiklərimiz, din baxımından tarixi olayların mənbəyi və şəxsiyyəti barəsində idi. İndi isə bəhs, tarixin əvvəlindən indiyədək tarixi-ictimai olay kimi mövcud olan dinlər barəsindədir. Bu ictimai həqiqətin mənbə və təmayülləri aşkar olunmalıdır.

Dəfələrlə təkrar etmişik ki, tarixi-marksist materializm, hər bir mədəni olayın mənbəyi ilə onun təmayülləri arasında uyğunluğu qəbul edən bir prinsip yaratmışdır. Həqiqətdə bu prinsip ariflər, ilahi alimlər və filosofların varlıq sisteminin ümumi hərəkətində inandıqları və qəbul etdikləri prinsiplə eynidir.

Marksizm bunun oxşarını düşüncə məsələləri, zövq, fəlsəfi, dini işlər və nəhayət, ictimai-mədəni olaylar barəsində deyib. Bu məktəb iddia edir ki, hər bir

düşüncənin meyli, baş qaldırdığı və meydana gəldiyi tərəfdir. Bitərəf düşüncə, fikir, din, mədəniyyət, yaxud cəhətsiz və ya cəhətli olub qalxdığı ictimai mövqedən fərqli bir ictimai mövqe ardınca olan təfəkkür və s. yoxdur. Bu məktəbin fikrincə, hər təbəqənin özünəməxsus zövqü və düşüncəsi vardır. Buna görə də, təbəqəli və parçalanmış cəmiyyətlərdə iki növ dərd, iki növ fəlsəfi fikir, iki əxlaq sistemi, iki mədəniyyət forması, iki növ ədəbiyyat, iki növ zövq və varlığa baxış və çox güman ki, iki növ elm vardır. Bazis və malikiyyət əlaqələri iki formada olduğu üçün, bütün bunlar da iki formalı və iki sistemli olurlar.

Marks şəxsi olaraq, bu iki sistem üçün istisna qeyd edir: Din və dövlət. Marksın fikrincə, bu iki ixtira qarətçi təbəqəyə məxsus olub, onların istismar metodu və alətidir və anoloji olaraq, bu iki olayın meyl və mövqeyi həmin təbəqənin xeyrinədir. İstismar olunan təbəqə, öz ictimai mövqeyinə uyğun olaraq nə dinin nə də dövlətin tərəfdarıdır. Din və dövlət müxalif təbəqə tərəfindən zorla ona qəbul etdirilib. Deməli, iki din və dövlət sistemi yoxdur və ola da bilməz.

Bəzi müsəlman ziyalılar iddia edirlər ki, Marksın nəzəriyyəsinin əksinə olaraq, iki sistemlilik dinə də aiddir. Əxlaq, incəsənət, ədəbiyyat və digər mədəni işlər təbəqəli cəmiyyətlərdə iki sistemli olduğu və hər sistemin mənbəyi və meyli, öz təbəqəsinə xas olduğu kimi – biri hakim, o biri isə məhkum təbəqəyə xasdır – din də iki sistemlidir. Cəmiyyətdə iki din vardır: Hakim təbəqəyə məxsus olan hakim din və məhkum təbəqəyə məxsus olan məhkum və asılı din. Hakim din şirk və məhkum din isə tohid dinidir.

Hakim din ayrı-seçkilik və məhkum din isə, bərabərlik dinidir. Hakim din mövcud vəziyyəti qorumaq istəyən və məhkum din isə, inqilabi və mövcud vəziyyəti pisləyən dindir. Hakim din durğunluq, sakitlik dini, məhkum din isə oyanış, fəryad və hərəkət dinidir. Hakim din cəmiyyətin əfyunu (tiryeki), məhkum din isə, cəmiyyətin enerjisidir.

Deməli, dinin, hakim təbəqənin xeyrinə və məhkum təbəqənin zərərinə olmasına əsaslanan Marksın nəzəriyyəsi, mənbəyi hakim təbəqə olan din barəsində doğrudur və faktiki olaraq təkcə həmin din olub və hakimlik edib. Bu nəzəriyyə, məhkum din – yəni, peyğəmbərlərin gətirdiyi və hakim rejimlərin, qarşısını aldığı və inkişafına imkan vermədiyi dinə aid deyil.

Bu ziyalılar həmin yolla, dinin mövqe və meylini yalnız hakim təbəqənin xeyrinə bilən Marksın nəzəriyyəsini rədd etmiş və elə düşünmüşlər ki, bu yolla marksizmi rədd edirlər. Daha fikirləşməmişlər ki, bu fikir də, – hərçənd ki, Marksın, Engelsin, Maonun və digər marksizm rəhbərlərinin şəxsi fikri ilə zidd idi – marksizmin və materializmin din haqqında dedikləri ilə eynidir. Yəqin ki, onlar, bu dəhşətli şeyə fikir verməyiblər. Çünki, hər halda məhkum din üçün də təbəqə mənbəyi fərz etmiş və bununla da mənbə ilə meyl arasında uyğunluq prinsipini qəbul etmişlər. Başqa sözlə, onlar din və ümumiyyətlə hər bir mədəni olayın materialist mahiyyət və prinsipini onların mənbəyi ilə mövqeyi arasında uyğunluq zərurəti prinsipi əsasında qəbul etmişlər. Marks və marksistlərin nəzərinə zidd olaraq, mənbəyi və meyli məhrum və qarət olunmuş təbəqə olması fikrini dinə də aid etmişlər və əslində məhkum din üçün meyl cəhətdən maraqlı dəlil

tapmışlar. Ancaq mənbənin mahiyyəti baxımından bunu heç cür izah edə bilməmişlər.

Alınan nəticə nədir? Onların fikrincə, hakim təbəqəyə məxsus olan şirk və hakim din, həyatda rol oynamış yeganə tarixi bir dindir. Çünki, tarixin icbarı onlara dayaq olub, siyasi və iqtisadi qüdrət onların əlində olub və təbii olaraq da, onların vəziyyətini qorumağa çalışan dinlər, davam gətirərək hakimlik edibdir. Ancaq tohid dini, öz-özünə cəmiyyətdə xarici və həqiqi bir formaya düşə bilməyib. Tohid dini, cəmiyyətdə heç bir tarixi rol oynamayıb və oynaya də bilməzdi. Çünki, üstqurum bazisdən irəli keçə bilməz. Bu səbəbdən də tohid peyğəmbərlərin hərəkatları və ya tarixin uduzmuş və məğlub olmuş hərəkatlarıdır. Tohid dininin peyğəmbərləri, bərabərlik dini gətirmişdilər. Ancaq çox çəkmədi ki, şirk dini tohid və peyğəmbərlərin təlimi maskası altında öz həyatına davam edərək, həmin təlimatları təhrif etməklə o təlimatlardan qidalanır, gündən-günə qüvvətlənərək məhkum təbəqənin dərdinə hakim olurdu.

Həqiqətdə, peyğəmbərlər çalışırdılar ki, xalq üçün bir tikə çörək gətirsinlər. Ancaq, xalqın canı üçün bir bəlaya çevrilir, müxalif təbəqənin əlində bir vasitə olaraq, məhrumların və zəiflərin boğazlarını daha çox sıxmağa və boyunlarından halqanı dartmağa kömək edirdilər. Peyğəmbərlərin öz təlimatları vasitəsilə həyata keçirmək istəkdikləri baş tutmayıb və baş verənlər və həyata keçənlər də, onların istədikləri deyil.

Materialistlərin «din cəmiyyətin əfyunudur (tiryekidir)», «kasadlığa və durğunluğa səbəb olur», «ayrı-seçkilik və zülm üçün bəhanəyə çevrilir», «cahilliyin

qoruyucusudur» deməsi doğrudur. Ancaq bu sözlər tohid, məhrum və zəiflərin dini barəsində deyil, hakim və şirk, tarixə hakim olan ədalətsiz dinlərin barəsində doğrudur. Məhkum dinin oynadığı yeganə rol, etiraz və tənqid olub. Bu bir partiyanın parlament seçkilərini udması, hökuməti öz üzvlərindən təyin etməsi, öz proqram və qərarlarını həyata keçirməsi və digər partiyanın, mütərəqqi və inkişaf etmiş olmasına baxmayaraq, həmişə azlıqda qalmasına bənzəyir. Onun da əlindən, əksəriyyəti tənqid etmək və etiraz bildirməkdən başqa bir şey gəlmir. Qalib partiya, bu etirazlara qulaq asmır və cəmiyyəti istədiyi formada idarə edir və azlığın etiraz və tənqidlərindən öz hakimiyyətini gücləndirmək üçün istifadə edir. Əgər bu tənqidlər olmasaydı, onlar günbəgün artan təzyiqlər nəticəsində süqut edərdilər. Ancaq azlığın tənqidləri, ona müntəzəm olaraq xəbərdarlıq edir və o da, bu yolla günbəgün öz mövqeyini daha da möhkəmləndirir.

Yuxarıdakı iddia, heç bir vəchlə düzgün deyil. İstər şirk, istər tohid dininin mahiyyətinin təhlili və istərsə də tarixdə bu iki din üçün ayırdığı rol cəhətindən olmuş olsun. Şəksiz, dünyada həmişə din olub. Ya tohid, ya şirk, yaxud da hər ikisi. Şirk dininin tohid dininə və ya tohid dininin şirk dininə nisbətən daha qədim olması haqqında, sosiologiya alimləri arasında müxtəlif fikirlər mövcuddur. Əksəriyyət əvvəldə şirk dininin olmasını və sonradan tədriclə inkişaf edərək tohid dininə çatmasını qəbul edirlər. Bəziləri isə, bunun tam əksini söyləyirlər.

Dini rəvayətlər və dini prinsiplərin bəziləri ikinci nəzəriyyəni təsdiq edir. Ancaq, hər halda şirk dinləri niyə yaranıb? Doğrudanmı o, yuxarı və varlı sinf tərəfindən

uydurulub, yaxud bunun başqa bir səbəbi vardır? Tədqiqatçılar bu barədə başqa səbəblər göstərirlər və şirkin ictimai ayrı-seçkiliyin məhsulu olmasını qəbul etmirlər. Tohid dininin ayrı-seçkiliyə müxalif, bərabərlik və qardaşlığa tərəfdar olan məhrum təbəqənin istəkləri üçün əsas olması formasında təhlili isə, bundan daha pisdir və əlavə olaraq, islam əsasları ilə də əsla uyğun deyil.

Yuxarıdakı iddia ilahi peyğəmbərləri «günahsızlığı sübut olunmuş uğursuzlar» halına salır. Ona görə «uğursuz» adlanırlar ki, onlar batil qarşısında məğlub olmuş, tarix boyu uduzmuş və dinləri də cəmiyyət içində özünə yer tapa bilməmiş, ən azı hakim və batin din qədər nüfuz qazana bilməmişlər. Və ona görə «bəraət qazanmış» adlanırlar ki, materialistlərin iddiasına zidd olaraq, istismarçı və qarətçi təbəqədə deyil, əksinə müstəzəflər təbəqəsində olmuş, onların dərdini çəkmiş, onlar arasından çıxmış, onların xeyrinə və onların tapdalanmış hüquqlarının bərpası üçün çalışmışlar. Peyğəmbərlər, öz dəvətləri və peyğəmbərliklərinin ruhu baxımından – yəni, onların mövqeləri – bərat qazandıqları kimi, uğursuzluqları cəhətdən də tamamilə bəraət alırlar. Yəni, onlar öz uğursuzluqları üçün məsul deyillər. Çünki, xüsusi mülkiyyətdən kök alan «tarixin icbarı», rəqibə kömək edir. Xüsusi mülkiyyətin meydana gəlməsi, icbari olaraq, cəmiyyəti iki hissəyə bölür: İstismarçılar və istismar olunanlar. Maddi istehsal sahibi olan istismarçılar, təbii olaraq mənəvi istehsala daha çox yiyələnmişdilər, qəza və qədər adlanan «tarixin icbarı» ilə də – bu qəza və qədərin tanrısı göydə deyil, yerdədir və mənəvi deyil, maddidir, yəni, cəmiyyətin iqtisadi bazisi adlanan hakim qüdrətdir –

mübarizə etmək mümkün deyil. Deməli, peyğəmbərlər öz uğursuzluqları üçün məsuliyyət daşımırlar.

Ancaq, yuxarıdakı iddia ilə peyğəmbərlər «bəraət» qazanırlar deməklə bərabər, varlığın düzgün nizamı – «xeyir» nizamı – yəni, xeyirin şər üzərində qələbəsi, şübhə altına alınır. Sistemə müsbət nəzərlərlə baxan ilahiyyatçılar iddia edirlər ki, varlığın sistemi düzgün sistemdir, haqq sistemidir, xeyir sistemidir, şər və batil müvəqqətidir. Bəşərin ictimai sisteminin, yaxud varlıq sisteminin oxu və mehvəri haqdır:

**«...Köpük heç bir şey olmadığı üçün uçub gedər. İnsanlara fayda verən bir şey isə yer üzündə qalar...» (Rəd 17-ci ayə).**

Deyilənlərə görə, haqq ilə batilin mübarizəsində haqq qalib gələcək:

**«Xeyr, Biz batili haqla (küfrü imanla) rədd edərik və o, batili yox edər. Batil də dərhal heç olar.» (Ənbiya, 18-ci ayə).**

**«Şübhəsiz ki, Biz öz peyğəmbərlərimizə və iman gətirənlərə həm dünyada və həm də şahidlərin şəhadət verəcəyi gündə (qiyamət günündə) yardım edəcəyik.**

Deyərlər, Tanrı peyğəmbərləri himayə edir:

**And olsun ki, peyğəmbər bəndələrimiz haqqında əvvəlcədən (lövhi məhfuzda) bu sözümüz deyilmişdir: «Onlar mütləq qalib gələcəklər...».»** [1]

---

[1] Saffat 171-173-cü ayə.

Ancaq yuxarıdakı söylənilənlərə əsasən, bu prinsiplər şübhə altına alınır. Həmin iddiaya görə, peyğəmbərlər, rəsullar və tarixin digər islahatçıları bəraət almaqla bərabər, peyğəmbərlərin Tanrısı da şübhə altına alınır.

Burada bir çətinlik yaranır. Bir tərəfdən Quran, dünyanın ümumi axarına nikbinliklə baxır. Quran israr edir ki, haqq, varlıq və insaniyyətin ictimai həyat mehvəri olmalıdır. İlahi hikmət də öz xüsusi prinsipləri əsasında elan edir ki, həmişə xeyir şər üzərində və haqq batil üzərində qələbə qazanır. Şər və batil məcazi varlıqdırlar.

Digər tərəfdən, keçmiş və indiki tarixin mütaliə və müşahidəsi, indiki nizama qarşı bədbinlik yaradır və belə bir təsəvvür oyadır ki, tarixi başdan-ayağa faciə, zülmkarlıq, istismar və s. hesab edənlərin nəzəriyyəsi heç də səhv deyildir.

Bəs nə etməli? Biz, varlıq və insanın ictimai sistemini anlamaqda səhv edirikmi? Yaxud bunda deyil, Quranın hədəf və məqsədlərini anlamaqda səhv edirik və belə fikirləşirik ki, Quranın varlığa və tarixə baxışı müsbətdir? Yaxud da, bunların heç birində səhv etmirik və bu nöqsan və uyğunsuzluq, Quranla reallıq arasında mövcuddur və həll oluna bilməz?

Biz bu şübhəni varlıq sisteminə aid olduğu qədər, «İlahi ədalət» kitabında yazmış və Allahın köməyi ilə həll etmişik. Ancaq, tarixin axarına və bəşərin ictimai həyatına aid olanları isə, gələcək bəhslərdən birində, «Haqq ilə batilin mübarizəsi» adı ilə bəyan edəcəyik və Allahın köməyi ilə bu şübhənin həlli üçün öz nəzərimizi bəyan edəcəyik. Əgər mütəxəssislər bu barədə, öz nəzərlərini dəlillər əsasında bəyan etsələr, biz çox sevinərik.

# MEYARLAR

Hər hansı bir məktəbin, tarixin şəxsiyyəti barəsindəki baxışlarını tapmaq və ya araşdırmaq üçün müxtəlif meyarlardan istifadə etmək olar. Həmin meyarlara dəqiq fikir verməklə, həmin məktəbin tarixi hərəkatlara və tarixi hadisələrin mahiyyətinə hansı baxışla baxdığını anlamaq olar.

Bu məqsədlə də, nəzərimizdə olan meyarları diqqətinizə çatdırırıq. Əlbəttə ola bilər ki, biz burada bütün meyarları sadalaya bilməyək.

Meyarları söyləməzdən və onlar vasitəsilə islamın nəzərini araşdırmazdan öncə, qeyd etməliyik ki, bizim fikrimizcə Quranda, cəmiyyətin mənəvi qurumunun maddi qurumlara nisbətən daha mühüm və önəmli olduğunu aşkar şəkildə söyləyən bəzi prinsiplər vardır. Quran onlar haqqında buyurur:

**«...Hər hansı bir tayfa öz tövrünü dəyişmədikcə (pozmadıqca), Allah da onun tövrünü dəyişməz...» (Rəd-11).**

Başqa sözlə, xalqın vəziyyət və müqəddəratı, onlar öz nəfslərinə və ruhiyələrinə aid olan şeyləri dəyişmədikcə, heç vaxt dəyişməz. Bu ayə, tarixin iqtisadi icbarını aşkarcasına rədd edir.

Eyni halda, biz məsləhət gördüyümüz və əldə etdiyimiz meyarları söyləməklə islam məntiqini bu vasitələrlə araşdıracağıq.

# 1. DƏVƏT STARTEGİYASI

Cəmiyyət üçün deməyə sözü olan və cəmiyyəti bu sözü qəbul etməyə çağıran hər bir məktəb çarəsiz olaraq, bir tərəfdən həmin məktəbin əsas hədəfləri ilə uyğun gələn, digər tərəfdən isə, həmin məktəbin tarixi hərəkatların mahiyyəti haqqındakı baxışları ilə üst-üstə düşən xüsusi metod və üsuldan istifadə edir. Hər hansı bir məktəbin dəvəti, xalqa agahlıq vermək və onları hərəkətə gətirmək üçün xüsusi amillərə təzyiq göstərmək deməkdir. Məsələn, Oqust Kontun «insanlıq» məktəbinin – xüsusi növ elmi din tərəfdarıdır və insanın təkamülünün kökünü və cövhərini, onun zehni daxilində bilir və bu fikirdədir ki, insan öz zehnində iki (əfsanəvi və fəlsəfi) mərhələni keçərək elmi mərhələyə çatıb – çarəsiz olaraq, lazım saydığı agahlıqlar və hərəkət etmək üçün istifadə etdiyi bütün vasitələr də elmidir. Yaxud proletariyatın inqilabi nəzəriyyəsi olan marksizmin də verdiyi agahlıq, işçilərin özünüdərketmə hissinə çatdığı təbəqələrarası ziddiyət növündəndir və təzyiq etdiyi amil də, məhrumiyyət hissidir.

Məktəblərin cəmiyyət və tarixə baxışı əsasında verdikləri agahlıq və təzyiq etdikləri amillərin bir-birindən fərqli olmasından əlavə, tarix və insana baxışları əsasında dəvətin təsir dairəsi, dəvətin güclə əlaqəsi, gücün əxlaqi və ya qeyri-əxlaqi olması haqqında müxtəlif nəzəriyyələrə malik olacaqlar.

Bəzi məktəblərin, insana bağlı məsələlərdə əxlaqi saydıqları yeganə şey, sülhsevər dəvətdir. Güc və zor tətbiq etməyi istənilən şəraitdə və hansı formada

olmasından asılı olmayaraq, qeyri-əxlaqi sayırlar. Buna görə də, bu dinlərin müqəddəs prinsiplərindən biri də budur: Əgər sağ üzünə sillə vursalar, sol üzünü də çevir. Əgər pencəyini oğurlasalar, papağını da özün ver. Qarşılıqlı olaraq bəzi məktəblər, məsələn Nitçe məktəbi, yalnız gücü əxlaqi sayırlar. Çünki, insanın kamilliyi güc və qüdrətdədir və anoloji olaraq, fövqəl-insan ən qüdrətli insan deməkdir. Nitçenin fikrinə görə, xristianlıq əxlaqı nökərçilik, zəiflik, zillət və bəşər durğunluğunun əsas səbəbidir. Bəzilərinə görə isə, əxlaq güc və qüdrətə bağlı sayılır. Ancaq hər bir gücü də əxlaq saymırlar. Marksizmin fikrinə görə, istismarçının istismar olunan əleyhinə işlətdiyi güc qeyri-əxlaqidir. Çünki, mövcud vəziyyəti qorumağa çalışır və durğunluğa səbəb olur. Ancaq istismar olunanın işlətdiyi güc, əxlaqidir. Çünki cəmiyyətin dəyişməsi və ali mərhələyə keçid üçün işlədilir. Başqa sözlə, iki qrupun bir-biri ilə mübarizə apardığ və cəmiyyətə hakim olan çəkişmədən biri tezis, digəri isə anti-tezis rolunu oynayır. Tezis rolunu ifa edən güc, irticaçı olduğu üçün qeyri-əxlaqi və anti-tezis rolundakı güc, inqilabi olduğu üçün əxlaqi sayılır. Əlbəttə, indi əxlaqi olan güc növbəti mərhələdə, onu inkar edən yeni güclə üzləşir və o zaman özü mürtəce və zalım olur. Yeni gücün rolu isə, əxlaqi olacaq və deməli, əxlaq nisbi bir şeydir. Bu gün əxlaqi olan, sabah qeyri-əxlaqi və əxlaqa zidd olur.

Deməli, xristianlıq baxımından məktəbin müxalif qrupla olan əlaqəsi – bu qrup, məktəbin fikrincə təkamülün əleyhinədir – yalnız sırf əlaqədir və bu əlaqə mülayimlik və yumşaqlığa dəvətdir. Yalnız bu növ əlaqə,

əxlaqi sayılır. Nitçenin fikrincə, yalnız güclünün zəiflə olan əlaqəsi əxlaqidir. Qüdrətdən daha əxlaqi bir şey yoxdur. Həmçinin zəiflikdən daha əxlaqsız bir şey ola bilməz və ya zəiflikdən daha böyük günah yoxdur. Marksizmin fikrincə, iqtisadi baza cəhətdən iki müxalif qrupun əlaqəsi, güc və zor işlətməkdən başqa bir şey ola bilməz. Bu növ əlaqədə, istismarçı təbəqənin zor tətbiq etməsi təkamül əleyhinə olduğu üçün qeyri-əxlaqi sayılır və istismar olunanın zor işlətməsi, əxlaqi sayılır. Daha burada, yeni qüvvə ilə köhnə qüvvənin əlaqəsinin həm mübarizə, həm də əxlaqi olması söhbəti yoxdur.

İslam baxımından, yuxarıda sadalanan bütün nəzəriyyələr qüsurlu və iradlıdır. Əxlaqi olmaq, məsihiyyətin düşündüyü kimi, sülhsevər və din, əlaqə, mülayim dəvət, sülh, səmimiyyət və məhəbbətlə bitmir. Çox güman ki, güc və qüdrət də əxlaqi olur. Buna görə də, islam güc və zülm əleyhinə mübarizəni müqəddəs və məsuliyyətli sayır və bəzi hallarda, silahlı qiyam olan cihadı lazım və məsləhət bilir.

Aydındır ki, Nitçenin nəzəriyyəsi puç və anti humanist və təkamül əleyhinə olan bir nəzəriyyədir. Marksizm nəzəriyyəsi, tarix üçün nəzərdə tutduğu mexanizmə əsaslanır. İslam baxımından zülmlə qarşılaşmanın təkamül əleyhinə olan qrupla əlaqəsi, marksizm nəzəriyyəsinə zidd olaraq birinci deyil, ikinci əlaqədir. Birinci əlaqə, hikmət ilə gözəl moizənin əlaqəsidir. **«(Ya Məhəmməd!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət ilə Rəbbinin yoluna (islama) dəvət et...» (Nəhl-125).**

Güc tətbiqi ilə təkamül əleyhinə olanların əlaqəsi, fikri cəhətdən qane olma (hikmət=dəlil) və ruhi cəhətdən qane olma (moizə=xatırlatma) mərhələləri keçmiş və nəticəsiz qalmış olduqda, əxlaqi sayılır.

Elə buna görə də, bütün mübarizə aparmış peyğəmbərlər, öz dəvətlərinin birinci mərhələsini hikmət və gözəl moizə ilə başa vurmuş və bu yolla nəticə hasil olmadıqda və ya ümumi nəticəyə çatmadıqda mübarizəni, cihadı və zor-güc işlətməni, məntiqi və əxlaqi bir iş sayırdılar. Əsas kök və dəlil budur ki, islam maddi deyil, mənəvi düşündüyü üçün dəlil, moizə və məsləhətin böyük təsir qüvvəsinə inanır və (Marksın təbiri ilə) silahların tənqidinin gücünə inandığı kimi, tənqid silahının gücünə də inanır və ondan faydalanır. Ancaq onu, hər yerdə istifadəsi gərək olan yeganə silah və qüvvə saymır. İslamın, təkamül əleyhinə olanlarla mübarizəni birinci əlaqə deyil, ikinci əlaqə saymasının sirri, (həmçinin, dəlil və moizənin gücünə inanmasının da) islamın insana və anoloji olaraq cəmiyyət və tarixə olan mənəvi baxışıdır.

Deməli, məlum oldu ki, bir məktəbin müxalif cəbhə ilə əlaqəsinin dəvət və ikinci əlaqəsinin mübarizə olması, həmin məktəbin, məntiq və xəbərdarlığın təsir dairə və təsir gücü, həmçinin tarixin axarı və mübarizənin bu axarda rolu barəsindəki fikir və nəzərlərini aşkar edir.

İndi isə, söhbətin digər hissəsinə başlayırıq. Baxaq görək islami agahlıqlar və islamın təkid etdiyi və öz dəvətlərində təzyiq göstərdiyi vasitələr hansılardır?

İslami agahlıqlar (xəbərlər, məlumatlar, elmlər və s.) ilk növbədə, başlanğıca və məada işarə növündəndir. Bu həm Quranda istifadə olunan, həm də ötən peyğəmbərlərdən

nəql olunan bir üslubdur. Peyğəmbərlərin etdiyi xəbərdarlıq, «haradan gəlmisən, haradasan və hara gedəcəksən?» barəsindədir. Dünya haradan yaranıb, necə yaranıb, hansı mərhələlərdən keçib, hansı mərhələdədir, nəyə doğru gedir? Peyğəmbərlərin yaratdığı ilk məsuliyyət nigarançılığı, varlıq və yaradılışlar qarşısında olan məsuliyyət nigarançılığıdır. İctimai məsuliyyət nigarançılığı, varlıq və yaradılışlar qarşısında məsuliyyət nigarançılığının bir hissəsidir. Öncədən işarə etmişdik ki, Məkkədə nazil olmuş surələr (Peyğəmbər (s)-in peyğəmbərliyinin ilk 13 ilində nazil olmuş surələr) başlanğıc və məaddan (qiyamət) başqa çox az şeyə işarə edirlər.

Peyğəmbər (s) öz dəvətini, **«Qulu la ilahə illəllah, tuflihu»** kəlmələri ilə başladı. Mənası da etiqadi hərəkatın bir növ fikir təmizliyi ilə başlanması idi. Doğrudur ki, tohidin mənası genişdir və əgər islamın bütün təlimləri təhlil olunarsa, tohidə qayıdır və əgər tohid parçalanarsa, təhlillərə bölünəcək.[1] Ancaq bilirik ki, ilk vaxtlarda həmin cümlədən məqsəd, nə şirk ibadətlərindən və şirk etiqadlarından, ibadətdə və fikirdə tohidə doğru əməli və fikri meyllərdən artıq bir şey var idi. Əgər olsaydı, xalq başa düşər və xəbərdar olardı.

İnsanların zatının dərinliklərinə əl atan, bu köklü və qol-budaqlı agahlıq onlarda, yolunda canlarından, mallarından, vəzifə və uşaqlarından da keçdikləri xüsusi növ qeyrət hissi, öz əqidələrinin müdafiə təəssübü və bu əqidənin yayılması üçün şövq və həvəs yaradırdı.

---

[1] Əl-mizan, Ali-İmran surəsinin axırıncı ayəsinin təfsiri.

Peyğəmbərlər, bizim dövrdə, üstqurum adlanan işlərdən başlayır və bazisə doğru hərəkət edirdilər. Peyğəmbərlər məktəbində, insan mənafedən daha çox əqidəyə, məsləkə və imana bağlıdır. Həqiqətdə bu məktəbdə fikir və əqidə bazis sayılır, iş – yəni, təbiət və onun verdikləri ilə əlaqə – və cəmiyyət isə üstqurumdur. Hər bir dini dəvət, gərək peyğəmbərə bənzər – yəni, daimi xəbərdarlıq və başlanğıcla məadı xatırlatma ilə qarışıq – olsun. Peyğəmbərlər bu hissləri oyatmaqla, bu şüurları silkələməklə, bu vicdanların tozunu silməklə və bu agahlığı verməklə Tanrı razılığına, Haqq əmrinə, Haqqın mükafat və qəzəbinə arxalanaraq, cəmiyyəti hərəkətə gətirir. Quranda on üç yerdə Tanrının razılığından söz açılır. Yəni, Quran, cəmiyyətin bu mənəvi amilinə təsir etməklə, iman əhlini hərəkətə gətirir. Bu agahlığın adını ilahi agahlıq, yaxud dünyəvi agahlıq (dünya miqyaslı) qoymaq olar.

İkinci olaraq, islam təlimləri içində insan agahlıqları görünür. Yəni insanın, öz zatının kəramət və şərəfinə, öz zatının izzət və böyüklüyünə diqqət etməsi nəzərə çarpır. Bu məktəbdə insan mövcudluğunun səbəbi yüz milyon illər ərzində – sair canlılarla eyni səviyyədə olduğu zaman – təbii mübarizə və seçmə mərhələsində saysız xəyanətlər edərək bu mərhələyə çatmış heyvan deyil, əksinə varlığında ilahi ruhun zərrəcikləri olan varlıqdır. Mələklər ona səcdə edirdilər. Onu göylərdən yerə səfir göndərirlər. Bu vücudun varlığında, şəhvət və fəsada olan heyvani meyllərə baxmayaraq, zatən pislik, qan tökmə, yalan, fəsad, alçaqlıq, zülmə dözmək və s. ilə müxalif olan pak cövhər (maya) vardır və bu, böyüklük nişanəsidir:

**«Halbuki şərəf-şan da, qüvvət və qələbə də yalnız Allaha, Onun Peyğəmbərinə və möminlərə məxsusdur...»**[1]

Peyğəmbərin **«İnsanın şərəfi gecələr oyaq olmağı və izzəti, insanlara möhtac olmadan yaşamasıdır»,** Əli (ə)-ın Süffeyndə silahdaşlarına dediyi **«Yaşayış və həyat qalib ölməkdə, ölüm isə əl altda (kölə kimi) yaşamaqdadır»,** yaxud Hüseyn ibni Əli (ə)-ın **«Mən ölümdə səadət və zülümkarlarla yaşayışda isə, əzabdan savayı bir şey görmürəm»,** yaxud da **«Zillət bizdən uzaqdır»** sözlərində kəramət hissi və hər bir insanın fitrətində olan, insanın zati şərəfi kimi amillərdən istifadə olunur.

Üçüncü olaraq isə, hüquq və ictimai məsuliyyətlər barəsindəki agahlıq gəlir. Quranda elə misallara rast gəlirik ki, başqalarının və ya özünün tapdalanmış hüququna əsaslanaraq, hərəkət və oyanış yaratmağa çalışırlar:

**«(Ey müsəlmanlar!) Sizə nə olub ki, Allah yolunda və (Hicrət etməyib, yaxud əsir kimi Məkkədə qalıb): «Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən (Məkkədən) kənara çıxart, bizə Öz tərəfindən mühafizəçi göndər, yardımçı yolla!» – deyə dua edən aciz kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?» (Nisa-75).**

Bu müqəddəs ayədə, cihada təhrik etmək üçün iki mənəvi dəyərə toxunulur: Birincisi, həmin yolun Allah

---

[1] Munafiqun, 8-ci ayə.

yolu olması, ikincisi isə pənahsız və zəif insanların zülmkarların cəngində qalmasıdır. Həcc surəsində buyurulur:

**«Zülmə məruz qaldıqlarına görə vuruşanlara (kafirlərə qarşı Allah yolunda döyüşməyə) izn verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə qadirdir!**

**O kəslər ki, haqsız yerə, ancaq «rəbbimiz Allahdır» dediklərinə görə yurdlarından (Məkkədən) çıxarıldılar. Əgər Allah insanların bir qismini digər qismi ilə (müşrikləri möminlərlə) dəf etməsəydi, sözsüz ki, soməələr (rahiblərin yaşadığı monastırlar), kilsələr, yəhudi məbədləri və içərisində Allahın adı çox zikr olunan məscidlər uçulub dağılmışdı. Allah ona (Öz dininə) yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət və qüdrət sahibidir.**

**O kəslər ki, əgər onları yer üzərində yerləşdirsək (onlara bir yer versək) namaz qılar, zəkat verər, (insanlara) yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin sonu (nəticəsi) Allaha aiddir. (Allah qiyamət günü əməllərinə müvafiq olaraq möminlərə mükafat, kafirlərə isə cəza verəcəkdir.)» (Həcc-39-41).**

Bu ayədə cihad və müdafiənin icazəsini, mücahidlərin tapdalanmış hüququna işarə ilə verdiyini görürük. Eyni halda, müdafiənin əsas mənasının bir qrup tapdalanmış hüquqlardan daha qiymətli və daha üstün olduğunu qeyd

edir. Həmin məna isə budur ki, əgər müdafiə və cihad olmazsa və əgər iman əhli oturub gözləsələr, məbədlər və məscidlər – bunlar, cəmiyyətin mənəvi həyatının döyünən ürəyidir – ziyan çəkər və fəaliyyətləri dayanar. Nisa surəsində buyurulur:

**«Allah pis sözün açıq, ucadan deyilməsini sevməz. Yalnız zülm olunmuş şəxslər müstəsnadır...» (Nisa-148).**

Aydındır ki, bu, məzlumları qiyama səsləyən xüsusi növ çağırışıdır. Şuəra surəsində şairləri və onların xəyalpərəst ruhiyyəsini pislədikdən sonra deyir: **«Ancaq iman gətirib yaxşı işlər görən, Allahı çox zikr edən və zülmə uğradıqdan sonra intiqamını alanlardan (onları həcv edən müşrik, kafir şairlərə öz mənzumələri ilə qələbə çalan mömin şairlərdən) başqa!...» (Şuəra-227).**

Ancaq Quran və sünnətdə, zülmə tabe olmağın ən pis günahlardan və hüququn tələb və bərpasının isə vəzifə olması ilə yanaşı, bütün bunlar, məsələnin insani xüsusiyyətləri olan bir sıra dəyər kimi qiymətləndirilir. Quran heç vaxt mənəvi problemlərdən, həsəd hissinin, şəhvət və iştahanın təhrikindən istifadə etmir. Məsələn, heç vaxt demir ki, filan qrup belə qazanıb varlandı və nəyə görə sən onların yerinə olmayasan?

Əgər birinin malını zorla ondan almaq istəsələr, islam maddiyatın heç bir qiyməti olmadığı üçün malın sahibinin susmasına icazə vermir. Həmçinin birinin namusuna təcavüz olunduqda, bu təcavüzün şəhvət hissinə aid olduğu üçün namus sahibinin susmasına da icazə vermir.

Əksinə, müdafiəni bir vəzifə, öz namus, yaxud malını müdafiə edərkən ölmüş şəxsi isə şəhid sayır. Ancaq islam məntiqi, şəxsləri öz mallarının müdafiəsinə təşviq etdikdə, tamah və hərislik deyil, haqqı müdafiə etmək kimi dəyərli bir işdən söz açır. Namus və qeyrətin qorunmasını vacib bilirsə, şəhvət və cinsi məsələləri deyil, ictimai dəyərlərdən biri olan iffət hissini müdafiə etmək istəyir və bu da, kişinin əsas vəzifələrindən biridir.

## 2. MƏKTƏBİN ADI

Hər bir məktəb öz ardıcıllarını, xüsusi bir adla adlandırır. Məsələn, irqçilik nəzəriyyəsinin tərəfdarlarını ayıran və onun vasitəsilə tanıtdıran ad, ağ dərililikdir. Həmin məktəbin ardıcılları biz dedikdə, ağ dərililər qrupunu nəzərdə tuturlar. Yaxud, proletariyat nəzəriyyəsi olan marksist nəzəriyyəsi, öz ardıcıllarını proletariyat adlandırır və onların şəxsiyyət və nişanələri fəhləlikdir. Onlar «biz» dedikdə, fəhlə sinfini nəzərdə tuturlar. Biz fəhlələr və zəhmətkeşlər. Xristianlıq öz ardıcıllarının şəxsiyyətini, bir şəxsin (həzrət Məsihin) ardınca getməkdə görür. Guya ardıcılların məqsəd və yolla heç bir işləri yoxdur. Onların bütün şəxsiyyəti, «Məsih haradadırsa biz də orada olmalıyıq» şüarıdır.

İslamın xüsusiyyətlərindən biri də budur ki, o, öz ardıcıllarını ayırmaq üçün heç bir irqi, sinfi, əsalət, vəzifə, məhəl, ərazi, şəxsi və s. addan istifadə etmir. Bu məktəbin ardıcılları ərəblər, samilər, kasıblar, varlılar, zəiflər, ağdərililər, qaradərililər, asiyalılar (sarı irq), şərqlilər, qərblilər, Məhəmmədçilər, Qurançılar, qiblə əhli və s. ilə

adlandırılmırlar. Sadalananlardan heç biri, bu məktəbin ardıcıllarının həqiqi şəxsiyyətinin və birliyinin və «biz»inin mayası sayılmırlar. Söhbət, məktəbin şəxsiyyəti və onun ardıcıllarından düşdükdə, sadalanan bütün ünvanlar (adlar) puç olur və yalnız, bir şey qalır. O da müəyyən bir rabitə və əlaqədir. İnsanla Tanrı arasında olan əlaqə – yəni islam – Allaha təslim olmaq. Müsəlman ümməti necə ümmətdir? Tanrıya təslim olan, həqiqətə təslim olan, həqiqət üfüqlərindən bəşəri hidayət etmək üçün, ən yaxşı şəxslərin qəlbinə nur saçan, vəhy və ilhama təslim olan bir ümmətdir. Müsəlmanların «biz» və onların həqiqi şəxsiyyəti nədir? Bu din onlara hansı vəhdəti bağışlamaq istəyir, onları necə adlandırmaq istəyir, hansı bayraq altında birləşdirmək istəyir? Cavab budur: İslam öz ardıcıllarını həqiqətə təslim olmaq şüarı altında birləşdirir.

Hər bir məktəbin öz ardıcılları üçün tərtib etdiyi birlik (vəhdət), onun hədəflərini tanımaq və həmin məktəbin insan, cəmiyyət və tarix barəsindəki baxışlarını anlmaq üçün ən yaxşı yoldur.

## 3. QƏBUL ŞƏRAİTİ VƏ MANEƏLƏR

Bir qədər əvvəl qeyd etdik ki, tarixin hərəkət mexanizmi, məktəblər baxımından müxtəlifdir: Kimisi hərəkətin təbii mexanizmini, bir təbəqənin o birisinə olan təzyiqi və bir təbəqənin zatən irticaçı və digər təbəqənin zatən inqilabi olması kimi başa düşür; digəri isə hərəkətin təbii mexanizmini, bəşərin tərəqqipərvər və kamillik axtarışında olan pak fitrətində görür; başqa bir məktəb isə tamam başqa cür düşünür. Aydındır ki, hər bir məktəb öz

hərəkət mexanizmini nə cür anlamasından asılı olaraq, öz təlimlərində şərait və lazımi şeyləri, yaxud maneə və s. şeyləri aydınlaşdırır. Hərəkət mexanizmini, bir təbəqənin sair təbəqəyə etdiyi təzyiq kimi qəbul edən məktəb, cəmiyyəti hərəkətə və təlatümə gətirmək üçün lazım olan həddə təzyiq olmazsa, həmin təzyiqi yaradır və cəmiyyəti durğunluq halından çıxarır. Marks özünün bəzi əsərlərində xatırladır: «Azad olmuşlar təbəqəsinin olması üçün, suallar və kölələr təbəqəsinin olması zəruridir.»

Bu araşdırmanın sonunda yazır: «Bəs Alman xalqının azadlıq imkanı haradadır? Bizim cavabımız belədir: Gərək mütləq, bütünlüklə zəncirlənmiş təbəqə düzəlsin.»

Belə bir məktəb, islahatı maniə sayır. Çünki, islahatlar təzyiqi azaldır və təzyiqin azalması, inqilab və partlayış baş verməsinə mane olur və ən azı, onun baş verməsini gecikdirir. Bu, cəmiyyətin zati və fitri hərəkətinə inanan məktəbin baxışlarına ziddir. Belə bir məktəb, heç vaxt bir təbəqə üçün zəncir və qandal yaratmağın zəruriliyinə fitva verməz. Çünki, təzyiqi tədrici islahatları inkişafa mane saymadığı kimi, təkamülün lazımlı şərtlərindən də saymır.

İslam, şərait və maniə silsiləsində hansı işləri bəyan edir? İslamda şərait və maniələr adətən və yaxud həmişə, fitrət və zat ətrafında fırlanır. Quran bəzi hallarda, ilk paklıq şəraitində qalmağı, şərt adı ilə tanıtdırır. **(Müttəqilərə doğru yol göstərən – Bəqərə-2).**

Bəzi hallarda, varlıq sistemi qarşısında məsuliyyət hissindən doğan nigarançılığı şərt adlandırır və **«(Biz onu Allahın əzabından) qorxan bir kimsəyə yalnız öyüd-nəsihət olaraq göndərdik.» (Taha-3, Ənbiya-**

**49, Fatir-18, Yasin-11)** formasında bəyan edir. Bəzən də, fitrətin diri olması və oyaq qalmasının şərti kimi tanıtdırır: **«Onunla ağıl və bəsirət sahiblərini qorxut...» (Yasin-70).**

İslam öz dəvətinin qəbul şərtlərinin paklıq, nigarançılıq və yaradılmışlar qarşısında məsuliyyət hissi və fitri həyata doğru yaşayış olduğunu bildirir. Qarşılıqlı olaraq, maniələri ruhi və əxlaqi fəsad, ürəyin günahı,[1] ürəyin çirki (pisliyi),[2] ürəklərin möhürlü olması,[3] bəsirət gözünün bağlanması,[4] qulaqların eşitməz olması,[5] nəfs kitabının təhrif olunması (nəfsin səhv yola düşməsi),[6] əcdadların adətlərin ardınca getməsi,[7] şəxsiyyət və böyük adamlara pərəstiş etmək,[8] zənn və güman ardınca getmək (onlara əsaslanmağı)[9] və buna bənzər sair əməllər olduğunu da bildirir. İsrafı, qudurğanlığı və sərvət bolluğunu da, heyvani hissləri gücləndirdikləri və insanı da heyvana çevirdiyi üçün maniə sayır. Bu işlər Quran baxımından, cəmiyyətin təkamülü, islahı və inkişafı istiqamətində hərəkət və dəyişikliyə maniədir.

---

[1] Bəqərə-283.
[2] Mutəffifin-14.
[3] Bəqərə-7.
[4] Həcc-46.
[5] Fussilət-44.
[6] Şəms-10.
[7] Zuxruf-23.
[8] Əzhab-67.
[9] Ənam-116.

İslam təlimləri baxımından, cavanlar yaşlılara nisbətən, kasıblar varlılara nisbətən daha çox yeni şeylər qəbul etməyə meyillidirlər. Çünki birinci qrupun, yaş azlığına görə, hələ mənəviyyatı xarab olmayıb və ikinci qrup isə, sərvət və rahatlıqdan uzaq olublar.

Şərait və maniələrin bu formada bəyan olunması, Quranın tarixi və ictimai dəyişikliklər mexanizmi maddi və iqtisadi olmadığından, daha çox, ruhi və mənəvi qəbul etdiyini aydınlaşdırır.

## 4. CƏMİYYƏTLƏRİN TƏRƏQQİ VƏ TƏNƏZZÜLÜ

Hər bir ictimai məktəb bir qayda olaraq, cəmiyyətlərin tərəqqi və yüksəlişi, onların tənəzzül səbəbləri barəsində fikirlər irəli sürürlər. Hər hansı bir məktəbin, hansı şeyləri tərəqqi və hansıları tənəzzülə səbəb bilməyi cəmiyyətə, tarixə, hərəkatlara və tənəzzülə baxış formasını təyin edir.

Qurani-kərimdə – xüsusilə də, hadisə və əhvalatların nəqlində – bu mövzuya fikir verilir. Baxaq görək, Quran bazis nəzəri verir, yoxsa üstqurum nəzəri? Daha dəqiqi: Quran nələri əsas və bazis, nələri isə ikinci dərəcəli və üstqurum hesab edir? Əsas amil kimi maddi və iqtisadi məsələrə fikir verir, yoxsa etiqadi və əxlaqi məsələlər, yaxud da hər ikisinə eyni və bərabər baxır?

Quranda ümumiyyətlə, yüksəliş və tənəzzül prosesinə təsir edən, dörd amilə rast gəlirik. Bu amillərə qısa şəkildə işarə edərik:

1. **Ədalət və ədalətsizlik;** Quran bu mətləbi bir çox ayələrdə işıqlandırır. O cümlədən, Qəsəs surəsinin 4-cü

ayəsinə işarə etmək olar və biz, istizaf ayəsi bəhsində onun tərcüməsini verdik.

Bu ayədə, Allahlıq iddiasında olan Fironun – o, başqalarına zülm edir, onları öz köləsi sayır, müxtəlif bəhanələrlə insanlar arasında ayrı-seçkilik salaraq onları fərqli tutur və onları bir-birinə qarşı qoyurdu – qüdrət arzusunda olmağından, öz ölkəsinin bəzi insanlarını zəlil etməsi və onların oğlanlarını öldürərək qızlarını saxlamağından söz açdıqdan sonra, onu cinayətkarlardan biri adlandırır. Aydındır ki, **«O, həqiqətən, (yer üzündə) fitnə-fəsad törədənlərdən idi»** cümləsi, bu növ ictimai zülmlərin cəmiyyəti, kökündən silkələməsi və məhv etməsinə işarədir.

2. **Birlik və ayrılıq (parçalanma);** Ali-İmran surəsinin 103-cü ayəsində aşkarcasına, ilahi nura iman və itaət əsasında vahid və müttəhid olmağı, parçalanmaqdan və təfriqədən çəkinməyi əmr edir. Bir ayədən sonra buyurur ki, ixtilaf salan və parçalanan əcdadlarımız kimi olmayın. Ənam surəsinin 153-cü ayəsi də, məna baxımından bu ayəyə çox yaxındır.

Ənam surəsinin 65-ci ayəsində buyurur:

**«De ki: «Allah başınızın üstündən və ayaqlarınızın altından (göydən və yerdən) sizə əzab göndərməyə, sizi dəstələr halında qarışdırmağa və birinizə digərinin zorunu daddırımağa qadirdir!»...»**

Ənfal surəsinin 46-cı ayəsində buyurur:

**«...Bir–birinizlə çəkişməyin, yoxsa qorxub zəifləyər və gücdən düşərsiniz...»**

3. **Yaxşılığa çağırış və pislikdən çəkindirmənin icrası, yaxud tərk edilməsi;** Quran, yaxşılığa çağırışın və pislikdən çəkindirmənin zəruriliyi barəsində, geniş söhbət açıb. Ayələrdən biri aşkarcasına bildirir ki, bu böyük vəzifəni tərk etmək, bir qövmün və yaxud xalqın məhv və tənəzzülə uğramasında böyük rol oynayır. Bu, Maidə surəsinin 79-cu ayəsidir və bu ayə, Bəni-israil kafirlərinin Tanrının rəhmindən uzaq düşmələrinin səbəbini, bir-birini pis işdən çəkindirməməkdə görür:

**«Onlar bir-birini etdikləri pis əməldən çəkindirmirdilər. Onların gördükləri iş necə də pis idi.»**

İslamın mötəbər rəvayətlərində, yaxşılığa çağırış və pislikdən çəkindirmənin müsbət, yaxud mənfi roluna aid çox söz deyilib. Onları söyləməyə vaxtımız çatmır.

4. F**əsad, günah və əxlaqi pozğunluqlar.** Bu barədə də çoxlu ayələr vardır. Bunların bir qismi sərvət və rahat yaşamağı, həlak olmaq kimi dəyərləndirirlər.[1] Tərkibində zülm sözü olan əksər ayələr də, vardır. Quran anlamında zülm, bir şəxsin və ya qrupun başqa fərd, ya qrupun hüququna təcavüzü ilə bitmir. Şəxsin öz nəfsinə və bir xalqın öz nəfsinə etdiyi zülmə də aid olur. Hər bir cinayət, fəsad və insanı düzgün yoldan azdıran şeylər zülmdür. Əslində zülm, həm də fəsadı və qeyri-əxlaqi işləri əhatə edir. Adətən bu söz, ikinci mənada işlənir. Zülmün, ümumi mənasında bir xalqın məhvində və tənəzzülündə

---

[1] Hud-116, Ənbiya-13, Muminun 33 və 64-cü səh.

əsas amil olduğunu qeyd edən ayələr çoxdur və onları bu qısa bəhsdə işıqlandıra bilmərik.

Bu meyarlara ümumi şəkildə diqqət yetirdikdə, Quranın cəmiyyət və tarixin əsasları barəsindəki nəzərini tapmaq olar. Quran, bəzilərinin üstqurum adlandırdığı bir çox işlərin, böyük və təyin edici rolunu qəbul edir.

## TARİXİ İNKİŞAF VƏ ONUN DƏYİŞDİRİLMƏSİ

İndiyə qədər söylənilənlər tarixin iki mühüm məsələsindən biri haqda, yəni tarixin mahiyyətinin maddi və ya mənəvi olması barəsində idi. Digər mühüm məsələ isə, insan tarixinin dəyişilməsi və müxtəlifləşməsidir.

Bilirik ki, insan yeganə ictimai varlıq deyil. Bəzi başqa canlılar da, bu və ya başqa formada, ictimai həyata və ictimai varlığa malikdirlər. Yaşayışları vəzifə bölgüsü, qarşılıqlı yardım və məsuliyyətləri bir sıra qayda-qanun əsasında təşkil olunur və həyata keçirilir. Hamımız gözəl bilirik ki, arılar belə bir ictimai varlıqlardan sayılır.

Ancaq, insanın ictimai varlığı ilə həmin heyvanların ictimai varlığı arasında mühüm bir fərq vardır və o da budur ki, həmin heyvanların ictimai həyatı sabit və eyni şəkillidir. Onların yaşayış sistemlərində dəyişiklik, Meterlingin dili ilə desək, onların mədəniyyətində – əgər belə demək mümkünsə – heç bir dəyişiklik baş vermir. Bunun əksinə olaraq, insanın ictimai həyatı dəyişəndir və sürətə malikdir. Yəni, tədriclə onun sürəti artır. Buna görə də, insanın ictimai həyatının tarixi, müxtəlif cəhətlərdən bir-biri ilə fərqlənən dövrlərə bölünür.

Məsələn, məişət əşyaları baxımından: Ov dövrü, əkinçilik dövrü, sənaye dövrü. İqtisadi sistem baxımından: İbtidai icma qurluşu, quldarlıq qurluşu, feodalizm qurluşu, kapitalizm qurluşu, sosializm qurluşu. Siyasi sistem

baxımından: Xanlıq və krallıq dövrü, istibdad dövrü, aristokratiya dövrü, demokratiya dövrü. Cinsi baxımdan: Qadına pərəstiş dövrü, kişiyə pərəstiş dövrü. Həmçinin başqa cəhətlər də mövcuddur.

Niyə bu dəyişiklik, digər ictimai canlıların yaşayışında gözə çarpmır? İnsanın bir ictimai dövrdən digər ictimai dövrə keçməsinə səbəb olan bu dəyişikliyin sirri nədir? Başqa sözlə, heyvanda olmayıb insanda olan və yaşayışını irəli aparan şey nədir və bu irəli getmə, necə və hansı qanunlar əsasında və hansı mexanizmlərlə həyta keçirilir?

Əlbəttə, burada adətən, tarix filosofları tərəfindən belə bir sual verilir ki, inkişaf və təkamül doğrudan da varmı? Yəni tarix boyunca insanın ictimai həyatında baş vermiş dəyişikliklər, inkişaf və təkamül məqsədilə olmuşdurmu? Təkamülün meyar və etalonu nədir?

Bəziləri, bu dəyişikliklərin inkişaf və təkamül sayılmasına şübhə ilə yanaşırlar və bu şübhələr müəyyən kitablarda öz əksini tapmışdır.[1] Bəziləri tarixi hərəkəti qapalı dövrəyə bənzədirlər və iddia edirlər ki, tarix bir nöqtədən hərəkətə başlayır və müəyyən mərhələləri keçdikdən sonra, yenidən başlanğıc nöqtəsinə çatır və tarixin şüarı da məhz budur:

Məsələn, müəyyən bir sərt qəbilə sistemi, iradəli və şücaətli köçəri tayfa tərəfindən yaradılır. Bu hökumət, öz xüsusiyyətlərinə uyğun olaraq, aristokartiya ilə nəticələnir. Aristokratiya hökumətindəki təkhakimiyyətlik istəyi, kütlə inqilabına və demokratiya hökumətinə səbəb olur.

---

1 Tarix nədir? Kitabına bax.

Hərcmərclik, böyüklərin olmaması, ifrat azadlıqlar yenidən sərt hökumətin hakim olmasına şərait yaradır.

Biz hələlik, bu bəhsə toxunmuruq və onu sonra izah edəcəyik. Mövzunun əsasını, tarixi hərəkətin ümumilikdə inkişaf üzrə olmasını əsas götürük.

Əlbəttə demək lazımdır ki, tarixi, inkişafi hərəkətdə görənlərin hamısı etiraf edirlər ki, bütün cəmiyyətlərin gələcəyi heç də keçmişlərindən yaxşı deyildir. Cəmiyyətlər bir qayda olaraq və dayanmadan yüksəlişə doğru hərəkət edirlər və heç bir tənəzzül ola bilməz. Şübhəsiz cəmiyyətlər dayanır, tənəzzülə uğrayır, sola və sağa meyilli olur və nəhayət süqut edib və məhv olurlar. Məqsəd budur ki, bəşər cəmiyyətləri ümumi olaraq, yüksələn bir xətt üzrə gedirlər.

Tarix fəlsəfəsi kitablarında, tarixi mühərrikin və tarixi irəli aparan və dəyişdirən amilin nə olması məsələsi, adətən elə formada bəyan olunur ki, diqqətlə baxdıqda bu növ bəyanın səhv olduğunu görürsən. Adətən bu məsələ barəsində aşağıdakı formada nəzəriyyələr söylənilir:

1**. İrqçilik nəzəriyyəsi;** Bu nəzəriyyəyə əsasən, tarixi inkişafın əsas amili, bəzi millətlər və irqlərdir. Bəzi millətlər mədəniyyət yaratma istedadına malikdirlər, bəziləri isə yox. Bəziləri elm, sənaye, əxlaq, incəsənət yarada bilərlər, bəziləri isə istehsalçı deyil, istehlakçıdırlar.

Buradan nəticə alınır ki, millətlər arasında bir növ əmək bölgüsü aparılmalıdır: Siyasət, təlim-tərbiyə, mədəniyyət, incəsənət, sənaye və s. istedadı olan xalqlar bu zərif, ali və insani işlərin məsulu, bu cür istedadı olmayan millətlər isə, bu işlərdən azad olunsunlar və əvəzində, fiziki və heyvani işləri görsünlər. Ərəstun (Aristotel) Millətlərin ixtilafı

bəhsində belə bir nəzəriyyə verir. Elə buna görə də bəzi millətləri qul saxlamağa və bəzilərini isə qul olmağa layiq bilir.

Bəzilərinin əqidəsi budur ki, tarixi inkişaf etdirən amil, xüsusi millətlərdir. Məsələn, şimal millətləri, cənub millətlərindən üstündür. Məhz onlar, mədəniyyətləri irəli aparırdılar. Məşhur fransız filosofu Gennet Qobino (təqribən 12 il bundan əvvəl, 3 il Fransanın İranda səfiri işləyib), bu nəzəriyyənin tərəfdarlarındandır.

2. **Coğrafi nəzəriyyə;** Bu nəzəriyyəyə əsasən, mədəniyyəti yaradan və sənayeni düzəldən amil, təbii mühitdir. Yaxşı şəraiti olan məntəqələrdə, güclü mütəfəkkirlər yetişir. İbni Sina «Qanun» kitabında təbii mühitin, insanın hissləri, zövqü və fikri üzərində təsiri haqqında bəhs edir.

Bu nəzəriyyəyə əsasən, insanları tarixi inkişaf etdirməyə vadar edən, millət və qan – yəni, varislik amili – deyil, (müəyyən bir millət, hər hansı mühit və məntəqədə olursa olsun, tarixin yaradıcısı və hərəkət vericisidir və digər millət, hansı şəraitdə yaşamasından asılı olmayaraq belə bir istedadı yoxdur), əksinə millətlərin fərqi mühit fərqindən yaranır. Millətlərin yerdəyişməsi ilə tədriclə istedadlar da yerini dəyişir. Deməli əslində, xüsusi iqlim və xüsusi məntəqələr, tarixin hərəkət vericisi və yenilikçsi olurlar. On yeddinci əsrin məşhur fransız sosioloqu Monteskyu, özünün «Ruhul qəvanin» (Qanunların ruhu) kitabında bu nəzəriyyəni müdafiə edir.

3. **Qəhrəmanlar nəzəriyyəsi;** Bu nəzəriyyəyə əsasən, tarixi – yəni tarixin dəyişikliklərini – istər elmi, istər siyasi və yaxud iqtisadi, yaxud əxlaqi və ya texnoloji cəhətdən

olsun, karizmalar (xüsusi istedadlı şəxslər) yaradır. İnsanların digər canlılarla fərqi ondadır ki, digər canlılar bioloji cəhətdən – yəni təbii istedadlar baxımından – eynidirlər. Fərdlər arasında fərq – ən azı, gözə çarpacaq həddə – yoxdur. Onlardan fərqli olaraq insanlar, istedad baxımından bir-birindən, yerlə göy qədər fərqlidirlər. Xüsusi istedadlı şəxslər, hər bir cəmiyyətin müstəsna (az saylı, az rast gəlinən) üzvləridir. Onlar ağıl, zövq, iradə və s. baxımdan, qeyri-adi qüdrətə malikdirlər. Dünyaya gəldikdəri cəmiyyəti elmi, texnoloji və ya əxlaqi, siyasi və ya hərbi baxımdan inkişaf etdirir və irəli aparırlar.

Bu nəzəriyyəyə əsasən, bəşər üzvlərinin əksəriyyəti yenilikçi deyil, təqib edəndirlər. Başqalarının kəşf etdiyi sənaye və düşüncənin istehlakçılardırlar. Ancaq hər bir cəmiyyətdə, kiçik bir qrup ixtiraçı, yenilikçi və sənaye yaradıcısı vardır və məhz onlar, tarixi inkişaf etdirərək yeni mərhələyə daxil edirlər. Məşhur ingilis filosofu Karlayl – məşhur «Qəhrəmanlar» kitabının yazıçısı – (yeri gəlmişkən, ilk olaraq Peyğəmbər (s)-in şəxsiyyətinin araşdırır), belə bir nəzəriyyəyə malikdir. Karlaylın fikrincə, hər bir millətin dahi şəxsiyyətləri vardır ki, onlar həmin millətin tarixinin tərənnümüdür. Daha doğrusu, hər bir millətin tarixi, bir və ya bir neçə qəhrəmanın şəxsiyyətinin tərənnümüdür. Məsələn, islam tarixi, Peyğəmbər (s)-in şəxsiyyətinin və Fransanın yeni tarixi Napoleonun və bir neçə nəfərin şəxsiyyətlərinin tərənnümü və S.S.R.İ-nin tarixi isə, Lenin şəxsiyyətinin tərənnümüdür.

4. **İqtisadi nəzəriyyə;** Bu nəzəriyyəyə əsasən, tarixin mühərriki, iqtisaddır. Hər bir millətin bütün ictimai və

tarixi işləri – mədəni, dini, siyasi, hərbi və ictimai işləri – həmin cəmiyyətin istehsal əlaqələri və istehsal sisteminin tərənnümüdür. Cəmiyyəti kökündən dəyişdirən və irəli aparan amil, cəmiyyətin iqtisadi bazasının dəyişilməsidir. Bundan qabaqkı nəzəriyyədə adları çəkilən qəhrəmanlar, cəmiyyətin iqtisadi, sənaye və ictimai ehtiyaclarının tərənnümündən başqa bir şey deyillər və həmin ehtiyaclar öz növbəsində, istehsal vasitələrinin dəyişilməsi nəticəsində yaranırlar. Karl Marks, ümumilikdə bütün marksistlər və bəzi qeyri-marksistlər də, bu nəzəriyyənin tərəfdarlarındandır.

Bəlkə də bizim dövrdə nəzəriyyələrin ən geniş yayılmışı həmin bu nəzəriyyədir.

5. **İlahi nəzəriyyə;** Bu nəzəriyyəyə əsasən, yer üzündə yaranan hər bir şey yetkin və kamil hikmət əsasında yerə enmiş səmavi bir şeydir. Tarixi dəyişikliklər ilahinin yetkin hikmətinin və iradəsinin tərənnümüdür. Deməli tarixi irəli aparan və dəyişdirən, Tanrının iradəsidir. Tarix Tanrının müqəddəs iradəsinin oyun meydanıdır (yəni Tanrı istədiyi şeyi yaradır və tarixi istədiyi kimi öz qanunları əsasında idarə edir). 15-ci Luyinin müəllimi olmuş məşhur keşiş (Yepskop) və tarixçi Busuye bu nəzəriyyənin tərəfdarıdır. Bunlar tarixi fəlsəfə kitablarında tarixin mühərriki ünvanı ilə söylənilən nəzəriyyələrdir.

Bizim fikrimizcə bu növ bəyan etmə əsla düzgün deyil və burada bir növ «bəhslərin qarışdırılması» baş vermişdir. Əksər vaxtlarda bu nəzəriyyələrin, kəşf etmək istədiyimiz tarixi mühərriklərə (tarixin hərəkətə gəlmə səbəbinə) heç bir aidiyyəti yoxdur. Məsələn, irqi nəzəriyyə sosioloji bir nəzəriyyədir və bəşər xalqlarının varislik amili cəhətindən

eyni səviyyəli istedada malik olub-olmamaları cəhətindən bəyan oluna bilər. Əgər eyni səviyyədə olarsa, bütün xalqlar tarixi hərəkətdə eyni səviyyədə şərikdirlər və ən azı müştərək ola bilərlər. Əgər eyni səviyyədə olmazlarsa, bəzi xalqlar tarixin hərəkətində rol oynayır və oynaya bilər. Bu baxımdan məsələnin bəyan olunması düzdür. Ancaq tarixi fəlsəfənin sirri yenə açılmamış qalır. Əgər yalnız bir xalqın tarixi hərəkətə gətirdiyini və dəyişdirdiyini zənn etsək, problemin həlli baxımından bütün insanların tarixin axarında rolu olması fərziyyəsi ilə heç bir fərqi yoxdur və problem həll olunmamış qalır, çünki aydın olmur ki, niyə insan həyatı və insan irqlərindən birinin həyatı dəyişəndir və heyvanlarınkı isə dəyişilmir? Bu sirrin cavabı hardadır? Hərəkətverici amilin bir xalq deyil, bir neçə xalqın olması da tarixin hərəkət sirrini açmır.

Coğrafi nəzəriyyə də onun kimidir və bu nəzəriyyə də öz növbəsində insanın cismi, zövqi, fikri və əqli inkişafında mühitin rolu olması barəsində faydalı bir sosioloji məsələyə aiddir. Bəzi mühitlər insanları heyvan həddində və ya heyvana yaxın həddə saxlayırlar. Ancaq bəzi başqa mühitlər insanın heyvanla fasilə və fərqini artırır. Bu nəzəriyyəyə əsasən, tarix yalnız bəzi iqlim və məntəqələrdə yaşayan insanlar arasında hərəkətə malikdir. Digər məntəqə və mühitlərdə isə, sabit və dəyişməz olub heyvanın taleyinə bənzəyir. Ancaq əsas sual hələ də cavabsız qalır. Məsələn, bal arısı və ya sair ictimai heyvanlar elə həmin iqlim və məntəqələrdə də tarixi hərəkətdən məhrumdurlar. Bəs bu iki növ canlı arasında

ixtilafa – biri sabit, digəri isə daimi olaraq bir mərhələdən digər mərhələyə daşınır – səbəb olan əsas amil nədir?

İlahi nəzəriyyə bunlara nisbətən daha çox nöqsanlıdır. Məgər yalnız tarix ilahi iradənin tərənnümüdürmü? Bütün aləm yaranışdan indiyə kimi bütün vasitələri, səbəbləri, maniələri ilə birlikdə ilahi iradənin tərənnümüdür. İlahi iradənin bütün səbəblərə qarşı münasibəti eynidir. İnsanın dəyişən həyatı ilahi iradənin tərənnümü olduğu kimi, bal arısının yeknəsəq və sabit həyatı da ilahi iradənin tərənnümüdür. Deməli, əsas mövzu budur ki, ilahi iradə sair canlıların həyatında olmayan hansı şeyi insanların həyatında yaratmışdır ki, onların həyatı bu qədər dəyişkən olur?

Tarixi iqtisadi nəzəriyyənin də heç bir prinsipial və texnoloji xüsusiyyəti yoxdur. Yəni prinsipial formada bəyan olunmayıb. Tarixi iqtisadi nəzəriyyə bəyan olduğu formada yalnız tarixin maddi və iqtisadi mahiyyətini açıqlayır. Digər işlər və xüsusiyyətlər bu mahiyyətə bağlıdır. Bu nəzəriyyə açıqlayır ki, əgər cəmiyyətin iqtisadi qurumlarında dəyişiklik baş verərsə, icbari olaraq cəmiyyətin digər iş və qurumları da dəyişəcəkdir. Ancaq bütün bunların hamısı «əgər»dir, əsas məsələ, yenə də sual olaraq qalır: Fərz edək ki, iqtisad cəmiyyətin bazisidir və əgər bazis dəyişərsə, bütün cəmiyyət dəyişəcək. Ancaq niyə və hansı amilin təsiri ilə bazis dəyişir və ona bağlı olan digər qurumlar da dəyişir? Başqa sözlə, iqtisadın bazis olması, onun hərəkətdə olması və hərəkətverici olması üçün kifayət deyil. Bəli, əgər bu nəzəriyyənin tərəfdarları iqtisadı – iqtisad onların fikrincə cəmiyyətin bazisidir – tarixin mühərriki bilmək yerinə və tarixin

maddiliyini tarixi hərəkəti üçün kifayəedici bilmək əvəzinə, cəmiyyətin daxili təzadları məsələsini yəni, bazislə üstqurumun təzaddı – bəyan etsələr və «tarixi hərəkətin səbəbi bazislə üstqurum təzadıdır» və yaxud «tarixi hərəkətin səbəbi üstqurumun iki hissəsidir (istehsal alətləri və istehsal əlaqələri) desələr, məsələni daha düzgün formada söyləmiş olarlar. Şübhə yoxdur ki, bu məsələni bəyan edənin əsas məqsədi (iqtisad tarixin mühərrikidir) «bütün hərəkətlərin əsas səbəbi daxili təzadlar və istehsal vasitələri ilə istehsal əlaqələrinin tarixin hərəkətverici olduğunu» söyləməkdir. Ancaq bizim sözümüz bu nəzəriyyəni verənlərin məqsədinin nə olması deyil, yaxşı və düzgün bəyan etməkdir.

Qəhrəmanlar nəzəriyyəsi düz, yaxud səhv olmasından asılı olmayaraq, birbaşa tarixi fəlsəfəsinə – yəni tarixin hərəkətverici amilinə – aiddir.

İndiyə qədər tarixin hərəkətverici qüvvəsi barəsində iki nəzəriyyə əldə etmişik:

Onlardan biri tarixin şəxslər, tərəfindən yaradılmasını sayan qəhrəmanlar nəzəriyyəsidir. Bu nəzəriyyə iddia edir ki, cəmiyyətin əksər üzvlərinin istedad və ixtiraçılıq qabiliyyəti yoxdur. Əgər bütün üzvlər belə olarsa, cəmiyyətdə kiçik bir dəyişiklik belə yaranmayacaq. Ancaq ilahi istedadı olan kiçik bir qrup yaranır, ixtira edir, yenilik gətirir, qərarlar çıxarır, müqavimət göstərir və adi insanları öz arxalarınca aparır və bu yolla dəyişiklik yaradırlar. Bu qəhrəmanların şəxsiyyəti yalnız təbii və xüsusi varislik cərəyanların nəticəsidir. İctimai şərait və

cəmiyyətin maddi ehtiyacları bu şəxsiyyətlərin yaranmasında heç bir rol oynamır. İkinci nəzəriyyə iqtisadın mühərrik olmasını bildirən «cəmiyyətin bazis və üstqurumu arasında təzad» nəzəriyyəsidir. Bu nəzəriyyəyə bir qədər əvvəl işarə olundu.

Üçüncüsü, fitrət nəzəriyyəsidir. İnsanın bir sıra xüsusiyyətləri vardır ki, onlara əsasən, onun ictimai həyatı təkmilləşir. O xüsusiyyətlərdən biri, təcrübə toplamaqdır. Təcrübə vasitəsilə qazandıqlarını toplayır, qoruyur və digər təcrübələr üçün əsas kimi istifadə edir.

İstedadlardan biri də, bəyan və qələm vasitəsilə öyrənməkdir. Başqalarının təcrübəsini də dil və daha yüksək mərhələyə xətt (yazı) vasitəsilə əldə edir. Bir nəslin təcrübəsi, danışıq və yazı vasitəsilə, sonrakı nəsillər üçün yadigar qalır və üst-üstə yığılır. Elə bu səbəbdən də, Quran söyləmək, qələm və yazmağı, xüsusi formada yad edir:

**«Rəhman! (Rəhim olan Allah!) (Öz peyğəmbərinə) Quranı öyrətdi. İnsanı yaratdı. Ona danışmağı (fikrini və duyğularını bəyan etməyi) öyrətdi. (Ər-Rəhman, 1-4-cü ayələr).**

**«(Ya Peyğəmbər! Qurani-kərimi, bütün məxluqatı) yoxdan yaradan Rəbbinin adı ilə (bismillah deyərək) oxu!**

**O, insanı laxtalanmış qandan yaratdı.**

**(Ya Peyğəmbər!) Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir!**

**O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi.» (Ələq, 1-4-cü ayələr).**

Üçüncü xüsusiyyət, insnın ağıl və ixtira qüvvəsinin olmasıdır. İnsan bu sirli qüvvə vasitəsilə, yaratma qüdrətinə sahib olur və bununla da Tanrı yaradıcılığının tərənnümünə çevrilir.

Dördüncü xüsusiyyət, insanın yeniliyə olan fitri meyli və zati əlaqəsidir. Yəni insan yalnız lazım olduqda kəşf etməyə kömək edən ixtiraçılıq istedadına deyil, zatında olan yenilikçilik və ixtiraçılıq istedadına da sahibdir.

Təcrübələrin toplanması və qorunub saxlanılması, təcrübələrin bir-birinə ötürülməsi istedadından, yaradıcılığa zati meyl istedadından əlavə, elə bir qüvvədir ki, insanı daim irəli aparır. Digər heyvanlarda nə təcrübənin qorunması, nə onun ötürülməsi, nə yaradıcılıq istedadı (bu ağıl qüvvəsinin xüsusiyyətlərindən biridir) və nə də yeniliyə meyl yoxdur. Elə buna görə də, heyvan eyni səviyyədə qalır, insan irəli gedir. İndi bu nəzəriyyələri araşdıraq.

## TARİXDƏ ŞƏXSİYYƏTİN ROLU

Bəziləri iddia edirlər ki, **«Tarix, istedadla adi hədd arasında mübarizədir».** Yəni, adi şəxslər və orta səviyyəlilər, adətən etdikləri vəziyyətin tərəfdarıdırlar və istedad, mövcud vəziyyətin daha ali formaya çevrilməsini istəyir.

Karlayl iddia edir ki, tarix istedad və qəhrəmanlarla başlayır. Bu nəzəriyyə, əslində iki fərzə əsaslanır.

**Birincisi**, cəmiyyətin təbiət və şəxsiyyəti yoxdur. Cəmiyyətin tərkibi fiziki tərkib deyil. Üzvlər hamısı, bir-birindən müstəqildir. Üzvlərin bir-birinə təsir və əks

təsirindən ictimai ruh və öz qanunları olan mürəkkəb varlıq yaranmır. Deməli, yalnız şəxslər və onların psixologiyaları mövcuddur. Bəşər üzvlərinin bir cəmiyyətdə, bir-birindən müstəqil olmaları baxımından əlaqələri, meşədə bitən ağacların əlaqəsinə bənzəyir. İctimai hadisələr, şəxsi hadisələrin cəmindən başqa bir şey deyil. Elə bu səbəbdən də, cəmiyyət üzərində ümumi səbəblərin deyil, xüsusi və şəxsi səbəblərin qarşılaşmasının nəticəsi olan təsadüflər hakimlik edir.

**İkinci** güman budur ki, bəşər üzvləri müxtəlif şəkildə yaradılıblar. Bəşər üzvlərinin ümumiyyətlə, mədəni varlıq olmasına baxmayaraq, eyni halda, insanların əksəriyyətində yaradıcılıq, yenilikçilik, ixtiraçılıq və s. yoxdur. Əksəriyyət, mədəniyyətin istehsalçısı deyil, istehlakçısıdır. Heyvanlarla fərqləri budur ki, heyvanlar hətta istehlakçı da ola bilməzlər. Bu əksəriyyətin ruhu təqlid, təqib etmə və qəhrəmanlara pərəstiş etmə ruhudur. Ancaq insanların çox az bir hissəsi qəhrəman, istedad, müstəqil fikirləşən, ixtiraçı və güclü iradə sahibidirlər və başqalarından fərqlənirlər. Sanki, başqa torpaqdan yoğrulmuşlar. Əgər elmi, fəlsəfi, zövqi, siyasi, ictimai, hərbi və s. istedadlar olmasaydı, bəşəriyyət ilk gündə olduğu formada qalacaqdı və hətta, bir addım belə irəli getməyəcəkdi.

Bizim fikrimizcə, hər iki güman nöqsandır. Birinci güman, öncədən cəmiyyət bəhsində cəmiyyətin şəxsiyyətə, təbiət və qanuna malik olmasına və bu ümumi qanunlara əsasən, hərəkət edir və bu «qanunlar öz-özlüyündə təkamül və inkişaf edəndirlər» cəhətindən iradlıdır. Deməli, bu gümanı kənara qoymalıyıq və cəmiyyətin

şəxsiyyət, təbiət və qanunları olmasına və bu qanunlar əsasında hərəkət etməsinə baxmayaraq, fərdin şəxsiyyəti rol oynaya bilər, ya yox? Bu barədə sonra söz açacağıq. Ancaq ikinci güman, bu mətləbin inkar olunmadığına baxmayaraq – yəni, bəşər üzvləri müxtəlif yaradılıblar – doğru deyil. Doğru deyil ki, yalnız istedadların, şəxsiyyətlərin və qəhrəmanların yaradıcılıq və ixtiraçalıq qüdrəti var və qalan əksəriyyət, yalnız istehlakçıdır. Bütün insanlarda, az-çox yaradıcılıq istedadı var və buna görə də, hamı və ya bir çoxu, yaradıcılıqda, istehsalda və s. şərik ola bilərlər. Hətta istedadlılara nisbətən payları az olsa da belə.

Tarixi, şəxsiyyətlərin yaratdığını iddia edən bu nəzəriyyənin qarşılığı, onun tam əksini deyən nəzəriyyədir. Bu nəzəriyyə iddia edir ki, şəxsiyyət tarixi deyil, tarix şəxsiyyətləri yaradır. Yəni şəxsiyyətləri cəmiyyətin hiss olunan ehtiyacları yaradır.

Monteskyunun dilindən deyilir: «Böyük şəxsiyyətlər və mühüm hadisələr geniş cərəyanların, nişanə və nəticəsidir.» Heygelin dilindən deyilir: «Böyük şəxsiyyətlər, tarixin yaradıcısı deyil, qadın həkimidirlər (mama).» Böyük şəxsiyyətlər nə nişanədirlər, nə də amil. Durkey kimi cəmin üstünlüyünə inananların fikrincə – onlar, insanların öz zatlarında şəxsiyyətsiz olduğuna və öz şəxsiyyətlərini cəmiyyətdə qazandıqlarına inanırlar – şəxsiyyətlər və fərdlər, ictimai ruhun tərənnümündən başqa bir şey deyillər.

Və Marks kimi, insanın sosiologiyasını onun ictimai işi saymaq və onu, ictimai şüurdan üstün tutmaqdan əlavə – yəni, insanların şüurunu ictimai maddi ehtiyacların tərənnümü sayırlar – bu qrupun fikrincə, şəxsiyyətlər cəmiyyətin maddi və iqtisadi ehtiyaclarının nümunəsidirlər (göstəricisidirlər).

## MÜNDƏRİCAT

ÖN SÖZ ............................................................2
BİRİNCİ FƏSİL ....................................................5
CƏMİYYƏT.........................................................5
CƏMİYYƏT NƏDİR? ...........................................5
İNSAN TƏBİƏT ETİBARİLƏ İCTİMAİ VARLIQDIRMI? ..................................................6
CƏMİYYƏT ZAHİRİ VÜCUDA MALİKDİRMİ? 10
CƏMİYYƏT VƏ ADƏT-ƏNƏNƏ ...................19
İCBAR YA İXTİYAR?.......................................24
İCTİMAİ QÜTBLƏŞMƏLƏR VƏ BÖLÜMLƏR28
????????MAHİYYƏT BAXIMINDAN CƏMİYYƏTLƏRİN NECƏLİYİ ......................33
CƏMİYYƏTLƏRİN GƏLƏCƏYİ ...................37
İKİNCİ FƏSİL.....................................................49
TARİX ................................................................49
TARİX NƏDİR? ..................................................49
ELMİ TARİX ......................................................56
1. NƏQLİ TARİX MÖTƏBƏRDİRMİ?...........58
2. TARİXDƏ SƏBƏB AMİLİ .........................60
3. TARİXİN TƏBİƏTİ MADDİDİRMİ? .........66
TARİXİ MATERİALİZMİN ƏSASLARI........68
1. MADDƏNİN RUH ÜZƏRİNDƏ ÜSTÜNLÜYÜ ..................................................................68

2. MADDİ EHTİYACLARIN MƏNƏVİ EHTİYACALARDAN ÜSTÜNLÜYÜ ............71
3. İŞİN DÜŞÜNCƏYƏ NİSBƏTƏN ÜSTÜNLÜK PRİNSİPİ ..........................................................74
4. İNSAN SOSİOLOGİYASININ PSİXOLOGİYADAN ÜSTÜNLÜYÜ ..............76
5. CƏMİYYƏTİN MADDİ CƏHƏTİNİN MƏNƏVİ CƏHƏTİNDƏN ÜSTÜNLÜYÜ .......................80
NƏTİCƏLƏR ....................................................90
TƏNQİDLƏR ...................................................108
1. SÜBUTSUZLUQ .........................................111
2. YARADICILARIN FİKİR DƏYİŞMƏLƏRİ112
3. BAZİS VƏ ÜSTQURUMUN İCBARİ UYĞUNLUĞUNUN İNKARI ........................122
4. SİNFİ DAYAQLARLA İDEOLOJİ DAYAQLARIN UYĞUNSUZLUĞU ............124
5. MƏDƏNİ İNKİŞAFIN AZADLIĞI ...........124
6. TARİXİ MATERİALİZM ÖZÜNÜ İNKAR EDİR ..........................................................................127
İSLAM VƏ TARİXİ MATERİALİZM ..........129
İSLAM NƏZƏRİNDƏN TARİXİ MATERİALİZM NƏZƏRİYYƏSİNİN TƏRƏFDARLARI.......130
İRAD VƏ TƏNQİDLƏR ................................141
MEYARLAR...................................................170
1. DƏVƏT STARTEGİYASI .........................171
2. MƏKTƏBİN ADI .......................................180
3. QƏBUL ŞƏRAİTİ VƏ MANEƏLƏR........181

4. CƏMİYYƏTLƏRİN TƏRƏQQİ VƏ TƏNƏZZÜLÜ ................................................ 184
TARİXİ İNKİŞAF VƏ ONUN DƏYİŞDİRİLMƏSİ ............................................................... 188
TARİXDƏ ŞƏXSİYYƏTİN ROLU ............... 198